Bu bir xalq qəzetidi
ƏDALƏT

## Hərbi prokuror: Azərbaycan Ordusunda fərarilik faktı qeydə alınmayıb



**Azərbaycan Silahlı Qüvvələrində fərarilik faktı qeydə alınmayıb.**

Bunu Respublika Hərbi Prokurorluğunda keçirilən kollegiya iclasında Baş prokurorun müavini, Respublika Hərbi prokuroru Xanlar Vəliyev deyib. O bildirib ki, bu ilin 6 ayı ərzində qeydə alınmış bəzi qəbildən olan cinayətlər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə azalıb. ”Belə ki, 2021-ci ilin birinci yarımili ilə müqayisədə 2022-ci ilin birinci yarısında qeydə alınmış özünü öldürmə həddinə çatdırma cinayətləri 30 faiz, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 88,9 faiz, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 14,3 faiz, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 40 faiz və xuliqanlıq cinayətləri 25 faiz azalıb.

Ötən ilin eyni dövrü ilə müqayisədə şəxsi heyətin itkilərinin sayı da ümumilikdə əhəmiyyətli dərəcədə azalıb. Vurğulanıb ki, sözügedən dövrdə fərarilik və qəsdən sağlamlığa ağır zərərvurma cinayətləri törədilməyib”, - X.Vəliyev deyib.

## Prokurorluğun təqdimatları üzrə 11 şəxs vəzifədən azad edilib




**2022-ci ilin birinci yarımili ərzində aparılmış araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi, həmçinin cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə 115 təqdimat verilib.**

”Report”un xəbərinə görə, bu barədə Baş Prokurorluqda hazırda keçirilən geniş kollegiya iclasında bildirilib.

Qeyd edilib ki, təmin təqdimatlar üzrə 11 şəxs vəzifədən azad olunmuş və ya müvəqqəti olaraq vəzifəsinin icrasından kənarlaşdırılıb, 4 halda xəbərdarlıq olunub, 24 işçiyə töhmət və ya şiddətli töhmət verilib, digər hallarda isə təqdimat əmək kollektivinin iştirakı ilə geniş müzakirə olunaraq təqdimatda göstərilmiş qanun pozuntularının aradan qaldırılması, qanunvericiliyin tələblərinə ciddi əməl olunması, gələcəkdə bu kimi hallara yol verilməməsi üçün təxirəsalınmaz tədbirlərin görülməsi barədə müvafiq əməkdaşlara göstəriş verilib.

## 32 il bir səngərdə

**Bu, “Ədalət”in yaşıdı**

Bax:səh-3

## Şuşada Beynəlxalq Media Forumu keçirilib




**Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Milli Mətbuat Günü münasibətilə ”Mediada qlobal trendlər, yeni çağırışlar” mövzusunda Beynəlxalq Media Forumu keçirilib. Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən forumda yerli və xarici media nümayəndələri, eyni zamanda ekspertlər iştirak ediblər.**

Qeyd edək ki, forum ”Yeni media jurnalistikasına keçid: konvergensiya və yeni imkanlar”, ”Media etikası: rəqəmsal mühitdə jurnalistlərin peşə davranışı”, ”Azərbaycan mətbuatında Şuşa izi”, ”Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivləri” panelində keçirilib.

## "AZAL"ın PREZİDENTİNİN MAAŞINI HƏLƏ Kİ CAHANGİR ƏSGƏROV ALIR



**Mən bu sətirləri yazanda içəri girən məşhur idman jurnalisti Eldar İsmayılov dedi ki, qardaş, orda maaş da verirlər?**

## SALAM GƏTİRMİŞƏM HÜZURUNA MƏN O TÜRKÜN YENİLMƏZ SƏRKƏRDƏSİNDƏN



**Rusiya prezidenti Putin Tehranda qardaş ölkənin cümhurbaşkanı sayın Ərdoğanla görüşündə deyib: ”Sizə İlham Əliyevdən böyük salam gətirmişəm”. İndi baxıram ki, saytlarda, sosial şəbəkələrdə bunu Putinin təxribatı kimi qiymətləndirirlər. Heç bir təxribatı yoxdur. Putin demək istəyib ki, yəni mənim İlham Əliyevlə də xoş münasibətlərim var.**

Yəqin Ərdoğan da Putinə deyib ki, ”salam göndərən də sağ olsun, gətirən də”.

Bizdə adətən belə deyirlər.

## 23 şəxs cinayət başında yaxalandı



**2022-ci ilin birinci yarımili ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməliyyat qurumları tərəfindən 96 cinayət işi başlanılıb, keçirilmiş 22 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 23 şəxs cinayət başında yaxalanıb, habelə 6 nəfər axtarışda olan şəxs saxlanılıb.**

Bu barədə Baş Prokurorluğun geniş kollegiya iclasında deyilib.

Həmçinin bildirilib ki, 2022-ci ilin birinci yarımili ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində fəaliyyət göstərən ”161 Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş 2339 müraciətdən 63-ü üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb.

Bu bir xalq qəzetidi
www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 33 (5970) 23 iyul 2022-ci il | Qiyməti 30 qəpik

# Prezident media nümayəndələrinə müraciət etdi



Bax:səh-2

## "QARABAĞ" ATLARI "SÜRİX"i İSVEÇRƏDƏ DƏ TAPDALAYACAQ





**Gözəl bir oyun izlədik. Söhbət hesabdan getmir, əsas odur Avropa gördü ki, biz də futbol oynaya bilirik.**

Tamaşaçılar da möhtəşəm idi, 90 dəqiqə ”Qarabağ” deyə hayqırdılar. Başqa bir gözəlliyi də odur ki, ”Qarabağ” stadiondan, daha doğrusu, futboldan küsmüş insanları yenidən futbola toplaya bildi. Arzu edirəm ki, ”Neftçi”, ”Zirə”, ”Qəbələ” və digər komandalarımız da azarkeşləri gözəl oyunları ilə stadionlara yığa bilsinlər.

Qurban Qurbanovu və bütün futbolçuları ürəkdən təbrik edirəm. İnanıram ki, belə bir möhtəşəm oyunu da Sürixdə nümayiş etdirəcəklər və ”Lex”i necə tapdalayıb keçmişdilərsə, ”Sürix”i də elə tapdalayıb keçəcəklər.

## Bakıdan Naxçıvana yeni avtobus reysi açılır




**Dünən Bakı-Naxçıvan istiqaməti üzrə yeni avtobus reysi açılıb. Bu barədə Bakı Beynəlxalq Avtovağzal Kompleksi məlumat yayıb.**

Məlumata görə, avtobus hər gün axşam saat 21:00-da Bakı Beynəlxalq Avtovağzal Kompleksindən yola düşəcək və səhər saat 9:00-da Naxçıvan şəhərinə çatacaq. 5 yaşına qədər uşaqlar üçün gediş haqqı (oturacaq verilməmək şərti ilə) pulsuzdur. 5 yaşından 10 yaşına qədər uşaqlar üçün isə biletin qiymətinin 50%-i ödənilir.

Sərnişinlərin istəyinə uyğun olaraq beş yaşınadək uşaqlar üçün də bileti yarı qiymətinə əldə etmək mümkündür. Biletləri avtovağzalın kassalarından və saytından onlayn qaydada əldə etmək mümkündür.

## "Ədalət" qəzetinin əməkdaşı MEDİA-nın müsabiqəsində qalib oldu



**Medianın İnkişafı Agentliyinin (MEDİA) elan etdiyi fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanıb.**

”Ədalət” qəzetinin əməkdaşı Emin Piriyev (Piri) ”MEDİA - Fərdi jurnalist müsabiqəsi”nin ”Ən yaxşı oçerk” nominasiyasının birincisi olub.

Qeyd edək ki, qalib gəlmiş jurnalistlərə pul mükafatı təqdim olunacaq.

## AZƏRBAYCANDA 8 BAL GÜCÜNDƏ ZƏLZƏLƏ OLUB

***Zəlzələnin episentri Dövlət Gömrük Komitəsidir. Zəlzələ nəticəsində 3 general və bir neçə polkovnik zərər çəkib. Dağıntıların altında başqa əməkdaşların qaldığı da güman edilir.***

***Dövlət Təhlükəsizliyi Xidməti zəlzələnin nəticələrini araşdırır və həm də bu nəticəni aradan qaldırmaq üçün əməli işlər görür.***

## FHN gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib



**Fövqəladə Hallar Nazirliyi (FHN) gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.**

FHN-dən Adalet.az-a daxil olan müraciətdə deyilir:

”Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, yaxın günlər ərzində ölkə ərazisində arabir güclənən küləkli hava şəraitinin davam edəcəyi, şimal və qərb rayonlarından başlayaraq havanın yağıntılı keçəcəyi, yağışın ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, şimşək çaxacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi proqnozlaşdırılır. Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır. Belə ki, intensiv yağıntıların səbəb ola biləcəyi daşqın və seldən qorunmaq üçün daşqın və sel təhlükəli ərazilərdən uzaq durmaq, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmaq tövsiyə olunur.

Bundan əlavə, güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Eləcə də güclü küləyin baş verən yanğınların söndürülməsi ilə bağlı yaratdığı çətinlikləri nəzərə alaraq, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir.

Həmçinin, yay fəslində insanların istirahət üçün çimərliklərə üz tutduğunu nəzərə alaraq xatırladırıq ki, güclü küləkli havada dənizə girmək təhlükəlidir. Bununla yanaşı, ildırımın səbəb ola biləcəyi təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, daldalanmaq üçün hündür ağacların altında gizlənməmək və bu məqsədlə çökək yer seçmək, avtomobildə olduqda hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək tövsiyə edilir”.

## Çağırışçıların hərbi hissələr üzrə bölgüsü keçirilib



**Müdafiə nazirinin müvafiq əmrinə əsasən yaradılan Nazirliyin baş idarə və idarə rəisləri, həmçinin Azərbaycan Ordusunun Baş Qərargahının məsul vəzifəli zabitlərindən ibarət komissiyanın növbəti toplantısı keçirilib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, toplantıda Azərbaycan Ordusunun hərbi hissələrinin komplektləşdirilməsi məqsədilə hərbi xidmətə yeni gələn çağırışçıların bölgüsü həyata keçirilib.

Ali Baş Komandanın müvafiq sərəncamına əsasən ”2022-ci ilin iyul ayında hərbi hissələrə gənc heyətin göndərilməsi planına” uyğun olaraq çağırışçıların bölgü prosesi elektron qaydada xüsusi kompüter proqramı vasitəsilə tam şəffaf şəkildə icra olunur. Çağırışçıların hərbi hissələr üzrə bölgü prosesində onların ixtisasları, əks-ərazi prinsipi nəzərə alınır, yüksək fiziki hazırlığa malik olanların Xüsusi Təyinatlı Qüvvələrə və ya Komando hərbi hissələrinə göndərilməsinə üstünlük verilir.

Eyni zamanda ailənin tək övladı olan gənclərin xidmətini davam etdirmək üçün ehtiyat bölmələrinə yerləşdirilməsi barədə müvafiq tapşırıq verilib. Bölgü prosesinə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndələri də cəlb olunub.

## Bu ilin 7 ayında 23 tələbə vəfat edib: Xəstəlik, qəza, intihar...

Bax:səh-4

## İki yeni universitet yaradılacaq



**Azərbaycanda iki yeni universitet yaradılacaq**

Bu barədə Prezident İlham Əliyevin təsdiqlədiyi ”Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda əksini tapıb.

Strategiyaya əsasən, ölkədə tədqiqat potensialı yüksək olan 2 universitetin bazasında 2 tədqiqat universitetinin yaradılması nəzərdə tutulur. Strategiyda tədqiqat universitetlərinin yaradılmasına dair təkliflərin hazırlanması tapşırılıb.

## Bu ilin altı ayında 35 mindən çox şəxsə əlillik təyin edilib



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar-iyun ayları ərzində 35 300 şəxsə əlillik təyin edib.**

Nazirlikdən ”Report”a verilən məlumata görə, onlardan 11 mini ilkin, qalanları isə təkrar əlillik təyinatı aparılanlardır. Həmçinin müvafiq dövr ərzində 19 min 300 şəxsə reabilitasiya xidməti göstərilib, 6 min 702 şəxsə 29 min 300 reabilitasiya vasitəsi verilib.

## 1943-CÜ İL TEHRAN KONFRANSINDAN





**sonra II Dünya Müharibəsində böyük dönüş yarandı.**

**2022-ci il Tehran konfransından sonra dünyada nələr baş verəcək tezliklə bunun şahidi olacağıq.**

## GÜNÜN LƏTİFƏSİ



Hidayət Elvüsal Vəli Xramçaylıya:

**- Vəli, birdən yüz min manat tapsan neyniyərsən?**

Vəli:

**- neyniyəjəm qağa, tez aparıb borclarımı verərəm.**



Hidayət müəllim:

**- Bəs qalanın nağayrassan?**

Vəli:

**- Qalanında Allah kərimdi, yavaş-yavaş verərəm dana.**

# Prezident media nümayəndələrinə müraciət etdi



**Prezident İlham Əliyev Azərbaycanın media nümayəndələrinə müraciət edib.**

Müraciətdə deyilir:

"Hörmətli media nümayəndələri!

Əziz jurnalistlər!

Sizi Azərbaycan milli mətbuatının yaranmasının ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik dövrümüzdə ilk dəfə Azərbaycan jurnalistləri Ermənistanın 30 ilə yaxın davam edən işğalından sonra öz peşə bayramlarını ölkəmizin mədəniyyət paytaxtı, milli mətbuatımızın inkişafında xüsusi yeri olan, Qarabağın tacı Şuşa şəhərində qeyd edirlər. Milli Mətbuat Günü ilə bağlı Şuşada keçirilən ilk tədbir zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə olacaqdır.

Azərbaycan mətbuatı 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzetinin bəyan etdiyi prinsipləri rəhbər tutaraq böyük inkişaf yolu keçmişdir. XIX əsrin ikinci yarısından sonrakı dövrdə işıq üzü görən çoxsaylı nəşrlər tariximizin güzgüsü olmuş, insanların maariflənməsi, milli şüurun formalaşması, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr vermişdir.

XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş demokratik islahatlar bütün sahələrdə olduğu kimi, milli informasiya resurslarının inkişafında da əsaslı dönüş yaratmışdır. Söz və məlumat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində Azərbaycan mediası sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur.

Kommunikasiya vasitələrinin transformasiya mərhələsini yaşadığı, rəqəmsal platformaların və sosial media alətlərinin öz əhatə dairəsini genişləndirdiyi hazırkı dövrdə milli informasiya resurslarımızın potensialının və qlobal informasiya şəbəkəsində mövqelərinin gücləndirilməsi başlıca vəzifələrdən biridir. Son illər həyata keçirilmiş islahatlar media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması, dövlətin kommunikasiya siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, jurnalistika sahəsində çevikliyin, peşəkarlığın yüksəldilməsi, cəmiyyətimizi narahat edən mənfi təzahürlərin aradan qaldırılması, medianın beynəlxalq əlaqələrinin genişləndirilməsi və dost ölkələrlə birgə platformaların yaradılması məqsədi daşımış, bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir.

Azərbaycan Respublikası müstəqil siyasət yürüdən, müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan dövlətdir. Məhz buna görə qlobal informasiya məkanında ölkəmizin yüksək beynəlxalq nüfuzuna xələl gətirmək, daxili həyatına təsir göstərmək cəhdləri səngimir. Vətən müharibəsi zamanı Azərbaycan mediası informasiya cəbhəsində mübarizə apararaq, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynamışdır. Media resurslarımız Azərbaycan həqiqətlərini, o cümlədən işğal dövründə ermənilərin tarixi torpaqlarımızda törətdikləri misli görünməmiş vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini yorulmadan davam etdirirlər.

Vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar. Əminəm ki, Azərbaycan jurnalistikası əldə olunmuş uğurların inkişaf etdirilməsi, cəmiyyətimizin davamlı tərəqqisi və xalqımızın xoşbəxt gələcəyi üçün bundan sonra da öz səylərini əsirgəməyəcək. Bir daha peşə bayramınız münasibətilə sizi təbrik edir, hər birinizə cansağlığı və işlərinizdə uğurlar arzulayıram".

# Prezident sərəncam imzaladı

**Prezident İlham Əliyev "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Vahid Hacıyev - Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri**

Sahib Məmmədov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Sarvan Cəfərov - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Vüqar Kərimov - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Namiq Hümmətov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

**Prezident İlham Əliyev "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

1. "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Emin Hüseynov - Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri**

Səməd Bəşirli - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Sarvan Cəfərov - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Namiq Hümmətov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini

Azadə Hüseynova - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

# Ordunun mənzərəsi: Müəmmalı şəraitdə öl(dürül)ən əsgərlər, yekunlaşmayan ölüm işləri, cəzasızlıq...

**I Qarabağ müharibəsindən sonra Azərbaycanda yeni bir proses başladı. Orduda xidmət edən əsgərlərin ölümü respublikada böyük rezonans doğurdu. O vaxt düşünürdük ki, erməni səngəri ilə qarşı-qarşıya dayanmış Azərbaycan Ordusunun əsgərinin həlak olması qanunauyğundur. Axı Azərbaycan əsgəri işğalçı düşmənlə üz-üzədir. Erməni əsgəri atəş açırsa, Azərbaycan əsgəri niyə atəş açmasın ki...O tərəfdən əsgər ölürsə, yəqin ki bizim əsgərin də şəhidliyi hardasa qəbuledilən idi. Sonra isə əsgər ölümləri öz miqyasını və əhatəsini genişləndirdi. Artıq cəbhə xəttinə yaxın olmayan hərbi hissələrdə də əsgər ölümləri özünü biruzə verirdi. Təxmini deyə bilərik ki, ( bu mənim subyektiv fikrimdir) 1994-cü ildən üzü bəri qeyri - döyüş şəraitində həlak olan əsgərlərin sayı II Qarabağ müharibəsindəki şəhidlərimizin sayı ilə bəlkə də eynidir.**




## Əsgər ölümləri niyə artdı?

Əsgər ölümləri son 15 ildə elə bir həddə çatıbdır ki, o qədər artıb ki, artıq xalqı belə xəbərlər nəinki təccübləndirmir, hərra böyük əksəriyyət bunu adi hal kimi qəbul edir. Son iki ildə isə həm II Qarabağ müharibəsi iştirakçılarının intiharı, həm də hərbi hissədə həqiqi hərbi xidmət keçən əsgərlərin ölümü , xüsusən intiharı cəmiyyətdə formalaşmış bir sıra fikirləri təsdiq edir: Birinci səbəb cəmiyyətdəki sosial bərabərsizlik və sosial ədalətsizlik göstərilsə də əsgərlərin ölümündəki əsas səbəb ordu daxilində, hərbi hissələrdə nizam-intizam olmamasından xəbər verir. Çünki hər bir azərbaycanlının evindən Azərbaycan Ordusunda xidmət göstərmiş şəxs var və orduda "Dedovşina" nın ( SSRİ Silahlı Qüvvələrində və bəzi post-Sovet ölkərində, o cümlədən Azərbaycanda hərbi xidmətə başlayan və gənc çağırışçılar qarşı daimi zorbalığın tətbiqi və orduda nizamnamədənkənar davranışları özündə ehtiva edilməsi) olması heç kəsə gizli deyil. Hətta 2013-cü il yanvarın 12-də Bakının Fəvvarələr meydanında "Əsgər ölümlərinə SON!" aksiyası keçirildi Aksiya iştirakçıları Daşkəsəndə "N" saylı hərbi hissədə xidmət edən əsgər Ceyhun Qubatovun ölümünə etiraz ediblər.

## Müstəqil Azərbaycan Ordusunda müəmmalı əsgər ölümləri hər zaman olub

"Doktrina" Jurnalistlərin Hərbi Araşdırmalar Mərkəzinin araşdırmalarına görə, 2013-cü ildə Azərbaycanın təhlükəsizlik və müdafiə sektorunda itkilərin ümumi sayı 78 nəfərdir. Onlardan 16 nəfərinin intihar etməsi ehtimalı var. "Doktrina" JHAM direktoru Cəsur Sümərinli bəyan edir ki, aşağıda adları çəkilən hərbi qulluqçuların ölüm səbəbləri ilə bağlı Müdafiə Nazirliyi tərəfindən ictimaiyyətə dürüst məlumat verilməlidir.

**15 fevral.** Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edən Hüseynov Nicat Habil oğlu bu il fevralın 11-də xidməti yerini özbaşına tərk edib. Fevralın 15-də isə onun meyiti Sumqayıt şəhəri ərazisindəki göldə tapılıb. İlkin ehtimala görə, əsgər intihar edib. Belə ki, onun məktubu tapılıb. Əsgər ölümündən əvvəl yazdığı məktubda sevdiyi qızdan bəhs edib. Qeyd edək ki, N. Hüseynov ötən ilin oktyabrında Samux rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

**28 fevral.** Qazax rayon N saylı hərbi hissədə 1990-cı il təvəlüdlü əsgər Allahverdiyev Seymur Mürvət oğlu - Müdafiə Nazirliyi bəyan edib ki, əsgər postda olarkən tabeliyində olan avtomat silahdan atəş açaraq intihar edib.

Valideynləri bildirir ki, xidmətinin başa çatmasına bir ay qalmış hərbi hissədə döyülərək qətlə yetirilib.

**3 mart.** Tərtərdəki N saylı hərbi hissənin əsgəri, 1993-cü təvəllüdlü Mirzəzadə Orxan Ələmxan oğlu təhlükəsizlik qaydalarını pozaraq tabeliyindəki avtomat silahdan atəş acıb, aldığı güllə yarasından dünyasını dəyişib.

**24 mart.** Xüsusi Dövlət Mühafizə İdarəsinin əsgəri 19 yaşlı Məmmədov Məmmədağa Novruz oğlu özünü asaraq intihar edib. O, Səbayıl Rayonundan hərbi xidmətə çağırılıb.

**6 aprel.** Tərtər rayonunda yerləşən N saylı hərbi hissənin əsgəri İmanov Elman Yaqub oğlu postda olarkən tabeliyində olan avtomat silahdan açılan atəş nəticəsində həlak olub.

**20 aprel.** 1994-cü il təvəllüdlü, 2013-cü ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhəri Kəpəz rayon şöbəsindən hərbi xidmətə çağırılmış Quliyev Emin İlqar oğlu ona təhkim olunmuş avtomat silahdan açılan atəş nəticəsində vəfat edib.

**23 aprel.** Naximov küçəsində yerləşən mənzillərin birində kirayənişin yaşayan Hərbi Dəniz Qüvvələrinin müddətdən artıq xidmət keçən hərbi qulluqçusu, 1991-ci il təvəllüdlü İbrahim Rəcəb oğlu Qafarov özünü asaraq intihar edib.

**3 may.** Zabit, polkovnik-leytenant Mehman Musayevin itkin düşür. Mərhumun meyiti "Şəfa" stadionunun yaxınlığında qollarının damarları kəsilmiş vəziyyətdə aşkar edilib. İlkin ehtimala görə, o intihar edib. Lakin M.Musayevin qətlə yetirilməsi də istisna edilmir.

**16 may.** Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində əsgər, 1994-cü il təvəllüdlü Əlizadə Ramil Ətraf oğlu əlindəki avtomat silahdan açılan atəş nəticəsində dünyasını dəyişib. Qeyd edək ki, R.Əlizadə 2012-ci ilin aprelində Lənkəran rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

**30 may.** Şəmkir Hərbi Birləşməsinin N saylı hərbi hissəsində Azərbaycan Ordusunun müddətdən artıq xidmət edən hərbi qulluqçusu Samir Vaqif oğlu Mehdiyev özünü asaraq intihar edib.

**29 iyul.** Əsgər, 19 yaşlı Nəcəf Fazil oğlu Əliyev tabeliyindəki avtomat silahdan açılan atəş nəticəsində dünyasını dəyişib. Qeyd edək ki, N.Əliyev Gəncənin Kəpəz rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

**1 avqust.** Şəmkir Hərbi Birləşməsinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində 19 yaşlı əsgər Elşad Şahlar oğlu İsmayılov tabeliyində olan avtomat silahdan açılan atəş nəticəsində vəfat etdiyi bildirilir. Əsgər Elşad İsmayılov Goranboy rayonundan hərbi xidmətə çağırılıb.

**29 avqust.** DSX-nin Göytəpə şəhərində yerləşən hərbi hissəsinin əsgəri Məmmədov Nofəl naməlum səbəbdən özünü asaraq intihar edib. Nofəl Məmmədov Nofər oğlu 1994-cü il, martın 23-də doğulub, 2012-ci ilin aprelində müddətli Goranboydan həqiqi hərbi xidmətə çağırılıb.

**13 sentyabr.** Şəmkir Hərbi Birləşməsinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində hərbi hissənin əsgəri, 1994-cü il təvəllüdlü Əsgərli Anar Dağıstan oğlu tabeliyində olan silahdan açılan atəş nəticəsində dünyasını dəyişib.

**4 oktyabr.** Gəncə şəhərində Daxili Qoşunların müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu əsgəri, Ağdam rayonunda qeydiyyatda olan 1989-cu il təvəllüdlü Cəfərov Vüqar Süleyman oğlunun meyiti tapılıb. Meyit şəhərin Nərimanov prospektində yolun kənarındakı ağacda asılmış vəziyyətdə aşkarlanıb.

## Əsgər ölümlərinin artması ilə bağlı brifinq keçirildi? Səbəbkarlar ictimaiyyətə açıqlandı?

Hansı müəmmalı şəraitdə olan əsgərin ölüm səbəbi araşdırılaraq ictimaiyyət, media nümayəndələrinə açıqlandı? Nə vaxtsa bu tip bir brifinq yaxud konfrans keçirildimi? İctimaiyyət nümayəndəli ilə müzakirələr aparıldımı?Əsgər ölümlərinin səbəbkarları- cinayətkarlarının adı açıqlandımı? Həmin səbəbkarların adı "el qınağı"na verildimi? Şəxsən bir jurnalist olaraq, bunu eşitmədim.

Orduda elə bu "Dedovşina" nın olması Azərbaycan ordusunda özbaşınalığın, korrupsiyanın, ədalətsizliyin bərqərar olmasına sübutdur. O səbəbdəndə cəzasız qalan "öldürən", qanı batırılan "ölənin" aqibəti orduda yeni-yeni ölümləri və intiharları çoxaldır. Bir misal deyək : 2021-ci il iyul ayının 19 -da əsgər Həsən Hikmət oğlu Məmmədovun özünü hərəkətdə olan hərbi maşından ataraq intihar etməsi Müdafiə Nazirliyi tərəfindən təsdiqləndi və hadisə ilə bağlı cinayət işinin açıldığı bəyan edildi.

Bir neçə gün əvvəl isə mərhumun ata-anası Kanal-13-ün efirində üsyan etdilər ki, oğlumuzun ölümündən bir il ötüb, amma cinayət işi hələ də açılmayıb. Ən pisi də odur ki, valideynlər oğlunun intihar etdiyini yox, qəsdən öldürüldüyünü deyir:"Oğlum özünü öldürəcək birisi deyildi. Hər dəfə deyirdi ki, ana burdan salamat çıxsam qurban kəsəcəm. İstintağın işi məqsədli şəkildə uzadılır. Tələb edirik onun qəbri açılsın, ölümü yenidən araşdırılsın" .

Bundan başqa 2021 -ci ilin 22 mart tarixində xidmət kec?diyi Kəlbəcər rayonunda güllə yarasından vəfat edən İlkin Zöhrabovun hansı şəraitdə, necə vəfat etməsi hələ də bilinmir. 1 il 6 ayın əsgəri olan İlkin Zöhrabov Vətən Müharibəsi iştirakçısı olub. O, "Kəlbəcərin azad olunmasına go?rə" medalı ilə təltif edilmis?di. Hərbi xidmətdən tərxis edilməsinə bir həftə qalmış ürəyinə dəyən güllə yarasından müəmmalı şəkildə vəfat edib. Anası oğlunun öldürüldüyünü iddia edir.

Müdafiə Nazirliyi 2021-ci il sentyabrında əsgər Məmmədağa Məlikzadənin odlu silahdan atəş açmaqla özünü öldürməsi faktını təsdiqlədi. Elə ilk gündən əsgərin ailəsi bunun intihar olmadığını iddia etdi. Cinayət işinin gedişi zamanı aydın oldu ki, hərbi hissəsinin baş çavuşu Fərəməz Abasov şübhəli şəxs kimi həbs olunub. Məhkəmənin son qərarı isə ictimaiyyətə gizli qaldı.

## Həyatına qəsd ed(il)ən əsgərlər: Niyə intihar etdi, yaxud etdirildi?

Ötən ay -5 iyun hərbi qulluqçu əsgər Abdullazadə Səid Məzahir oğlu avtomat silahdan atəş açmaqla özünə qəsd edib. Bu həqiqətəndə intihardırmı? Bu ay- 2 iyuldan bu günə qədər əsgərlərin: Hüseyn Ruslan oğlu Bayramovun (avtomat silahdan açılmış atəş), Rəvan Zeynalabdin oğlu Tağıyevin ( avtomat silahdan açılmış atəş), Namizəd İsrayıl oğlu Bayramovun (suda çimərkən boğularaq ölüb) Nurlan Elşən oğlu Ağamalıyevin və evin tək oğlu Fazil Məmmədli (baş vermiş texniki qəza nəticəsində həlak olub) ölüm səbəbləri təkzibedilməz faktlarla ailəsinə çatdırılmır?

Müdafiə Nazirliyinin bu kimi hadisələrdə susqunluğu başadüşülən deyil! Niyə ictimaiyyəti, xalqı məlumatlandırmırsınız?Niyə ordumuza qarşı etibarsızlığın, şübhənin cücərməsinə səbəb olursunuz?

Əks halda xalq elə başa düşəcək ki, əsgərlərin ölümü qəsdən, planlı şəkildə törədilir. Azərbaycan ordusunda xidmət edən, xidmət zamanı həlak olan əsgərlərin analarına-atalarına dürüstcəsinə cavab verilməlidir. Əks halda evdə oğul böyüdən analar ordunu əsgərsiz qoymaq məcburiyyətində qalacaq.

Hələ də anlamaq çətindir ki, əsgərlərimizin ölümü Müdafiə Nazirliyi umrunda deyil, ya xalqın bu məzmunda suallarına cavab verməyi özlərinə yaraşdırmırlar?

## 5 aydı Laçında iki itkin əsgəri tapa bilməyən hərbi polis, prokurorluq, nazirlik...

Bir nüansın yanından da səssiz ötə bilmədim: Ağdam rayonu Baş Qərvənd kəndi ərazi nümayəndəliyinin Orta Qərvənd kəndində doğulub boya-başa çatan və elə oradan da 2021-cil də əsgərliyə gedən Fərid Məmmədov həmkəndlimdir.

Müdafiə Nazirliyi mart ayının 5-də mediaya:" Laçın rayonu ərazisində yerləşən bir döyüş mövqeyindən digərinə hərəkət edən Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları - əsgər Məmmədov Fərid Əjdər oğlu və əsgər Abdullayev Firdovsi Mais oğlu hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək azıblar"xəbəri açıqladı və elə o gündən ovuc boyda Laçın "ələk-vələk edilib" "axtarırılır", amma itkinlərin taleyindən bu günə qədər bir məlumat ortaya qoyulmayıb. Nəhayət,valideynlər Bakı- Qubadlı yollarında yorğun düşəndən sonra - may ayında Respublika Hərbi Prokurorluğu ailəyə bir bildiriş göndərdi. Bildirişdə deyilir ki, cinayət işində bəzi faktlar aşkarlanıb:" MAXE Təbriz Babayevin Fərid Məmmədova, Firdovsi Abdullayevə və Eldəniz Mustafazadəyə zor tətbiq etməsi və işgəncə verməsi aşkar edilidi.Əsgərlər də bu səbəbdən hərbi hissəni tərk etmək məcburiyyətində qalıb. Qubadlı hərbi prokurorluğunda bununla bağlı cinayət işi açılıb. İstintaq davam edir ".

Maraqlıdır, əsgərin itkin düşdüyü gündən açılan cinayət işi niyə yekunlaşmadı? Niyə ailə məhkəmədə övladının qatilini görməyə gətirilmədi? Niyə valideynlər, T. Babayevin 3 əsgərin ölümünə səbəb olmasını etiraf edərək ata-anaya səbəbləri söyləmədi? Axı Niyə?

Cəmi 3 ay hərbi təlim keçmiş, kəndindən başqa heç yeri görməyən, hərbi kordinantlardan xəbəri olmayan 19 yaşlı uşağı Kürdhacı kimi strateji bir əraziyə gətirilməsi nə qədər qanuna uyğundur?Və hələ də təccüblüdür ki, 5 aydır Azərbaycan Ordusunun itkin düşmüş iki hərbçisini o ərazidə axtarmaq, tapmaq bu qədər müşküldür? Bəli, xəbərlərdə deyilir ki, axtarışlar gedir. Amma nəticəsi hanı?

İtkin əsgərin anası Elmira xanım deyir ki, həyat yoldaşımı da axtarışları izləmək üçün Laçına aparmışdılar. Bu axtarış forması Əjdər kişinin heç xoşuna gəlməyib:" Qışda anladıq ki, hava şəraiti əl vermir axtarışlara. 3 aydı Laçında qar yox, qiyamət yox!Bunlar nətər axtarış aparır ki, 5 aydı, iki əsgər haqqında xırda bir məlumat əldə edə bilməyiblər. Bəyəm əsgərlər iynə sancaqdı?".

Bəs sonra? Dövlət və hökümət orqanları iki insanın taleyinə olan münasibəti bir kağızla "yola verdilər"?Bəs valideynlərin ah - naləsi, minbir əziyyətlə, "uşaq pulu" olmadan oğul böyütməsi, onu əsgər kimi vətənə xidmətə göndərməsi, onu dövlətə arxayın olması? Müdafiə Nazirliyi görəsən bilirmi ki, nə qədər valideyn əsgər balasının həyatına qəsd edənlərin həbs edilməsini, layiq olduğu cəzaya çatdırılmasını gözləyirlər?

Ordudakı özbaşnalığın, korrupsiya əməllərinin, ədalətsizliyin, başdansovdu qərarların müqabilində nə qədər insan orduya, vətənə, dövlətçiliyə olan hissləri ölür?Bilirsinizmi?

İtkin düşən əsgər Fəri Məmmədovun anası fəryad edir:"5 aydı bala yolu gözləyirəm , balamı verin! Həm də sizə necə sağ-salamat vermişəm, elə də sağ - salamat verin!Verə bilmirsinizsə, deməк balamın qatili elə sizsiniz!" - deyir.

İki çıxış yolu var! Birini demirəm, zatən alınmayacaq! İkinci çıxış yolu isə Azərbaycan Ordusunda xidmət keçərkən həlak olan əsgərlərin istintaqı nəzarətə götürülməlidir!Bütün ölüm halları yenidən araşdırılmalı, dəqiq baxılmalı və inandırıcı dəllilərlə hadisənin hansı zəmində baş verdiyi təsbit edilməlidir. Unutmayın, ordu dövlətin bel sümüyüdür, sütunudur!

***P.S. Əslində adi bir ölüm hadisəsi -Dondar Quşçu kəndində 2019-cu ilin noyabrında yandırılıb öldürülən 10 yaşlı Nərmin Quliyeva cinayətinin törədənlər indiyənə qədər tapılmayıbsa, Azərbaycan əsgərinin qapalı zonada necə öldüyünü aydınlatmaq çox çətin və mürəkkəb bir proses olduğunu da unutmaq olmaz...***

***Ümid qalıb Allaha!***

**Əntiqə Rəşid**

Gürkan Hacır

# Qırıcı pilotlar



*"Top Gun-Maverick...!"*

*Yeniyetməlik illərimizin əfsanəsi olan Top Gun-un davamı.*

*Qardaşımız Tom Kruz bir az qocalıb, amma yenə də formasını qoruyub saxlayır.*

*O, bu dəfə dostlarının övladlarına döyüş pilotu təlimi keçir.*

*Çəkiliş... Uçuş səhnələrində istifadə etdikləri texnika... Səlislik... Çox uğurlu…*

*Filmdə həqiqətən diqqətimi çəkən əsas şey…*

*Hollivud istehsallarından fərqli olaraq, filmdə düşmənin dəqiq təsviri yox idi.*

*Bəli, düşmən var idi.*

*Nüvə bombası istehsal edən ölkə...*

*Bəs kim idi?*

*Rusiya? İrandır? Koreya? Bəlli deyil.*

*Böyük ekranda düşmənçilik edən bir insan belə görünmürdü.*

*Bununla belə, biz bilirik…*

*ABŞ xarici siyasətinin əlamətlərini belə bahalı büdcəli filmlərlə göstərməyi xoşlayırdı.*

*İranda əməliyyat keçirməyi düşünsəydi, İran filmləri... Hədəf Rusiya olsaydı, düşmən rus olardı.*

*Çünki Hollivud…*

*Bu günə qədər kino sənayesi deyil, ABŞ Dövlət Departamentinin bir qolu kimi çalışıb.*

*Tək bir filmdən qərar vermək yersiz olardı, amma...*

*Təsviri aydın olmayan düşmən ssenarisi onların yeni formalaşmış xarici siyasətinin xülasəsi ola bilər.*

*Yəni Hollivud bəlkə də erkən oyanıb ki, birqütblü dünyadan çoxqütblü dünyaya keçid keçib.*

*Ona görə də... Filmdə bəlkə də fərqinə varmadan kiminsə quyruğunu tapdalamaq istəməyiblər...*

*Hər halda…*

*Həqiqətən demək istədiyim başqa şeydir...*

*Top Gun-da izlədiyimiz döyüş pilotu keçmişdə qaldı?*

*1900-cü illərin əvvəllərində səma ilə ilk tanış olan döyüş pilotu olmaq həm də "ölüm" demək idi.*

*İbtidai təyyarələrlə hava zərbələri endirdikdən sonra öz bazasına qayıda bilən döyüş pilotları şanslı sayılırdı.*

*Yeri gəlmişkən, dünyada ilk hava hücumu bizə italyanlar tərəfindən edilib.*

*1911-ci ildə Atatürk və dostlarının vuruşduğu Tripolidə ilk dəfə İtalyan təyyarələri tərəfindən bombalı hücum təşkil edildi.*

*Bomba deyirəmsə, qırıcı pilotların alçaqdan uçarkən qumbaranı yerə atmasını nəzərdə tuturam.*

*İtalyanların bizə qarşı bu hücumu ilk hava hücumu kimi qeyd olundu.*

*Onu da əlavə edim ki, bir çox İtaliya təyyarələri də vurulub.*

*Qırıcı pilotların çılğın illəri İkinci Dünya Müharibəsində yaşandı.*

*Almanların məşhur Luftwaffe (Hava Qüvvələri) bir qarışıqlıq yaratmışdı.*

*"Xalça bombası" adlandırdıqları sistemlə Londonu bir gecədə yerləyeksan etdilər.*

*İngilislərin üzərinə bomba xalçası döşədilər.*

*Hitlerin müharibənin əvvəlində qurduğu böyük hökmranlığın ən mühüm payı hava qüvvələrinə aid idi.*

*Bacarıqlı qırıcı pilotluq son on ilə qədər daha çox dəbdə idi.*

*Amma hərbi aviasiya son illərdə texnologiyanın inkişafı ilə bağlı iki böyük maneə ilə üzləşib.*

*Birincisi, hava hücumundan müdafiə sistemləri çox təkmilləşib. İndi təyyarə havaya qalxdığı andan hədəfə çevrilir.*

*Digər tərəfdən, pilotsuz uçuş aparatları sürətlə istifadəyə verildi.*

*Drone texnologiyası xüsusilə terror təşkilatlarına qarşı mübarizə aparan ölkələr üçün əvəzedilməz müdafiə vasitəsinə çevrilib.*

*Məsələn, biz... Pilotsuz uçuş aparatları ilə sərhədləri aşaraq PKK-ya qarşı onlarla əməliyyat keçirə bilərik. Əsgərimizin burnundan qan axmadan.*

*Tək bizmi... Yox... Azərbaycan-Ermənistan müharibəsi pilotsuz təyyarə müharibəsi idi.*

*Eynilə Ukraynanın Rusiyaya qarşı müqavimətinin ən mühüm səbəbi bizdən aldığı pilotsuz təyyarələr idi.*

*Həm kəşfiyyat toplamada... həm də hədəfi vurmada... Sıfır itki ilə işləyən bu yeni döyüş qurğusu artıq bütün ölkələrin ən çox axtarılan müdafiə vasitəsinə çevrilib.*

*Minlərlə pilotsuz təyyarə sifariş edilir.*

*Dünyada dron istehsal edən bir çox ölkə var. Biz həm də mühüm istehsalçılardan biri hesab olunuruq.*

*Ona görə də indiki aviatorları sonuncu qırıcı pilot adlandırmaq yerində mübaliğə olardı.*

*Milyonlarla insan öldü...*

*Böyük və qanlı müharibələrin yerini proksi müharibələrlə əvəz etdiyi bu gün...*

*Pilotların bombardmançıları idarə etməsinə ehtiyac qalmayacaq.*

*Ötən əsrin əvvəllərində başqa adı ölüm olan qırıcı pilot...*

*Bir əsrlik macəradan sonra tarixdə öz yerini tuta bilər.*

*Və bizdən sonrakı nəsillər...*

*"Heyrət! Vay…*

*O qırıcı pilotlar...*

*Onlar necə də dəli, necə də qəhrəman adamlar imiş" deyə, onların keçmiş hekayələrini oxuyacaq.*

*Dilimizə uyğunlaşdıran*
*Eminquey*

## Katerinanın ildırım sürətli yüksəlişi - Putin yerinə qızını hazırlayır?




**Xəbər verdiyimiz kimi Putin ABŞ və Qərb ölkələrindən qorunmaq üçün yolar axtarır, ətrafına inandığı insanları yığmaq istəyir.**

Adalet.az Rusiya mətbuatına istinadən bildirir ki, bir neçə gün əvvəl ölkə rəhbəri Vladimir Putinin qızına yeni vəzifə verilib. Vladimir Putinin kiçik qızı, 35 yaşlı Katerina Tixonova Rusiya sənayeçilər və sahibkarlar koordinasiya şurasının həmsədri elan edilib. Beləcə, Milli İntellektual İnkişaf Fondunun rəhbərinin vəzifələrinin sayı artıb. Ehtimallara görə, yeni həmsədr qadağan olunmuş Qərb mallarının üçüncü ölkələr vasitəsilə Rusiyaya axınına nəzarət edəcək. Çünki Putin Ukraynaya müdaxilədən sonra Qərbin tətbiq etdiyi sanksiyalardan yan keçərək paralel idxalı leqallaşdırıb. Siyasi ekspertlərin fikrincə Katerinanın "Vahid Rusiya" partiyasının rəhbəri vəzifəsinə təyin edilməsi daha böyük bir addıma doğru ilk addım ola bilər. Beləki, Britaniya mətbuatı xəbər verir ki, Putin ona heç vaxt xəyanət etməyəcək birinə söykənmək istəyir. Bu isə əlbəttə ki, ölkə başçısının doğma balası ola bilər. Yeri gəlmişkən, Qərb ölkələri Putinin hər iki qızına sanksiya tətbiq edib. Londonda və Fransanın Biaritsa şəhərində evsiz fəallar və ya xaricdə "skvotter" kimi tanınan şəxslər rusiyalı milyarder Oleq Deripaskaya və Vladimir Putinin qızı Kateriana Tixonovaya məxsus evləri zəbt ediblər. Azadlıq Radiosunun Rus xidməti bildirir ki, Tixonovaya aid edilən mülkdə Ukrayna qaçqınlarının yerləşdirilməsi nəzərdə tutulur. Putinin sələfi Boris Yeltsinin qızına evli olan Deripaskanın Londondakı evi martın 14-ə keçən gecə zəbt olunub.

Qeyd edək ki, Katerina Tixonova 1986-cı ildə atası Drezdendə işləyəndə doğulub. "Der Spiegel"in iddiasına görə, Tixonova 2017-ci ildə hələ Rusiyanın ən zəngin adamlarından sayılan Kirill Şamalovla nikahda ikən baletmeyster İqor Zelenskidən qız övladı dünyaya gətirib. Bu hadisədən bir az sonra - 2018-ci ilin yanvarında Tixonova ilə Şamalov nikaha son qoyub. Hazırda Katerina İqor Zelenski ilə birlikdədir.

**Əntiqə Rəşid**



Nicat Novruzoğlu

# İCRA BAŞÇISI, YOXSA JEK NAÇALNİK?

*Baxıram son zamanlar hamı düşüb icra başçılarının üstünə - sağdan da vururlar, soldan da. Hətta deyirlər ki, bu struktur ləğv edilməlidir. Amma heç kim təklif tetmir ki, yerində nə yaradılmalıdır?*

*3-4 ildir ki, icra başçılarının bütün səlahiyyətləri əlindən alınıb. Rayondakı heç bir təşkilat icra hakimiyyətinə tabe deyil. Və belə demək mümkünsə, icra başçılarını eşitmirlər. Hər bir təşkilat region təşkilatına, region təşkilatı da müvafiq nazirlik və ya komitəyə tabedir.*

*İşıq keçəndə icra başçısından tələb edirlər, təhsildə problem yarananda icra başçısı, əkinlərə su çatışmayanda icra başçısı, artezianın nasosu yanıb icra başçısı, kombayn çatışmır icra başçısı, xəstəxanada həkimlərdən narazılıq icra başçısı, qazilər əlillik dərəcəsi ala bilmir, yenə icra başçısı, qazilər işsizdir icra başçısı, şəhid ailələrinin problemi var icra başçısı, kiminsə evi yanıb, ya uçub icra başçısı və sair və ilaxır.*

*Və bu yuxarıda saydıqlarımızın heç biri icra hakimiyyətinin səlahiyyətində deyil. Hər müdir öz sahəsinin ağasıdır.*

*Bir dəfə bir rayonda, adını yazmıram, icra başçısının birinci müavini təhsil şöbəsinin müdirinə zəng edib deyir ki, başçı səni çağırır.*

*Təhsil şöbəsinin müdiri nə desə yaxşıdır:*

*- Özünə gülür, o kimdir ki mən onun yanına gəlim. Mənim öz nazirim var.*

*Və rayonda bir hadisə olanda, bir əskiklik olanda yuxarıdan icra başçısına zəng edirlər ki, bu nə məsələdi, sənin rayonunda niyə bu hadisə olub, hara baxırsan?*

*İndi icra hakimiyyətinin səlahiyyətində iki təşkilat qalıb - biri kommunal təsərrüfat idarəsi, biri də yaşıllaşdırma idarəsi. Hərəsində də 200-250 ştat var. Yəqin tezliklə həmin təşkilatları da alarlar, o da Bakıya tabe olar. Yəqin yaşıllaşdırmanı Ekologiya Nazirliyinə verərlər, kommunal təsərrüfat idarəsini də bir qurum yaradıb ona verərlər.*

*Nə isə...*

# Dövlət Komitəsində kollegiya iclası keçirilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində növbəti kollegiya iclası keçirilib.**

Bu barədə Dövlət Komitəsindən məlumat verilib.



İclasda Prezident İlham Əliyevin bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə konkret tapşırıqlar verdiyi xatırladılıb. Dövlətimizin başçısı müvafiq qurumlara gələn ilin büdcəsinə infrastruktur, yaşayış binaları, kəndlərin qurulması üzrə layihələrin daxil edilməsini tapşırıb. Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə və açılan iş yerlərində yerli sakinlərin - keçmiş məcburi köçkünlərin məşğulluğunun təmin olunması mühüm bir vəzifə kimi qarşıya qoyulub.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə komitənin fəaliyyət istiqamətləri üzrə verdiyi tapşırıqların icrası təmin ediləcəkdir.

Prezident İlham Əliyevin tapşırığı əsasında, keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yeni salınan Ağalı kəndinə qayıdışının başlanmasını tarixi hadisə kimi dəyərləndirən Dövlət Komitəsinin sədri Rövşən Rzayev son iki gün ərzində 20 ailənin yola salındığını və bundan sonra da köçürülmənin yüksək səviyyədə təşkil edilməsinin vacibliyini bildirib.

Böyük Qayıdışın daha da sürətləndirilməsi üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi istiqamətində iş aparıldığı qeyd edilib.

Kollegiya iclasında, həmçinin komitənin elektron bazasının təkmilləşdirilməsi, elektron sənəd dövriyyəsi, məcburi köçkünlərə göstərilən kommunal xidmətlərin vəziyyəti, payız-qış mövsümünə hazırlıq, təchizat və istehsalat sahələrində işlərin təşkili və s. məsələlərə baxılıb, müvafiq tapşırıqlar verilib, fəaliyyət istiqamətləri müəyyənləşdirilib.

**Eyni zamanda, Zəngilan rayonunun Ağalı kəndinə yerli sakinlərin köçürülməsinin növbəti mərhələlərinin də ardıcıl şəkildə icra olunması üçün komitənin şöbə və departamentlərinə müvafiq tapşırıqlar verilib.**

## İstanbul sazişi 53 ölkəni xilas edəcək



**İstanbulda imzalanacaq taxıl müqaviləsi 53 ölkəni aclıqdan xilas edəcək. Bu barədə İtaliyanın Kənd Təsərrüfatı İstehsalçıları Birliyi (Koldiretti) bildirib.**

”Ukraynanın kənd təsərrüfatı istehsalının zəifləməsi və Qara dəniz limanlarının iflic olması planetin geniş ərazilərini ərzaqla təmin etmək üçün ən vacib sahəni əlindən alıb. Rusiya və Ukrayna taxılından ən çox asılı olan ölkələr arasında taxılın 70%-ni Qara dəniz limanlarından idxal edən Misir, təxminən 75%-i Livan və 50%-dən bir qədər az olan Yəmən var”, - ”Koldiretti”nin açıqlamasında vurğulanıb.

Qeyd edək ki, bu gün Türkiyədə Dolmabaxça sarayında Ukrayna və Rusiya nümayəndələrinin iştirakı ilə taxıl daşınması üzrə müqavilənin imzalanma mərasimi keçiriləcək.

**MEHRİBAN**

## *Bu məhsulların satışının qarşısı alındı*

*Qida Təhlükəsizliyi Agentliyi (AQTA) əməkdaşları tərəfindən Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı küçəsi, ev 51C ünvanında fəaliyyət göstərən, fiziki şəxs Abasov Habil Seyfulla oğluna məxsus "İstanbul" aptekdə keçirilmiş plandankənar yoxlama zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib.*

*AQTA-dan verilən məlumata görə, "Krilom Omega3 №50" bioloji aktiv qida məhsullarının qida təhlükəsizliyi sertifikatı olmadan satışa çıxarıldığı, həmçinin içlik vərəqində Azərbaycan dilində məlumatların əks olunmadığı aşkar olunub. Müayinələrin aparılması üçün məhsullardan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitunun laboratoriyasına təqdim olunub. Faktla bağlı qanunvericiliyə uyğun olaraq, məhsullar satışdan kənarlaşdırılıb və inzibati protokol tərtib edilib.*

Necati Doğru

# Utanın



***Ruanda və Türkiyə Böyük Britaniyada ”ucuz həll ölkəsi” elan edildi. Ruandanı tanıyırsınız?***

***11 milyon əhalisi var.***

***Afrikanın ortasında.***

***Dənizə çıxışı yoxdur.***

***Qitənin dənizə çıxışı olmayan ən kasıb ölkəsi. Hətta paytaxtda küçələrdə kərpic gecəqondular və ayaqyalın uşaqları görmək olar. Kolonistlər meşələri talan etdilər və indi meşə qalmayıb. Nəsli kəsilməkdə olan ”dağ qorillaları” ilə turistləri cəlb etməyə çalışırlar.***

***Çoxlu yağış yağır.***

***Qəhvə istehsal edirlər.***

***Çay bağları var.***

***İllik ümumi ticarət həcmi İstanbulun Bakırköy və ya Beşiktaş rayonlarının ümumi ticarət həcmindən geri qalır. Əhalinin 85 faizi Hatu, 14 faizi Tutsi və 1 faizi Piqmeydir.***

***1885-ci ildə:***

***Alman koloniyası idi.***

***1922-ci ildə:***

***Belçika koloniyasına çevrildi.***

***Müstəmləkəçilər, həmişə olduğu kimi, Ruandaya ”irqi ayrı-seçkiliyin mikrobunu” saldılar. 1962-ci ildə müstəqillik əldə etdikdən sonra prezidentin təyyarəsi texniki nasazlıq nəticəsində qəzaya uğrayanda Tutsi və Hatular ”prezidentin təsadüfən ölməsini bir-birini günahlandırmaq materialına” çevirdilər.***

***Vətəndaş müharibəsi başladı.***

***Qanlı soyqırım.***

***1 milyon öldürüldü.***

***Belə bir ölkənin adı Ruanda və Türkiyə İngiltərədə bir araya gəldi və ”seçki materialı” oldu. Böyük Britaniyanın Baş naziri Boris Conson; Onun ”yalan dediyi” üzə çıxanda demokratik dəyərlərə hörmət edərək ”istefa” verməli olub.***

***Yeni seçki olacaq.***

***Yarış başlandı.***

***Baş nazirliyə namizədlərdən biri olan xarici işlər naziri Liz Truss, ”seçilsəm, Ruanda və Türkiyəyə qaçqın göndərəcəyəm” sözü verib.***

***Keçən il 28 min qaçqın kiçik qayıqlarla İngiltərəyə gəldi, bu il isə 13 min qaçqın qeyri-qanuni yollarla sığındı. Avropa İnsan Haqları Məhkəməsi öz qərarı ilə Böyük Britaniyanın immiqrantları deportasiya etməsinə mane olmuşdu.***

***İngiltərədə Türkiyəyə göndəriləcəklərini eşidən sığınacaq axtaranlar da ”aclıq aksiyası”na başlayıblar.***

***Bu təkəbbürlü ingilis.***

***Özünü bəyənən.***

***Kaloniya təfəkkürlüdür.***

***Bu həyasız britaniyalı siyasətçi xanım hansı əsasla, kimə güvənir; Seçki materialına ”Britaniyanı qaçqınlardan təmizləmək” sözünü verərkən Türkiyənin adını Ruandanın yanına qoya bilərmi?***

***Bu britaniyalı siyasətçi (o, həm də Xarici İşlər Naziridir) ”danışıqlar apardığını və Türkiyənin qaçqınları qəbul etməyə hazır olduğunu” deyir.***

***İngilislərə ağlamalıyıqmı, yoxsa Türkiyənin imicini batıranlara, valyutaya möhtac olanlara, 3-4 milyon dolları qaçqın anbarı kimi istifadə edənlərə ”ar olsun, utanın” deməliyikmi?!***

***Dilimizə uyğunlaşdıran***
***Eminquey***

# 32 il bir səngərdə

## Bu, “Ədalət”in yaşıdı

**Ön söz əvəzi:**

**Bu il 32-nin əlini sıxırıq. Və xatırladım ki, mən bu yazını yazanda da, indi də düşündüm ki, 25-də də, 30-da da oxucu qarşısına gəlib çatdığımız kimi, 32-yə də o cür gəlib çatmışıq.**

**Hə,bu da 32 il!.. Düz 32 il bundan öncə Azərbaycan adlı məmləkətdə ”Ədalət” adlı qəzet dünyaya gəldi... Düz 32 il bundan öncə həmin o Azərbaycan adlı məmləkətin ”Ədalət” adlı qəzeti müstəqil mətbuatın ilk carçılarından, ilk qaranquşlarından biri kimi tarixə düşdü. Yəni bu məmləkətdə azad sözün, azad jurnalistikanın nəfəsini, hərarətini oxucu üzünə açdı ”Ədalət”. Hər kəs qəzeti ilk dəfə olaraq birinci səhifədən oxumağa başladı. Bu, ”Ədalət”in uğuru idi, bu, ”Ədalət”in yolu idi. Və 32 ildir ki, bu yol belə də davam edir...**

Bəlkə də 32 rəqəmi bir riyazi yanaşma baxımından o qədər də böyük önəm kəsb etmir. Amma 25-i yaş kimi görəndə, təqdim edəndə istər-istəməz gözünün qarşısında boylu-buxunlu, yumruqları düyülmüş, sözü ötkəm, səsi qətiyyətli bir lay divar oğlan canlanır. Deməli, ona güvənmək də olar, ona iş də tapşırmaq mümkündü və hətta ondan qəhrəmanlıq da ummaq. Bax, bu mənada 32 yaşlı ”Ədalət” dolanbac yolları, ağrılı-acılı günləri, Qarabağsız ayları, şəhid qanlarını, ölkədəki xaosu, qardaş qarşıdurmasını və nəhayət, uğurlu bir inkişafı öz canına-qanına hopdura-hopdura, köynəyindən keçirə-keçirə gəlib çatdı Qarabağlı günlərə - yəni 32 yaşa!..

Bəli, indi oturub bu 32 illik yolu kimlərlə, necə gəldi düşünürəm... Hansı çətinliklərdən keçdiyimizi, hansı uğurları qazandığımızı muncuq kimi sapa düzürəm. Bu məqamda ürəyimin dağ boyda olduğu anları da qürur hissi ilə yaşayıram. Üzüldüyümüz məqamları da kədərlə xatırlayıram. Çünki bu bizim həyatımızdı, bu bizim ömür yolumuzdu və bu yolda biz ilk addımları ”Azərbaycan” nəşriyyatının 2-ci mərtəbəsində dizimizin üstündə dəhlizdə atmışıq. Ürəyimiz əsə-əsə, həyəcandan əlimiz titrəyə-titrəyə dünyaya bir ”Ədalət” gətirmişik. Özü də bu ”Ədalət” indiki texnikanın olmadığı, sovet dönəminin primitiv çap maşınları ilə yığılıb işıq üzü görübdü. Onun dünyaya gəlməsində dəyərli Adil Minbaşının, qəzetin ilk redaktoru Aqil Abbasın və onların ətrafında toplaşan Babək Yusifoğlunun, Faiq Qismətoğlunun, Rəşid Faxralının, Lətif Süleymanlının, Məhəmmədəli Mustafanın, Əyyub Kərimovun əməyi danılmazdır. Üstəlik, dünyaya ilk sözünü çatdıran ”Ədalət”in bir pöhrə kimi böyüməsində, bir ağac kimi qol-budaq atmasında həmin illərin ziyalılarının, aydınlarının dəstəyi, təqdim etdikləri sanballı materialları doğru sözün həsrətini çəkən oxucular üçün sanki göydəndüşmə olmuşdu. Hamı səbirsizliklə məmləkətimizdə öz izini açan, öz işığını yandırıb hər kəsi ətrafına yığan ”Ədalət”in növbəti saylarını gözləyirdi. Hər yeni nömrə oxucuya yeni imzalar da təqdim edirdi. Artıq”Ədalət”in oxucuları mərhum



Mirmayıl Cəbrayılovu, Baba Pünhanı, Adil Mirseyidi, Yusif İsmayılı, Hidayət Elvüsalı, Yusif Misiroğlunu, Əliyusif Məmmədovu, Pərviz Əliyevi, Ərşad Mirzəni, Oqtay Salamovu, Qeyrət Quliyevi, Çingiz Ələkbərzadəni, Vahid Əlifoğlunu, Tofiq Abdini, Söhbət Səfərlini, Vəsilə Usubovanı, Oqtay Abbasovu, Nəriman Səttaroğlunu, Vaqif Əliyevi sözündən tanıyırdılar. Eləcə də ”Ədalət”i oxuyanlar Kamran Nəzirlini, Adil Şirini, Vaqif Bəhmənlini, Rəşad Məcidi, Asif Mərzilini, Asif Talıboğlunu, Daşdəmir Əjdəroğlunu, Nazim Ağamirovu, Lətif Novruzovu, Lətif Süleymanlını, Faiq Sadıqovu, Zaur Vəliyevi, Mehman Cavadoğlunu, Vahid Qazini, Şakir Qurbanovu, Şakir Həşimovu, Ceyhun Musaoğlunu, Nicat Bəşirzadəni, Nicat Rüstəmovu, Elçin Namazı, Rəhman Hacıyevi, Qələndər Xaçınçaylını, Surxay Əlibəylini, Yusif Rzayevi, İsrafil Quliyevi, Səxavət Məmmədovu, Nərgiz Cabbarlını, Murad Nəbibəyovu, Asəf Quliyevi, Füzuli Rüzgarı, Kərim Kərimlini, Kənan Hacını, Hidayət Elvüsalı, Bəsti Əlibəylini, Ağakişi Bahaduru, Samir Sədaqətoğlunu, İqbal Aydınoğlunu, Ceyhun Rüstəmovu, Nizami Allahyarovu, Nicat Rüstəmovu, Şamxal Şəbiyevi, Rüstəm Hacıyevi, Gülər İsmayılovanı, Mehriban Cəfərovanı, Tahirə Cəlilovanı, Elnarə Quliyevanı, Fəridə Rəhimlini, Tünzalə Xəlilovanı, Qəşəm Nəcəfzadəni, Əsəd Cahangiri, Vaqif Yusiflini, Əlövsət Bəşirlini, Sevinc Seyidovanı, Qərənfil Dünyaminqızını, Xatirə Hafizqızını, Möhtərəm Rəcəbovanı, Ülviyyə Rzayevanı, Kamil Rzakovu, Qəşəm Həşimovu, Rüstəm Hacıyevi, Elşən Quliyevi, Gültəkin Qəhrəmanlını,Vüqar Tofiqlini, Elnur Astanbəylini, Rüfət Soltanı, Nicat Qafuroğlunu, Sahib Əsədbəylini hər gün qarşılayır və onların bir-birindən maraqlı yazılarının yaratdığı ovqatın aurasında sabaha böyük ümidlər bəsləyirdilər. Şükürlər olsun ki, həmin ümidləraz-çox fərqlərlə öz təsdiqini tapdı. Bəli, ”Ədalət”in şinelindən çıxıb indi Azərbaycan mətbuatında böyük nüfuz qazanan, imzasını hərkəsə birmənalı şəkildə sevdirən yazarlar, redaktorlar bu gün öz yolları ilə getsələr də, amma onların müstəqil məmləkətdə ilk sözlərini oxucuya çatdıran ”Ədalət” oldu. Sevindirici haldır ki, dünyasını dəyişmiş həmkarlarımız,əməkdaşlarımız öz sağlıqlarında ”Ədalət”in səhifəsində olan möhürlərini, yəni imzalarını son anlarına qədər sədaqətlə, şərəflə qorudular və bu dünyadan köç edəndə onların yarımçıq qalan fikirləri, deyilməmiş sözləri tirajlanan ”Ədalət”də susmadı, dayanmadı. Əksinə, onların ruhu da, sözü də bizimlə qaldı, həm də bizim oxucularla.



Bəli, mən 32 il yol gələn ”Ədalət”in bu günündən üzü geri boylananda bir məqamı da gördüm və onu xüsusi vurğulamaq istəyirəm.

Belə ki, ”Ədalət”in təqdimatı ilə ”Ədalət”in şinelindən çıxıb müxtəlif vəzifələrə, xüsusilə hüquq-mühafizə orqanlarına işə gedən kifayət qədər müəlliflərimiz olub.

Onlar bu gün də vəzifə sahibidilər və bu gün də ”Ədalət” onlar üçün doğmadı. Onların arasında Elşad Əliyev, Rafiq Abbasov, Nazim Ağamirov, Elşad Həsənov, Amil Dosiyev, Aydın Ağazadə, Faiq Sadıqov, Rövşən Əhədoğlu və başqaları da var. Deməli, bütün bunlar göstərir ki,”Ədalət” bir xalq qəzeti olaraq ilk gündən atdığı doğru, dürüst və ədalətli addımını bu gün də yaşadır, bu gün də davam etdirir. Təbii ki, indi onun ilk baş redaktoru millət vəkili olmaqla yanaşı, həm də qəzetin təsisçisidi və ilk baş redaktoru Azərbaycanın ”Əməkdar jurnalist”i, dəyərli yazıçı-publisist İradə Tuncay əvəz edibdi. Həmin zamandan İradə xanımın rəhbərliyi altında ”Ədalət”in köhnə, yəni ilk komandasından olan Faiq Qismətoğlu, Məzahir Əhmədoğlu, Yaşar Nəbiyev, İslam Niftiyev, eləcə də yeni ”Ədalət”çilər Ədil Ədilzadə, Oğuz Ayvaz, Sübhan Mahmudlu, Şəfiqə Şəfa, Emin Piri, Ulucay Akif, Ayxan Ayvaz, Orxan Saffari, Eminquey, hər gün sizin oxucu süfrənizə özlərinin dövlətə, dövlətçiliyə,xalqa xidmət edən fikirlərini təqdim edirlər. Mən bu bir növü xatırlatma xarakterli yazını bilgisayara diktə edəndə yaddaşımı demək olar ki, xeyli sağa-sola vərəqlədim.

Çalışdım ki, heç kim yaddan çıxıb kənarda qalmasın. Çünki bizim unutmağa haqqımız yoxdu. Ən azından ”Ədalət”çi olduğumuz üçün!..

**Və bu yazıya son olaraq demək istəyirəm ki, biz 32 ili bir ailə kimi necə yaşadıq, onu sizdən gizlətmədik. Nə qazandıq sizin gözünüzün önündə oldu və bir də adımızın saflığını, sözümüzün kəsərini sizə güvənib yaşatdıq. Bunun üçün ”Ədalət”çilər olaraq Sizə, yəni bizə dayaq olan oxucularımıza təşəkkür edirik. Sağ olun ki, bizi yaşatdınız! Sağ olun ki, bizi yaşadırsınız! Biz də çalışacağıq ki, bu 32 ildə sizinlə olduğumuz kimi, bundan sonra da sizinlə olaq! Bizim və Sizin 32 yaşımız mübarək!!!**

**Hörmətlə:**
**“Köhnə Ədalətçilər”dən**
**Əbülfət MƏDƏTOĞLU**

## *İran səfirindən “Təbrizin sehrli nağılları”ı olayına kəskin reaksiya: “Qırmızı xəttimizi keçməyin!”*




**Xəbər verdiyimiz kimi, bu günlərdə İranın Ali dini lideri Əli Xameneyi ”Qarabağın Azərbaycana qaytarılmasından məmnunuq. Əlbəttə, İranla Ermənistan arasında sərhədin bağlanması siyasəti olarsa, İran İslam Respublikası buna qarşı çıxacaq, çünki bu sərhəd min illərdir kommunikasiya yoludur”- deyə Tvitter səhifəsində bir tvit paylaşmışdı.**

Bu tvit sosial şəbəkələrin Azərbaycan və Türkiyə seqmentində müzakirələrə və etiraza səbəb oldu. Azərbaycan tərəfi narazılığını bu sözlərlə ifadə etdi:” Ermənistan adlı dövlətin 1918-ci ildə yarandığı, Ermənistanla İran sərhədinin yaranmasına səbəb olan və Azərbaycanı Naxçıvandan ayıran Qərbi Zəngəzurun isə 1920-ci ildə Ermənistana qanunsuz olaraq verildiyi tarixi həqiqətdir. Bu baxımdan Xameneyinin ”min illərdir” sözü tarixi bilməmək və yaxud saxtalaşdırmaq kimi qəbul olunur”.

Elə o arada İsrailin Azərbaycandakı səfiri Corc Dik Tvitter hesabında Güneylə bağlı diqqətçəkən paylaşım etdi. Səfir ”Təbrizin sehrli nağılları” kitabını oxuyarkən çəkilən fotosunu bu sözlərlə paylaşdı:”Bu yaxınlarda mənə ərmağan edilən bu möhtəşəm kitabda Təbrizdə Azərbaycan tarixi və mədəniyyəti haqqında çox şey öyrənirəm. Bəs siz bu günlərdə nə oxuyursunuz?”

Əslində hörmətli səfir bu sözlərlə sətiraltı olaraq İranın Ali dini lideri Əli Xameneyinin Təbrizin tarixini oxumağı məsləhət görür.

Adalet.az xəbər verir ki, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi İsrailin Azərbaycandakı səfiri Corc Dikin paylaşımından ”təsirlənib” ki, kəskin reaksiyasını saxlaya bilməyib. İran səfirinin Tvitterdəki sözügedən paylaşımı:”Bu macəraçı oğlanın məlumatı üçün: Bizim sevimli Təbriz İranın qürurlu tarixində ilklər diyarı kimi tanınır. Görünür, ilk şər sionisti də qeyrətli Təbriz camaatı dəfn edəcək. Heç vaxt qırmızı xəttimizi keçməyin!”.

**Qeyd edək ki, siyasi ekspertlər son iki ili İran - İsrail münasibətlərinin ən gərgin dövrü kimi qeyd edirlər.**

**Əntiqə Rəşid**

## Putinin “bumeranq”ı : 1 dəqiqə 55 saniyəlik hesabın 50 dəqiqəsi ödənildi...

**2020 ci ilin mart ayı idi. Rusiyanın dövlət telekanalı ”Rossiya-1” Rusiya Prezidenti Vladimir Putinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı dəhlizdə gözlətməsinin kadrlarını yaydı.**

Telekanal həmin anlarla bağlı hazırladığı reportajda, ekranın küncünə saniyəölçən yerləşdirməklə V. Putinin Ərdoğanı gözlətdiyi vaxtın miqdarını göstərdi. Məlum oldu ki, Putin Ərdoğanı 1 dəqiqə 55 saniyə dəhlizdə gözlətdikdən sonra qəbul edib.



Həmin vaxt Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyanın İdlib şəhərində 34 türk əsgərinin şəhid olmasından sonra mart ayının 5-də Moskvaya rəsmi səfər etmişdi.

Ata-babalarımız necə demişdi?: ”Kəsər dönər sap dönər, gün gələr hesab dönər..” Bax həmin hesab döndü..

Adalet.az xəbər verir ki, Türkiyə və Rusiya liderləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin ötən gün Tehranda baş tutan ikitərəfli görüşü ilə bağlı görüntülər beynəlxalq medianın diqqətini çəkib.

Ərdoğanın görüşə gecikməsi səbəbindən Putinin bir müddət onu gözlədiyi qeyd edilib. Gecikmə 50 saniyə çəkib. İndi bütün dünya Rusiyanın daha dəqiq Putinin üstünə yeridiyi bir zamanda Putin çarəsizcə Türkiyə liderinin oturacağı kürsüyə gözlərini zilləməklə hansı durumda olduğunu və bir də belə bir durumda Ərdoğann önəmini anlamamış deyildi.

Mən bilirdim ki, Ərdoğan bu hörmətsizliyi unutmayacaq.

**Qeyd edək ki, Ərdoğanın gecikməsinə səbəbkarı isə Vladimir Peskov olub. Görüş otağına gələn Ərdoğan dəhlizdə Kremlin sözçüsü ilə rastlaşıb və ona diqqətsiz qalmayıb. Peskovla türkcə (Peskov türk dilində mükəmməl danışa bilir - red.) qısa söhbət edən Ərdoğanın məhz buna görə 50 saniyə gecikdiyi bildirilir**

**Əntiqə Rəşid**

## *Niyə çimərliklərdə hər gün insan boğulur?!*



**Çimərlik mövsümünün gəlməsi hamımızın ürəyincədir. Çünki isti yay günlərində sərinlənməyin ən yaxşı yolu dənizə getmək, çimərlikdə günəş vannası qəbul etmək, qumda uzanmaq, sonra da suya girməkdir.**

Təbii ki, bunlar hamısı çox gözəldir. Amma gözəl olmayan odur ki, dənizə çimməyə gedən bəzi insanlar xilasedicilərin xəbərdarlıqlarına baxmayaraq, qırmızı xətti keçir və dərinliklərə baş vurur. Aydındır ki, üzə bilməyən adamlar dənizdə çimərkən ya burulğana düşür, ya da dalğalar onu çaşdıraraq boğulurlar. Sirr deyil ki, çimərlik mövsümü başlayandan ondan çox insan suda boğularaq həlak olub. Hər gün çimərliyə gedən bir adam suda boğulur və dünyasını dəyişir. Deməli, insanların laqeydliyi və məsuliyyətsizliyi üzündən bu hadisələr baş verir. Ona görə də çimərliyə gedən hər bir insan diqqətli olmalı, xilasedicilərin olmadığı çimərliklərdə çimməməli və üstəlik də onların tövsiyələrinə və xəbərdarlıqlarına əməl etməlidirlər.

**Emil FAİQOĞLU**

## *Çin ABŞ-ı dünyanın ən təhlükəli ölkəsi adlandırdı*



**ABŞ dünya üçün əsas təhlükədir. Bu barədə Çin Xarici İşlər Nazirliyinin sözçüsü Zao Lijian deyib.**

”ABŞ 800 milyard dollardan çox büdcə ilə nəinki birinci yerdədir, hətta digər doqquz ölkənin - Çin, Hindistan, Britaniya, Rusiya, Fransa, Almaniya, Səudiyyə Ərəbistanı, Yaponiya və Cənubi Koreyanın birlikdə malik olduğu hərbi büdcəni də ötüb keçir. ABŞ dünya tarixinin ən hərbiləşmiş ölkəsi və planetin inkişafı üçün ən böyük təhlükədir”, - XİN rəsmisi bildirib.

**MEHRİBAN**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Acından ölürəm...

...Bir neçə gün bundan əvvəl Milli Elmlər Akademiyasının qarşısındakı parkda yaşlı qadın qışqıra-qışqıra deyirdi ki, acından ölürəm, mənə kömək edin! Onun bu səsinə ordan ötənlərin heç birisi reaksiya vermirdi. Düşündüm ki, bəlkə acından ölən qadının səsini eşitmirlər. Amma yenə o qadın qışqıra-qışqıra deyəndə ki, acından ölürəm, bu səsi eşitməmək mümkün deyildi. Eşitməyinə eşidirdilər, sadəcə olaraq ona kömək etmək istəyən yox idi. Sanki insanlar hamısı bir robota bənzəyirdi və bu anı, bu məqamı soyuqqanlıqla seyr edirdilər...

Təbii ki, ürəyi və insanlıq sevgisi olan adam həmin qadına laqeyd münasibət bəsləyə bilməzdi. Qadına yaxınlaşdım, niyə acından ölməyinin səbəbini soruşdum. Dedi ki, cibimdə bir manat yoxdu ki, gedim bir çörək alım, onu yavan da olsa, yeyim. Doğurdan da həmin qadın dilənçi deyildi və dilənməyə də utanırdı.

...Cibimdən çıxarıb ona pul verdim, amma götürmədi. Dedi acından ölsəm də heç kimin köməyini istəmirəm. Axır ki, çətinliklə də olsa mənim verdiyim pulu qəbul elədi və gedib yaxınlıqdakı köşkdən bulka, bir şüşə də şirəli su aldı. Qayıdıb yaxınlıqdakı çinar ağacının kölgəsində əyləşib şirin-şirin yeməyə başladı. Elə bil ki, qadının gözlərinə işıq gəldi. Onun səsi də, çöhrəsi də dəyişdi. Səsində bir nikbinlik yarandı, çöhrəsində isə sevinc hissi oyandı...

...Hər kim bir ac adamı doydursa, onun yeri cənnətdir. İndi də zəmanə o qədər çətinləşib ki, hər bir adam öz dərdinin, sərinin içindən çıxmağa bir yol axtarır. Yəni başqasına kömək etməyə bir o qədər də gücü, qüvvəsi çatmır. Söhbət ondan getmir ki, bu gün kimlərsə acından ölür. Hələ ki, ölkəmizdə bir nəfər olsun belə acından ölməyib. Başqa sözlə demiş olsaq, insanların gündəlik ehtiyacını ödəmək üçün aldıqları təqaüd və eləcə də digər müavinatlar onları çətin vəziyyətdən çıxmasına yardım edir. Düzdür, indi ölkəmizdə dünyada gedən bahalaşma ilə əlaqədar olaraq qiymətlər sürətlə yüksəlməkdədir. Yəni az qala hər gün, hər həftə ərzaq məhsullarının, qidaların qiyməti qalxmaqda davam edir.

Bu gün dünyada 200 milyondan çox insan aclıq şəraitində yaşayır. Yəni onlar adi çörək belə tapıb yeyə bilmirlər. Somalidə minlərlə insan acından qırılır. Amma onlara baxanda bizə min şükür. Mağazalar, marketlər, bazar-dükanlar ərzaq və qida məhsulları ilə dopdoludur. Əlbəttə, bayaq dedik axı, qiymətlərin bahalaşması vəziyyəti bir qədər çətinləşdirsə də, çıxış yolu tapmaq da mümkündür. Bu çıxış yolu da bütün ərzaq və qida məhsullarına, o cümlədən, çörəyə qənaət etməkdir.

...Səhər-səhər evimizin yanındakı zibil qutularına baxanda ürəyimdən qara qanlar axır. Neçə-neçə selofan torbanın içinə çörək yığılıb və zibil qutusunun yanına asılıb. Elə adam da var ki, asmağa yer tapmayıb, selofan torbaya yığdığı çörəyi zibil qutusunun yanına qoyub. Bir başqası isə çörəyə hörmətsizlik edərək selofan torbanı zibil qutusuna atıb.

Bizim bir qonşumuz var - Əli müəllim. Zibil qutusunun yanındakı quru çörəkləri götürüb məktəbin həyətinə aparır, çörəyi ovaraq ordakı göyərçinlərin qabağına tökür və göyərçinlər də Əli müəllimin ovcunda xırdaladığı çörək tikələrini gözlərinə təpirlər. Bu səhnəni dəfələrlə seyr etmişəm və axırda da Əli müəllimə demişəm ki, çox böyük savab iş görürsən. O çörəklər zibil qutusunda qalmaqdansa quşlara verilsə, daha savab işdir. Sən də belə savab iş görürsən.

Qonşum Tahir isə zibil qutusunun yanındakı çörəkləri görəndə cin vurur başına və deyir ki, bunu zibil qutusuna atanlar aclıq nə olduğunu bilmirlər. Bax, bu dəqiqə, bu an Ukraynada bu bir tikə çörək üçün acından ölən insanlar var. Mənim anam deyərdi ki, bala, kəndimizdə 1941-1945-ci illər müharibədə ölənlərdən acından ölənlər daha çox idi. İndi düşünürəm ki, anam nə gözəl deyibmiş. Bax, zibil qutularında çörəyi görəndə hirsimdən bilmirəm neyniyim, qoy çörəyin qiymətini qaldırıb iki manat eləsinlər ki, camaat evdə qalan çörəyi zibil qutusuna atmasın. Vallah, mən buna qudurğanlıq deyərəm. Tay bunun başqa adı yoxdu.

Sovet dövründə Ali Sovetin sədri işləmiş İskəndərovun xidmətçisi deyir ki, mən onun evində uzun illər ailəyə qulluq eləmişəm. Bir dəfə görmədim ki, bir tikə çörək zibil qutusuna atılsın. Əksinə rəhmətlik İskəndərov süfrənin üstündəki çörək qırıntılarını ovcuna yığır və axırda da ağzına atıb yeyirdi. Deyirdi ki, siz bilməzsiniz aclıq nə olan şeydir. Bax, bu çörək qırıntısı üçün minlərlə insan acından ölüb.

Görürsünüzmü, yaşlı nəslin çörəyə nə qədər böyük hörməti var. Çünki onlar bilirlər ki, aclıq nə deməkdir, yalavaclıq nə deməkdir. İnsanlar başa düşmürlər ki, bir tikə çörək üçün adam acından ölə bilər. Çörək tapılmayanda və qəhətə çıxanda biz onun qədrini bilirik. İndi çörək boldursa, o demək deyil ki, onu hara gəldi atmalıyıq, aparıb zibil qutusunun yanına qoymalıyıq. Hansı ki, bir neçə gün bundan əvvəl bir qadın qışqıra-qışqıra deyirdi ki, acından ölürəm. Düzdü ey, bizdə acından ölən yoxdur, amma çörəyə belə hörmətsizlik bəsləyiriksə, bu Allaha da ağır gedər və biz aclıqla sınağa çəkilərik və hətta acından ölərik...

## "Aran" qəzetinin 90 illik yubileyi qarşısında




**Ağcabədidə çıxan "Aran" qəzetinin 90 yaşı tamam olur. 1932-ci ildən "Ağcabədi pambıqçısı" adı ilə nəşr olunan qəzet, son dərəcə maraqlı inkişaf yolu keçib. Ötən əsrin 60-cı illərində "Sürət" adı ilə çıxan qəzet müstəqillik illərində "Aran" kimi fəaliyyətini davam etdirib. Bölgənin ilk mətbu orqanı 90 il ərzində rayonun salnaməsini yazıb. Həm sovet, həm də müstəqillik illərində Ağcabədidə iqtisadi, mədəni, təsərrüfat sahələrində qazanılmış nailiyyətlərin geniş işıqlandırılmasını təmin edib. Qəzetin kollektivində müxtəlif dövrlərdə Sərdar Mehdiyev, Ənvər Əhməd, Aslan Aslanov, Fazil Sarvan, Tahir Rzayev kimi tanınmış jurnalistlər çalışmışlar.**

"Aran" qəzeti qabaqcıl region orqanı kimi xüsusi nüfuz qazanıb, əhali arasında sayılıb-seçilib. Təsadüfi deyil ki, tanınmış qələm sahibləri - Elburus Əhməd, Aqil Abbas, Rəşad Məcid, Yəhya Paşazadə, Təvəkkül Yanar bu mətbuat orqanının yetişdirmələridir. Son iki ildə Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynovun diqqət və yaxından dəstəyi sayəsində "Aran" qəzeti 3000 min nüsxə ilə həftədə 2 dəfə işıq üzü görür. Və qəzetin nəzdində Aran-Qarabağ-TV internet kanalı uğurla fəaliyyət göstərir.

Ölkədə mətbuatın ilk qaranquşu olan "Əkinçi" ənənələrinə sadiq qalan Ağcabədinin "Aran" qəzeti kollektivinin səyi nəticəsində texnoloji tərəqqi zamanında öz işini günün tələbləri səviyyəsində qurur və gələcəyə inamla addımlayır. Qəzetin yaradıcı kollektivini qarşıdan gələn 90 illik yubiley münasibəti ilə təbrik edir, onlara yeni uğurlara imza atmağı arzulayırıq.

**Adil Misirli**

# Möhtəşəm tədbirin əks-sədası

## I Beynəlxalq Tibb Forumu ölkəmizin tarixində yeni bir səhifə açdı

**18-21 iyun 2022-ci il tarixlərində Azərbaycanda ilk dəfə keçirilən "I Beynəlxalq Tibb Forumu" müvəffəqiyyətlə başa çatıb. Forum Azərbaycan Tibb Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Azərbaycan Endoskopik-Laporoskopik Cərrahlar Assosiasiyası İctimai Cəmiyyətinin birgə təşkilatçılığı ilə canlı formatda təşkil edilib. Forumda rəsmi şəxslər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov, Naxçıvan**




**Dövlət Universitetinin rektoru Elbrus İsayev, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Azərbaycan Endoskopik-Laporoskopik Cərrahlar Assosasiyası İctimai Birliyinin sədri Müşfiq Həsənli, dost.dr. Seymur Talıbov, dost.dr. Rauf Bəylərov, Ankara Universitetinin rektoru Necdet Ünüvar, Gazi Universitetinin rektoru Musa Yıldız, Yeditepe Universitetinin rektoru Canan Aykut Bingöl, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Universitetinin Bakı filialının rektoru Əziz Əliyev, Bakı Sağlamlıq Mərkəzinin direktoru Asiman Həsənov, dekan Elsevər Əsədov, AELCD-nin İnvaziv Endoskopiya Bölümünün sədri Aqil Atakişiyev, Türkiyə, Almaniya, Rusiya, Özbəkistan və bir sıra ölkələrdən dəvət edilmiş mütəxəssislər, rektorlar, ölkəmizdə fəaliyyət göstərən dövlət və özəl xəstəxanalarının həkim heyəti, tibb cəmiyyətləri, kursantlar və ictimaiyyət nümayəndələri daxil olmaqla 400-dən çox şəxs iştirak edib. Onlar forum boyunca davam edən müxtəlif panel müzakirələrinə və ikitərəfli işgüzar görüşlərə qatılıblar.**

Tədbirin keçirilməsində məqsəd səhiyyənin inkişaf etdirilməsi, dünya təcrübəsinə əsaslanan elmi-tibbi yeniliklərin ölkəmizdə tibb sahəsinə tətbiqinin genişləndirilməsi, eləcə də dünyanın bir sıra ölkələri ilə məhsuldar əməkdaşlıq qurmaq, tibbin müasir standartlarında inkişafına töhfə verməkdir. Forumda cərrahiyyə, pankreas xəstəlikləri, plastik estetik və rekonstruktiv cərrahiyyə, endokrinologiya, virus hepatitləri, HCC, qaraciyər transplantasiyası, qastroenterologiya, onkologiya, oftalmologiya, pediatriya, infeksion xəstəliklər, stomatologiya və digər tibb sahələri üzrə çox aktual mövzularla bağlı yerli və



xarici mütəxəssislərin çıxışları dinlənilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Gələcəkdə bu səpkidə silsilə tədbirlərin keçirilməsinin labüdlüyü vurğulanıb, iştirakçılara və tədbirin ərsəyə gəlməsində göstərdikləri dəstəyə görə dövlət və özəl şirkətlərə təşəkkür edilib.

Tədbirin əsas təşkilatçılarından biri olan Naxçıvan Dövlət Universiteti çox böyük möhtəşəm beynəlxalq layihələrə imza atıb. Elbrus İsayev universitetə rektor təyin olunandan sonra demək olar ki, bu ali təhsil ocağında elmin və təhsilin inkişafında yeni layihələrin həyata keçirilməsində və eləcə də dünyanın qabaqcıl universitetlərinin mütərəqqi metodların tətbiqində çox böyük uğurlar əldə edilib. Bir sözlə, Naxçıvan Dövlət Universiteti ölkəmizin ali təhsil ocaqları arasında öz yüksək inkişafı və mütərəqqi ənənələri ilə təhsilimizdə yeni bir cığır açıb. Əlbəttə, ali təhsil ocağında savadlı, müasir düşüncəli və istedadlı alimlərə, ziyalılara "yaşıl işıq" yandırılanda istər-istəməz təhsildə çox böyük uğurlara imza atmaq mümkündür. Heç şübhəsiz, universitetin əldə etdiyi böyük uğurlarda və müvəffəqiyyətlərdə rektor Elbrus İsayevin təşkilatçılığı, istedadı və obyektiv mövqe tutması çox önəmli əhəmiyyət kəsb edir.

**Onu da qeyd edək ki, Naxçıvanda keçirilən I Beynəlxalq Tibb Forumu əks-səda yaratmış və eyni zamanda cəmiyyət və ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Cəmiyyət də görür ki, bu gün Azərbaycanda dünya standartlarına**




**cavab verən təhsil sistemi qurulur və bu sahədə ciddi addımlar atılır. Yaxşı ənənələri yaşatmaq və davam etdirmək isə Azərbaycan təhsilinə və tibbinə heç şübhəsiz yeni uğurlar gətirəcək.**

**Faiq QİSMƏTOĞLU**

# Bu ilin 7 ayında 23 tələbə vəfat edib: Xəstəlik, qəza, intihar...

**ADA Universitetinin tələbəsi Fərhad Abbaslı vəfat edib.**

Adalet.az social şəbəkə izləyicilərinə istinadən xəbər verir ki, İqtisadiyyat fakültəsinin tələbəsi olan F.Abbaslı xərçəng xəstəliyindən əziyyət çəkirmiş.

Bundan başqa, F.Abbaslı müxtəlif yerli və xarici şirkətlərdə nəzarətçi, audit mütəxəssisi kimi də çalışıb.

Qeyd edək ki, indiyənə qədər heç bir ildə tələbə ölümlərinin sayı bu qədər artmayıb. Təkcə 2022-ci ilin 7 ayı ərzində müxtəlif səbəblərdən həyatını itirən tələbələr haqqında araşdırma apardıq və həmin məlumatı nəzərinizə çatdırırq .

**1.** 10 Yanvar 2022-Lənkəran Dövlət Universitetinin "Tarix-coğrafiya və incəsənət" fakültəsinin Tarix və coğrafiya müəllimliyi ixtisasının V A qrupunun tələbəsi Maral Anar qızı Quluzadə uzun sürən onkoloji xəstəlikdən dünyasını dəyişib.

**2.** 17 yanvar-Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin "Dünya iqtisadiyyatı" ixtisası üzrə IV kurs tələbəsi Elgün Etibar oğlu Məmmədov dünyasını dəyişib. Məlumata əsasən, E. Məmmədov ötən il dekabrın 23-də ağır yol qəzasına düşüb. Uzun müddət komada qalan tələbə yanvarın 15-də vəfat edib.

**3.** 6 fevral-Bakı Slavyan Universitetinin Tərcümə fakültəsinin IV kurs tələbəsi Mərziyyə Nazim qızı Vəliyeva uzun sürən ağır xəstəlikdən dünyasını dəyişib

**4.** 14 Fevral -Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Mexantronika və robot mexanika mühəndisliyi ixtisasının 3-cü kurs tələbəsi Adıyeva Xədicə Yaşar qızı yaşadığı evin həyətində özünü asaraq intihar edib.

**5.** 8 mart - Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat fakültəsinin 5-ci kurs tələbəsi Zərrin Hacıyeva uzun müddət mübarizə apardığı xərçəng xəstəliyindən dünyasını dəyişib.

**6.** Azərbaycan Dövlət Aqrar Universitetinin Elektrik Mühəndisliyi ixtisasının III kurs tələbəsi Səlimov Asif Süleyman oğlu yaşadığı evdə dəm qazından boğularaq dünyasını dəyişib.



**7.** 27 mart - Bakı Dövlət Universiteti Geologiya fakültəsinin tələbəsi Qənbərli İlkin Emil oğlu dənizdə boğularaq ölüb.

**8.** 27 Mart - Qərbi Kaspi Universitetinin Siyasi və İctimai Elmlər Məktəbinin fəlsəfə ixtisası, III kurs tələbəsi Nəzrin Rüstəmova yol qəzasında həyatını itirib.

**9.** 2 aprel - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının III kurs tələbəsi Aysel Cəfərzadə ağır yol-nəqliyyat hadisəsi nəticəsində dünyasını dəyişib.

**10.** 11 aprel - Azərbaycan Texniki Universitetinin (AzTU) Xüsusi texnika və texnologiya fakültəsinin 4-cü kurs tələbəsi Sona Qarazadə 22 yaşında qəflətən vəfat edib.

**11.** 15 aprel - Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistratura və doktorantura şöbəsinin Davamlı təhsil və innovasiyalar bölməsində təkrar ali təhsil alan tələbə Yusubova Sevda Nurəddin qızı ağır xəstəlikdən vəfat edib.

**12.** 28 aprel - Tibb kollecinin tələbəsi, Qəbələ rayonun Nohurqışlaq kənd sakini, 1999-cu il təvəllüdlü Ədilli Aysun Valeh qızı yaşadığı evdə atasına məxsus ov tüfəngindən özünə atəş açıb. Döş nahiyəsindən güllə yarası alan Aysun Ədilli hadisə yerində dünyasını dəyişib.

**13.** 31 May -Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin Xarici dil (ingilis) müəllimliyi ixtisasının 3-cü kurs tələbəsi Fatimə Dünyamalıyeva ağır xəstəlikdən dünyasını dəyişib.

**14.** 6 iyun- Bakı Dövlət Universitetinin IV kurs tələbəsi Ata Şahin oğlu Əliyev İsmayıllı rayonun traktorun aşması nəticəsində dünyasını dəyişib.

**15.** 11 iyun - Azərbaycan Dövlət Pedaqoji Universitetinin II kurs tələbəsi Tural Hətəmov bu gün Cəlilab adda həyatına qəsd edib.

**16.** 15 iyun-UNEC-in "İqtisadiyyat və İdarəetmə" fakültəsinin I kurs tələbəsi Qaçıyeva Gülbəniz Bakı-Quba yolunda baş vermiş yol qəzasında dünyasını dəyişib.

**17.** 27 İyun - Azərbaycan Texniki Universitetin üçüncü kurs tələbəsi Əhmədov Novruz Elnur oğlu dənizdə çimərkən boğulub ölüb.

**18.** 3 iyul- 1994-cü il təvəllüdlü Orxan Hümbətov və həyat yoldaşı 1996-cı il təvəllüdlü Sona Hümbətova Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində təhsil alıblar. Onlar "Rabitə avadanlıqlarının quraşdırıcısı" ixtisasının 1 ci kurs tələbələri olublar.

**19.** 4 iyul - Bakı Mühəndislik Universitetinin (BMU) Pedaqoji fakültəsinin Riyaziyyat və informatika müəllimliyi ixtisasının II kurs tələbəsi Nümayişli Aytac Samir qızı uzun sürən xəstəlikdən sonra vəfat edib.

**20.** 14 iyul Bakı Mühəndislik Universitetinin magistratura pilləsinə qəbul olan Ramil Cəfərzadə dənizdə çimərkən boğularaq ölüb.

**21.** 18 iyul -BDU-nun ekologiya və torpaqşünaslıq fakültəsinin torpaqşünaslıq və aqrokimya ixtisasının 2-ci kurs (qiyabi) tələbəsi Məmmədzadə Azər Qanboy oğlu qan xərçəngi xəstəliyindən vəfat edib.

**Qeyd edək ki, siyahımızda bu ilin 7 ayı ərzində müxtəlif səbəblərdən: xəstəlik, qəza və intiharla həyatını itirmiş tələbələrin adı var.**

**Əntiqə Rəşid**

## İstirahət məkanına gedənlər ehtiyatlı olmalıdır



**Bu gün ölkəmizdə saysız-hesabsız istirahət məkanları var və orda dincəlmək həqiqətən də adama ləzzət edir. Amma məsələnin bir görünməyən tərəfi var. Birincisi istirahətə gedən hər bir insan yola çıxarkən avtomobili diqqətlə idarə etməli, yol hərəkəti qaydalarına ciddi əməl etməli və eyni zamanda istirahət məkanına çatandan sonra orda da lazımi tövsiyələrə diqqət yetirməlidir.**

Çünki bəzi insanlar tanımadıqları istirahət məkanına gedərkən meşədə azır və nəticədə müəyyən problemlər yaşayır. Əlbəttə, bütün turistlər qoyulmuş qayda-qanunlara bir qayda olaraq əməl etməli, istirahət məkanında dincələrkən özləri meşədə samovar qalayanda, kabab bişirəndə yandırdıqları ocağı söndürməlidilər. Ki, sonradan meşə yanğınları baş verməsin. Çünki son vaxtlar meşə yanğınlarının baş verməsi bir çox insanların səhlənkarlığı nəticəsində yaranır.

**Emil FAİQOĞLU**

## Ruslar kütləvi şəkildə ölkəni tərk edir



**Rusiya vətəndaşları kütləvi şəkildə ölkəni tərk edərək vizasız rejim olan bir sıra ölkələrə - Ermənistan, Qazaxıstan, Gürcüstana gedirlər. Artıq Türkiyə də çoxlarının sığınacağına çevrilib.**

Bu barədə "FreeDom" layihəsinin süjetində deyilib.

"Artıq Rusiyada mühacirətin ikinci dalğası başlayıb. Bu proses daha qlobal xarakter daşıyacaq və İT sektorunun mütəxəssislərinə, akademiklərə, kibertəhlükəsizlik mütəxəssislərinə, mühəndislərə təsir göstərəcək. Siyasi analitiklərin proqnozlarına görə, daha 2 milyon insan ölkəni tərk edəcək", - məlumatda qeyd olunub.Qeyd edək ki, FTX Sərhəd Xidmətinin məlumatına görə, Ukraynaya müdaxilənin ilk aylarında Rusiyanı təxminən 4 milyon insan tərk edib.

**MEHRİBAN**

Eminquey

# "Xalq sığorta" xalqa şou göstərir?



"Xalq sığorta"nın adını eşidəndə elə bilirəm ki, bu, sığorta şirkəti yox, müğənni-zaddır, xalqın sevgisini və sənətini qiymətləndirib fəxri ad veriblər.

Açığı, müğənni olmasa da olar, "Xalq sığorta" xalqa əməlli-başlı şou göstərə bilir, bəsimizdir. Guya xalq artistlərinin hamısının səsi var ki?

Sözü çox oynatmadan keçirəm şoumuza.

Yaxın qohumum Emin (Abbasov) bu il mayın 13-ü zəncirvari qəzaya düşür, özü xəsarət almasa da, maşınına maddi ziyan dəyir. Amma ümumən qəzada xəsarət halı qeydə alındığı üçün iş tədqiqata götürülür. Tədqiqat bir ay ərzində qərar çıxarır, günahkar təyin olunur.

İyunun 16-sı "Xalq sığorta" Eminə dəymiş ziyanı 1770 manat kimi qiymətləndirir. Qəza zəncirvari olduğuna görə, 1132 manatı sığorta şirkəti, qalan məbləği isə məhkəməyə müraciətlə zərərvuran ödəməli olur.

Bu işə baxan Əfsanə Bayramova 7 iş günü ərzində pulun Eminin hesabına köçəcəyini deyir. Yeddi iş günü olur on iş gün, on iş günü olur on iki. Və Emin Əfsanə Bayramova ilə görüşür, pulun hələ də hesaba niyə köçmədiyini soruşur. Əfsanə Bağırova bəhanə gətirərək deyir ki, zərərvuran şəxs zərərçəkən şəxslərdən birinə 4000 civarında pul ödəyib-filan. Sığorta şirkəti olaraq sizin öhdənizə düşən 1132 manatın deyilən vaxtərzində ödənilməməsinə zərərvuranın kiməsə 4000 manat ödəməyinin nə dəxli var?

Uzun cəfəngiyatdan sonra Emini "Xalq sığorta"nın müdiri Mahir İsmayılova yönləndirirlər. Emin Mahir İsmayılovun qəbuluna düşür, eyni minvalla Mahir İsmayılov da dəxli olmayan şeylər danışır. Gah hansısa işçini çağırır, danlayır, gah bunu. Nəticədə Eminə deyir ki, sizin işiniz həll olundu. (Bundan sonra da) 7 iş günü ərzində pul sizin hesabınıza köçəcək. Emin narazılığını bildirəndə ki, bu vaxta kimi də 7 iş günü ərzində köçəcəyini demişdiniz, 12 oldu, pul köçmədi, mən sizdən bu məsələnin uzanmağının səbəbini yazılı formada istəyirəm, Mahir İsmayılov qayıdır ki, mən sənə kömək etmək istədim, amma sən özün öz işini uzadırsan. Yaxşı, əgər istəyirsənsə yazılı müraciət et, müraciət 15 günə bizə gələcək, sonra biz sənə cavab verəcəyik. Sən ödənişi tez almaq istəmədin, ödəniş biraz da uzanacaq.

Həm də də onu deyiblər ki, zərərvuran Azərbaycanda yoxdur, o gəlib imza atmalıdır ki, biz ödənişi edək. Emin biraz dirənəndən sonra qayıdıblar ki, danışdıq, burada imiş, gələcək, qol çəkəcək. Nəyə? Pulu sığorta ödəməli deyilmi? Sığorta şirkəti pulu zərərvurandan alıb verirmi?

"Xalq sığorta"nın bir vətəndaşa bu cür get-gəlli, vecsiz, hikkəli davranışını nə cür izah etmək olar? İnsanlar malını bu şirkətə əmanət edir, sığortalayır, səhərsi də bu cür süründürülür. Niyə?

Əgər bu işçinin səhvi olsaydı, bağışlamaq olardı ki, bəzən təcrübəsiz işçilər olur və belə hallar yaşanır. Yox, əgər sığorta şirkətinin müdiri də eyni davranışı sərgiləyirsə, demək ki burada bir tərslik var.

Sığorta şirkəti öz imicinin qeydinə qalmalı deyilmi? İstər həkim olsun, istər vəkil və ya sığorta şirkəti, bunların ictimai imicləri çox önəmli rol oynayır. Bəzən şirkətlər illərlə öz adlarına işləyirlər. Bu sistem oturduqdan sonra isə uzun illər artıq şirkətin adı bəs edir ki, müştəri cəlb etsin. Yəni əsas şərtdir ki, sığorta şirkəti imic problemini də həll etsin. Vətəndaşda bir fikir formalaşmalıdır ki, sığortaya şəxsi təşəbbüsü ilə müraciət etmək vətəndaşın xeyrinədir. Bu alqı oturuşmalıdır ki, vətəndaşlarla şirkətlər arasında normal münasibətlər formalaşsın.

"Müştəri tələbatlarının təmin edilməsi üçün keyfiyyətli xidmət".

Bunu "Xalq sığorta"nın saytında oxuya bilərsiniz.

Amma hanı keyfiyyətli xidmət?

Adının önünə "xalq" sözünü yapışdıran bu cür bir sığorta şirkəti əslində yaişinə məsuliyyətlə yanaşmalı, insanları süründürməməli, xəyallarını, ümidlərini qəzaya uğratmamalıdır, ya da xalqı özündən sığortalamalıdır?!

Emin Piri

# 4-5 nəfər ədəbiyyatı



Müasir Azərbaycan ədəbiyyatını giley, qınaq, ittiham dövrü dəadlandıra bilərik. Doğru, bəziləri yaradıcılıqla məşğuldu, sanballışeirlər yaranır, öz yerində. Amma bütün bunlar istisnanı pozmur. Daha çox "4-5 nəfər ədəbiyyatı"adlandıra da bilərik.

4-5 nəfər yığışır bir yerə, məsləhətləşir, şəkil paylaşaraq özləriniqaymaq adlandırır, amma başqa 4-5 nəfəri "kruq ədəbiyyatı"ndaittiham edir. Sonra başqa 4-5 nəfər imza günləri keçirir, sırf özlərini reklam edir,digər 4-5 ləri paxıllıqda ittiham edir.

Başqa 4-5 nəfər də eyni efirləri bölüşür, özlərindən başqasının adınıtv-lərə verməz, efirdə də özlərindən danışır, digər 4-5 nəfərləri isəonları gözü götürməməkdə ittiham edir.

Bir 4-5 nəfər də müasir yazar dünya ədəbiyyatından, yeniliklərdəndanışır, digər millilikdən danışan 4-5 əslindəsə"ərəb" bunları milliədəbiyyatdan uzaq adlandırır.

Bir digər 4-5 nəfər bir-biri haqda "eşq olsun"lu, "yaxam cırıldı"lıyazır,sosial şəbəkələrdən üzü belə özlərinin heç nəyə yaramayanreklamı ilə məşğul olur, amma xarici səfərlərə gedən eyni 4-5 nəfərivə ya onların göndərilməsində ittiham edir.

Sonra da tədbirlərdə eyni səhnəni 4-5 nəfər bölüşür, digərləri həminvaxt heç ya da düşməz, amma bunlar başqa 4-5 nəfəri eynimükafatları onların almasında itiham edir.

Məmur yazıçını tərifləyən 4-5 nəfər başqa məmur yazıçını tərifləyəndigər 4-5 nəfəri yaltaqlıqda qınayır.

Eyni 4-5 nəfərin mediada dərc olunduğunu deyən digər 4-5 nəfərsəəlinə imkan düşən saytda özlərindən başqa 4-5nəfəri görməyəbəsirət gözləri çatmır.

Xaricdə ancaq özü çap olunan eyni 4-5 imza başqa 4-5 nəfəribunları şair kimi görməməkdə və ya ciddi qəbul etməməkdə qınayır.

Ta gerisi qalsın.

Vallah, hamsı da haqlıdı...

## "Gir içinə, yat" - Yaponlardan yeni icad



**Yaponiyada "yuxu kapsulu" adlanan cihazlar hazırlanıb.Bu cihazlar xüsusən çox işləyən insanlar üçün nəzərdə tutulub.**

Bu avadanlıqların hazırlanmasında iki Yapon şirkəti iştirak edib. Belə ki, çox işləyən insanlar "yuxu kapsulu"nun içinə daxil olub ayaq üstə, yolda, ofisdə iş şəraitini pozmadan yata biləcək. "Bu, "kapsul" iş günü ərzində qısa müddətli yatmaq istəyən işçilər üçün daha sağlam bir seçim olacaq", - deyə kapsulun hazırlanmasında iştirak edən mütəxəssislər iddia edib.

**Eminquey**



Tofiq ABDİN

## BƏLKƏ... BİR DAHA ŞEİR YAZMADIM

*bəlkə... bir daha şeir yazmadım*
*yazmamağımın min bir nədəni var*
*bəlkə*
*min birdən də çox*
*minindən biri*
*bu dünyadan gedəndə*
*onları tapşıra biləcəyim*
*kimsəm yox!!!!!!!!!*

***

*ömrün bu çağına gəlib çıxdım ki*
*məni ağlayanlar ağlamasınlar*
*uzanan günlərin içindən çıxıb*
*açıq gözlərimi bağlamasınlar*

*allah sevgidənmi yaşatdı məni*
*yoxsa, bu cəzamı,*
*dostdan, tanışdan*
*ayırıb*
*bir ayrı dünyada oyatdı məni*

*oyanıb dünyanı yuxulu gördüm*
*gözümü açmamış*
*iməkləməmiş*
*anamsız dünyanı yıxılı gördüm...*
*buludundan qorxdum, çayından qorxdum*
*başımın üstündə fır-fır fırlanan*
*qarğışından qorxdum, vayından qorxdum*
*məni sevənlərin sayı azaldı*
*mənə nə oldusa*
*döz, dur dedilər*
*sənin alın yazın bütün olanlar...*

*bu yazı mənimlə ölsəydi barı*
*rahat yaşayardı mənsiz qalanlar*

***

*nə günəş isidir*
*nə panel evlər...*
*ömrümün bu çağını*
*belə düşünməmişdim*
*əlimdən tutan əl yox*
*bakının ən soyuq günündə*
*belə üşüməmişdim*
*bu itkilər diksindirmir insanları*
*bu itkilər insanlarçün itki deyil*
*bəs nədi*
*ömrüm daşa, divara yox*
*bir yad səsin acısına dirəndi*
*bu yazımı*
*yoxsa tale*
*daş bağlanmış ayağımdan çəkir geri*
*bir yerlərə çıxa bilsəm*
*unutsam bu günləri*
*bir daha qayıtmaram*
*bu günlərə,illərə*
*ki,*
*keçim namərd əllərə...*

***

*bu qorxu o tindəymiş*
*həmən qarşıma çıxdı*
*çıxıb bir yad gözündən*
*həmən içimə axdı*

*mən necə görməmişəm*
*mən necə kor olmuşam*
*bu yaşda bu qorxunu*
*içimə doldurmuşam*

*ha çapala, ha vuruş*
*ata bilmərəm onu*
*heç belə gözləmirdim*
*mən ömrümün sonunu*

*yazıq ömrümə yazıq*
*məni güdürmüş bu şər*
*atalar düz deyirmiş*
*qorxan gözə çöp düşər*

***

*bu yaşda sevmək üçün*
*havalanmaq gərəkdi*
*bu yaşda sevmək üçün*
*sevdalanmaq gərəkdi*

*o da mənim əlimdə*
*bu da mənim əlimdə*
*ortada ağlın gücü*
*adın mənim dilimdə*

*adına od düşəcək*
*içimdəki alovdan*
*üz tutacaqsan mənə*
*bir gün söküləndə dan*

*çətin gəlib çıxasan*
*ayrılığın içindən*
*durmusan durduğun yerdə,*
*yad adam var içində...*

*gəlib çıxa bilməzsən*
*ayrılıq yaşayırsan*
*sən elə gəlirsən ki,*
*gedənə oxşayırsan...*

***

*hara gedir bu məmləkət görəsən*
*gedir şellənə-şellənə*
*qarşıdan bir bəla gəlir*
*aman yellənə-yellənə*

*adamları adamlıqdan çıxıbdı*
*boyunbağı körpüləri taxıbdı*
*öz əliylə öz evini yıxıbdı*
*yollarını daş- kəsək yox*
*sular tutub*
*sular sellenə-sellənə*

*sözlərinə heç bir məhəl qoyan yox*
*təklənibdi bir kimsədən həyan yox*
*tikənindən dağıdanı daha çox*
*danışmağa dili də var*
*eşitmirlər*
*qalıb dillənə-dillənə*

*yaman uzun sürdü bu alış-veriş*
*zamana sığmayır bu vaxtsız gərdiş*
*xeyrə yozulmayır bu gediş-gəliş*
*bizsə qalmışıq ortada*
*hələ küllənə-küllənə*

*küçələri gül-çiçəyə bürünür*
*adamları yaşamır ki, sürünür*
*kimsə bilmir sabah necə görünür*
*gözlər ora millənib*
*qalıb millənə-millənə...*

İmamverdi İSMAYILOV,
Milli Məclisin deputatı, yazıçı-publisist

# KÖÇ GEDİR...



**Nə xoşdur bu...**
**Köçüm gedir!..**
**Qarabağa, Şərqi Zəngəzura!..**
**Qəlbim sevincdən kükrəyir, yəhər tutub atlanır...**
**Elə bil arzularımızın çin olduğu şirin bir yuxunun içindəyik.**
**Doğma torpaqlar dirçəlir, yurdlar qurulur, ocaqlar çatılır.**
**Elat geri dönür, neçə həmvətənim illərin həsrətindən sonra öz doğma yuvasına qovuşur, beləcə, doğma yurda köç gedir, hamı elliklə sevinir ki, qarşıdakı günlərdə də bu müqəddəs köç davam edəcək...**
**Göz dolusu baxıram... Sevinirəm... Qürurlanıram!..**
**Dönüb bir baxsana, gör yollar köç karvanları ilə necə də nəfəs alıb yaşayır...**
**Köç gedir, gedişi ilə köçkünlüyü də dəfn edir özü ilə...**

***

Bu, böyük köçdür, bu, böyük başlanğıcdır, biz bu günü illərlə gözləmişik, bir igidin ömrü qədər müddətdə ürəyimizi köz kimi dağlayan həsrəti bu günün ümidləri ilə ovutmuşuq.

*Şükür qovuşdurana - çox şükür!*

**İradəsi ilə, fəhmi ilə, qətiyyəti ilə bizi bu günlərə yetirmiş Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bitib-tükənməyən alqışlar!..**

*Od-ocaq yerlərimizi canları-qanları bahasına düşməndən təmizləyib yolumuzu açmış igidlərimizin qeyrətinə qurban...*

Qısa müddətdə Qarabağda, Şərqi Zəngəzurda başqalarının bir qəpiyinə də möhtac qalmadan öz imkanları hesabına böyük işlər görən, erməni vandallarının illərlə vəhşi kimi dağıdıb-tökdükləri yurdlarımızı aylar içində dirçəldib ayağa qaldıran, torpaqlarımıza həyat gətirən müstəqil dövlətimizin qoluna qüvvət, qazancına bərəkət.

**Min bərəkət!..**

***

Evinin köç yükünü, dəm-dəsgahını maşınlara yükləyib Zəngilana doğru yola çıxan soydaşlarımızın çöhrəsi bayaqdan bəri gözlərimin önündədir. Hamının üzü gülür, gözlərdə sevinc yaşları silələnib, bir-birinə sarılıb, gözaydınlığı verirlər...

Necə də kövrək anlar, xoş mənzərədir bu!..

*Təxminən otuz il əvvəl işğalın ağrı-acılarından, qarşıda onları gözləyən həyatın mübhəmliklərindən, evsiz-eşiksiz ağır həyatın məşəqqətlərindən gözləri solan, bənizləri sozalan insanların baxışlarında indi parlaq bir işıq var, bu gələcək səmtindən düşən işıqdır, insanlar bu işığı tutub yola çıxıblar: əbədi bir işığı...*

Bu, illərin həsrət və intizarının bitdiyi anın portretidir - Tarixi Anın portreti!..

**Yolunuz uğurlu, köçünüz xeyirli olsun, əziz həmvətənlərim!..**

***

*Ağalı camaatı, Ağalı elatı indi öz qibləsinə üz tutub, doğma kəndinə, yurduna, çölünə, dağına-dərəsinə köçür.*

**Xoş gördük, doğma elim!**
**Qədəmləriniz mübarək, əzizlərim!..**

*Bu insanlar işğalın ilk aylarındakı kimi ağır çətinliklər, çarəsizliklər içində deyildilər daha. Dövlətimiz tədricən hamısını yerbəyer etmişdi, ölkənin müxtəlif yerlərində yaşamaları üçün binalar tikmişdi, abad, qurulu mənzillər vermişdi, dolanışıq problemləri də bir şəkildə həllini tapmışdı.*

Amma bu insanlar doğma yurddan uzaqdakı o mənzilləri də, gündəlik iş-güclərini də qoyub gedirlər, çünki torpaq ruhuyla çəkir, ən böyük xoşbəxtliyin öz yurdunda, öz ocağında olduğunu anladır.

Dövlətimiz bu torpaqlarda böyük bir gələcək qurur, insanlar dövlətimizə də, bu torpaqların gələcəyinə də qəlbən inanırlar.

**Və köçürlər...**
**Və qayıdırlar...**
**Böyük köçlə, böyük qayıdışla!..**
**Böyük qayıdışın mübarək, Vətən!..**
**Nə deyim...**
**Vətənin o başı, bu başı olmaz, əzizim. Azərbaycanın hər yeri doğmadır, hər yeri evimizdir, ocağımızdır, amma insanın öz yurdunun, öz ocağının, öz kənd-kəsəyinin hüsnü başqadır.**
**Tamam bambaşqa...**
**Bu, yaşayış yeri, iş yeri məsələsi deyil ki...**
**Bu, ruh halıdır - ruhun cismə, cismin torpağa qovuşmasıdır...**

Ağalıların köç yükündə gül dibçəkləri də dəydi gözümə - köçkünlük illərində mənzillərində əkib-becərdikləri, torpağın ətrini, təbiətin rəngini tamarzı kimi duyduqları güllər.

*Bu güllərin kökləri tezliklə doğma torpaqlarda rişələnəcək.*

*Bu güllər həsrətli doğma yurdlarda daha gözəl görünəcək.*

**Onların əhatəsində böyük-böyük çinarlar da səmaya tərəf boy atacaq.**
**Nə xoş mənzərələr...**
**İsti və işıqlı tablolar...**

***

*Məcburi köçkünlük dövründə doğma ocaq həsrəti ilə dünyadan köçən, qərib qəbiristanlıqlarda torpağa əmanət etdiyimiz ixtiyarlarımızı xatırlayıram. Yaş ötdükcə, hər gün bir az da azalırdılar, hər gün bir az da ahıllaşırdılar, hər gün bir addım da bu dünyadan uzaqlaşırdılar, di gəl, doğma yerlər haqqındakı xatirələri sönməyən ümidləri kimi o qədər diri və canlı idi ki...*

Titrək səsləri, susuz torpaq misalı cadar-cadar əlləri ilə anılarındakı yerin-yurdun daşına, ağacına sığal çəkirdilər elə bil.

**Heyif, bu günü görə bilmədilər, amma onların da bu köçü hiss etdiklərini, ruhən şad olduqlarını duyuram və sevincimdən həm də bərk duyğulanıram, kövrəlirəm...**

Ağıl elli Zəngəzura doğru başlanan böyük köçlə təkcə insanlar qayıtmır doğma yurdlara, torpağın tarixi yaddaşı da özünə qayıdır.

*Zatən bu qədər zamanda bizi ayaqda saxlayıb, müstəqil dövlətimizlə birgə günbəgün gücləndirən, itkilərimizi, gələcək nəsillər qarşısındakı məsuliyyətimizi unutmağa qoymayan və 44 günlük haqq savaşımızdakı böyük Zəfərimizə gətirən də elə milli yaddaşımızın gücü deyildimi?!*

Bu sətirləri yaza-yaza bir də onu düşünürəm ki, insan, nəsillər tarixin ucsuz-bucaqsız ənginliklərində nə qədər kiçik bir zərrəymiş, İlahi...

Yurd həsrəti ilə yaşadığımız on illər bizə uzun görünür, tarix üçünsə bu, bir su içimi qədər qısa məsafədir, böyük bir xalqa zamanın yaşatdığı sınaq anıdır.

**Tarix bizi imtahana çəkdi...**
**Dözdük və bərkidik...**

*Azərbaycan xalqı - mənim sevimli və mübariz xalqım bu sınaqdan da üzüağ çıxdı, şükürlər olsun!*



**Əskilmədik, artdıq, heydən düşmədik, gücləndik.**
**Unutmadıq, unudulmadıq...**
**Və qayıtdıq!..**

***

*Köç xalqlar üçün bir taledir həm də, çox zaman ən möhtəşəm inkişaf dəyişiklikləri bu cür köçlərlə yaşanır, insanların tükənməz ümidindən, inamından, enerjisindən böyük bir həyat qurulur.*

**Yeni nəsillər doğulur...**
**Yeni evlər tikilir...**
**Bax beləcə yurdlar da böyüyür, genişlənir.**
**Hələ çox doğulacaq...**
**Hələ çox tikiləcək...**
**Hələ çox böyüyəcək...**

*Bu gün Azərbaycan dövlətinin ən müasir texnologiyalar əsasında, "ağıllı kənd" düşüncəsində qurduğu Ağalı kəndi də bunun bir ilkin nişanəsidir.*

*Qarabağın, Zəngəzurun, külli-Azərbaycan obalarının yeni cəlalı bu kənddən, bu köçdən başlanır.*

**Köçhaköç, kəndbəkənd...**
**Köç gedir...**
**Gedir, qoca tarixin, ana torpağın dərinliklərinəcən,**
**ulu yurdların ta o başınacan gedəcək bu müqəddəs köç...**
**Şadlığımdan söz tapa bilmirəm...**
**Sözüm getmir... Ancaq köçüm gedir...**
**Əbədi və qətiyyətli! Öz karvanıyla, öz sarvanıyla...**
**Yurdlar qurulur, tonqallar qalanır, çıraqlar alışır.**
**Ocaq yerlərimizdən insan həniri gəlir...**
**Eşit, qulaq ver: ayaq səsləri - zamanın ürək döyüntüləri kimi**
**Bir qarabağlı, zəngəzurlu körpə doğulur bu yurdda...**
**Dünyaya gəlişin mübarək, mənim balam!..**
**Köçün mübarək, mənim elim!**
**Eheyy!**
**Eşidirsənmi, ay eloğlu?**
**İndi yolumuz haradır?!**
**Bütöv Zəngəzuramı?!**
**O dağlara, dərələrə, ormanlara de ki, mən də sevənlərdən, sevinənlərdən, köçənlərdən biri...**

# Stress, Stress kardiomiopatisi və ya Qırıq qəlb (ürək) sindromu

## (Yeni, yoxsa sirləri yeni açılan qədim xəstəlikdir?)



Rafiq Yusifli,
kardioloq
(yusrafkard@mail.ru)

**Yəqin ki, gündəlik həyatda onu tanıyanların sağlam hesab etdiyi bir şəxsin qəflətən baş verən ağır hadisə, əziz adamının vəfatı, itkin düşməsi, təbii fəlakət və ya digər səbəbdən qısa zamanda külli miqdarda maddi ziyana düşməsi, ailə həyatının dağılması, özü və ya yaxınlarında ağır xəstəliklərin aşkar olunması fanatı olduğu futbol komandasının uduzması və ya belə bədbəxt hadisələrlə müqayisədə çox az təsadüf edilsə də, həddən artıq sevincli hadisədən sonra heç ətrafdakılara bir söz deyə bilmədən, ani, qəflətən ölməsi, miokard infarktı keçirməsi, qan təzyiqinin həddən çox yüksəlməsi, beyinə qan sızması, qanda şəkərin ilk dəfə olaraq çox yüksəlməsinin aşkarlanması kimi halların şahidi olmusunuz, eşitmisiniz və mətbuatda oxumusunuz.**

Xalqımızın həyatında, tarixində əbədi yaşayacaq, qızıl hərflərlə yazılacaq 44 günlük şərəfli müharibədə döyüşçülərin yaralanması, şəhid olmasından yaxınlarının miokard infarktı, insult keçirməsi və ürək tutmasından qəfləti ölməsi heç də uzaq keçmişin hadisəsi deyildir. Hər gün ordumuzun hünərinin, ərazilərimizin düşməndən təmizlənməsinin xəbərini eşitdikcə sevindiyimiz qədər və ondan daha da çox yaralı və bəzən yeganə övladı şəhid olanların hansı sarsıntılar keçirdiyinin şahidi olurduq. Bu yaxınlarda yeganə subay leytnant oğlu qələbə xəbərinə bir neçə saat qalmış şəhid olmuş ananı müayinə etdikdən sonra, deyəndə ki, ürəyin sağlamdı, narahat olma, o ana mənə heç vaxt unuda bilməyəcəyim-bu dərddən sonra ürəyimin sağlam qalmasından utanıram-sözlərini dedi. Xeyli vaxt ötsə də, o ailələrdə bir daha qara rəngdən başqa paltar geyməyəcək ana, bacıların, gəlinlərin bu dərdlə yaşaması davam edəckdir.

Müharibənin gedişi dövründə, bütün günü qucağında "Qurani Kərim" Allaha yalvaran, övladını gözləyən, "təki balam gəlsin, mənə nə olur olsun" deyən, bu vaxta qədər heç bir xəstəliyi olmayan 47 yaşlı ananın cəbhədən evlərinə qayıdan oğlunun boynunu qucaqladığı anda, hamının gözü qarşısında vəfat etdiyi haqqında mətbuat məlumatlarından yəqin çoxunuz xəbərdarsınız.

Əksəriniz bu aqilə faciəsinin heç kimin ağlına gəlmədiyi, gözləmədiyi halda baş verməsi səbəbinin haqlı olaraq sevincin ən yüsək mərhələsində orqanizmdə baş verən ciddi bir vəziyyətlə, çoxunuza adı tanış olan streslə (stress ingiliscə -təzyiq, yüksək gərgin vəziyyət deməkdir) əlaqəli olduğunu düşünürsünüz və haqlısınız, çünki, olanları başqa bir səbəblə izah etmək çətindir.

Davamlı olaraq müxtəlif səbəbli gərginliklərin, sıxıntıların, məhdudiyyətlərin, bir sözlə stresin insan sağlamlığına təsiri barədə sosialist baxışına görə ağır şəraitdə həbsxanalarda yatan, sonda Moskvada yaşamağı bir xilas yolu hesab edən, orada yaşayan, vəfat edən və orada dəfn olunan böyük türk şairi Nazim Hikmətin, mənim və o şeirlə tanış etdiyim həmkarlarımın çox sevdiyi bir "Angina pektoris" (stenokardiya xəstəliyinin latınca adıdır) şeiri var. O dövrlər Çində vuruşan, həlak olan türk əskərlərinin, Yunanıstanda güllələnən inqilabçıların və haqsız yerə həbsxanalarda çürüyən "mahk?mların" dərdindən, əsl mənada ürək ağrısından, "Angina pektoris"-dən əziyyət çəkən şair, öz şeirində xəstəliyinin səbəbini belə təsvir edir (şairin öz səsi ilə dediyi bu şeirə qulaq asmanızı məsləhət görürəm.

(https://www.youtube.com/watch?v=CGu-2Q1gJ9I)

***"Ne arteryo skleroz,***
***ne nikotin, ne hapis,***
***işte bu yüzden, doktorcuğum,***
***bu yüzden***
***bende bu angina pektoris"…***

Yeri gəlmişkən bu yerdə Nazim Hikmətin edam təhlükəsi ilə 15 illik həbsxana dövründə, onun üçün min cür əziyyətlərə dözən xanımı Hatice Pirayəyə yazdığı şeirdən də bir neçə misranı yazmaya bilmirəm. Çünki burada şair psixoloji ağrıya, acıya hamının eyni dərəcədə tab gətirmədiyi, bu gərginliyin, dərdin gec, ya tez unudulduğu, ən əziz insanlarını itirənlərin belə, "Torpağın üzü soyuqdur" deyimindəki kimi, dərdin bir az səngidiyi, insanın stresdən azad olduğu vurğulanır.

***"Seni asarlarsa seni kaybedersem***
***diyorsun,***
***"yaşıyamam! "***
***Yaşarsın karıcığım,***
***kara bir duman gibi***
***dağılır hatıram rüzgarda,***
***yaşarsın kalbimin***
***kızıl saçlı bacısı,***
***en fazla bir yıl sürer***
***yirminci asırlılarda***
***ölüm acısı.***

Stresdən hətta ən sağlam hesab edilən insanların səhhətində ciddi problemlər baş versə də, onlarla müqayisədə miokard infarktı keçirmiş, stenokardiya və arterial hipertoniyası olanlarda stress nəticəsində ağırlaşmalar, o cümlədən ölüm hadisəsi dəfələrlə çox baş verir. Miokard infarktı keçirmiş məşhur bir həkimin, "İndi həyatım, məni əsəbləşdirən bir əclafın əlindədir" sözləri bu deyilənləri təsdiq edir.

Gündəlik həyatımızda çox işlədilən, əksəriyyətin təhlükəli bir hal hesab etdiyi stresin mahiyyəti barədə ilk geniş məlumatlar kanadalı alim Hans Selye (1936) tərəfindən verilmişdir. Alimə görə stress orqanizmdə xarici mühitin hər hansı təsirinə qarşı yaranan qeyri-spesifik cavabdır, yəni təsirlər fərqli, yaxşı ya pis, maddi ya mənəvi, fiziki ya kimyəvi olsa da, onların təsirindən qanda, üzv və toxumalarda baş verənlər mahiyyətcə eynidir. Sadəcə azlığında, çoxluğunda, uyğunlaşmaya olan ehtiyacın intensivliyində fərq vardır.

Stress təsirlərə qarşı orqanizmin səfərbərliyinə, uyğunlaşmasına, nizamlanmasına və problemin həllinə xidmət edir. Ona görə də, orqanizmdə yaranan stress halını, gərginliyi ancaq zərərli, patoloji hal hesab etmək, fikirsiz, qayğısız, problemsiz yaşamağın mümkünlüyünü təsəvvür etmək çətindir.

Hans Selye özü bu barədə: "Hətta tam sakit yatmış adam belə, yuxuda da stress keçirir. Stresdən azad olmaq, ölmək deməkdir" yazmışdır.

Türk dünyasının filosof şairi B.Vahabzadənin bu sözləri yuxarıda deyilənləri təsdiq edir:

***"Təbiət, qoy məni gülsüz, çiçəksiz,***
***Fikirsiz, xəyalsız qoyma amandır.***
***Fikirdən insanlar tez qocalır tez,***
***Fikirsiz qocalmaq daha yamandır".***

Dahi dünya yazıçısı L.N.Tolstoyun da buna bənzər bir sözü yadıma düşür: "Bir şeyi xoşbəxtlik, digərini bədbəxtlik adlandırırıq, əgər bunlara sınaq kimi baxsaq, hər ikisi bizim üçün xeyirlidir".

İnsanlar həyatda baş vrerən, ona təsir edən amillərə qarşı heç özü hiss etmədən də dəyişilməyə, uyğunlaşmağa məhkumdur. Adi bir misal, ətrafın hava dəyişmələrinə, maqnit burulğanlarına qarşı orqanizmin daxilində, neyrohumoral adlandırılan sistemdə uyğunlaşma prosesləri yaranır. Bioloji fəal maddələr artır ya azalır, mübadilə prosesləri güclənir ya yavaşıyır, damarlar sıxılır ya genişlənir, qan təzyiqi dəyişir və nəticədə daxili sabitlik (özününizamlama, homeostaz) yaranır. Əbəs deyil ki, hava haqqında gündəlik verilən məlumatlarda atmosferdə gözlənilən dəyişmələr barədə hamıya və xüsusən, xəstələrə xəbərdarlıq edilir ki, səhhətlərində baş verə biləcək hadisələrə davamlı olmaq üçün həkim məsləhətlərinə əməl etsinlər.

Hans Selye nəzəriyyəsinə görə qorunma, mübarizə, uyğunlaşma orqanizmdə əmələ gələn və həyat üçün vacib olan adrenalin hormonu ilə (buna "stress hormonu" da deyilir) həyata keçirilir. Xarici təsirlərlə mübarizə, ona qarşı cavab anında adrenalinin qanda miqdarı normadan, fizioloji tələbatdan dəfələrlə çox yüksəlir. Təsəvvür edin, hər hansı canlı ona yaxınlaşan təhlükədən qorunmaq üçün ya qaçmalı, ya da döyüşə girməlidir ("ya qaç, ya vur"), bu halda adrenalin orqanizmin bütün ehtiyatını müqavimət göstərməyə sərf edir. İnsan adi halda edə biləcəyindən daha yüksək sürətlə qaça, ağır yükün öhdəsindən gələ bilir. Hətta həmin insan ona bu gücün haradan gəldiyini anlaya bilmir, çox vaxt- "Allah elə bil mənə yeni güc verdi" deyir. Hamımız belə halları görmüşük, bunu sübut edən çoxlu misallardan birini qeyd etməyi lazım bilirəm.

Ana həyətdə oynayan övladının qışqırtısına həyətə qaçır və uşağının oynadığı meydançada ayağının üstünə böyük bir tirin düşdüyünü görür, cəld tiri qaldırır və uşağı oradan qurtarır.

Əhvalatı eşidib, hadisə yerinə gələnlər, bu tiri qolu zorlu kişilərin qaldıra bilməyəcəyini gördükdə donub qalırlar. Bax, bunun səbəbi yüksək psixoemosional gərginliyə qarşı orqanizmin bütün qoruyucu mexanizmlərini, müdafiyə sistemini, əzələ gücünü qısa müddətdə səfərbər edən qanda miqdarı dəfələrlə yüksələn adrenalindir.

Streslər iki cür olur: -xroniki və kəskin streslər.

Bəzi hallarda xroniki streslər orqanizmin üzv və sistemlərini məşq etdirir, orqanizm bu hallardan çox da ziyan görmür, hətta müsbət təsirli emosiyalardan, eustreslərdən (yunanca " faydalı stress") orqanizm faydalanır, el arasında deyildiyi kimi "öyrəncəli" olur, getdikcə orqanizmin mübarizə qüvvəti artır, atalar sözündə deyildiyi kimi "Çəkişməsən bərkişməzsən". Məsələn, bədənin istinin, soyuğun təsirinə öyrədilməsi onun müqavimətini, immun sisteminin davamlılığını artırır, belə insanların çayın, dənizin buzlu suyunda çimdiyini yəqin çoxlarınız görmüşdür. Bu hal təkcə fiziki faktorların təsirinə aid deyilməyib, psixoemosional gərginliklərə də aiddir. Məşhur bir filosof, hər gün gənc arvadının dedi-qodusuna, əsəb gərginliyinə o qədər adət etmişdi ki, sonralar təmkinliyi ilə seçilirdi. Ondan "bu təmkinlik sizdə haradandır" sualına, "Mən buna görə arvadıma borcluyam" deyirmiş.

Bəzi insanlarda müsbət təsirli streslərə ehtiyac, adrenalindən asılılıq, "adrenalin aclığı" yaranır, onlar özlərində bu halı aradan qaldırmaq üçün hər cür çətinliyə, riskə dözürlər.

Sürətlə axan dağ çayında qayalrın arası ilə rezin qayıqda şütüyənlrin, paraşütlə tullalananların, sıldırım qayalardan xizəklə, velosipedlə ildrım sürəri ilə enən, yüksək qayadan suya atılananların, küçədə binaların birinin üstündən digərinin üstünə atilan cavanları və digər həyat üçün təhlükəli ekstremal idman növləri ilə (o cümlədən ölkəmizdə neçə illərdir keçirilən Formula 1 yarışları) məşğul olanların üzündəki gərginlik və sonrakı qələbə sevincini yəqin ki, görmüşsünüz. Müəyyən edilmişdir ki, bu hallarda orqanizmdə adrenalindən əlavə norepinefrin adlanan maddə də əmələ gəlir ki, bu da eyforiya, sevinc və bunlardan doğan xoşbəxtlik hissi yaradır.

Lakin, müsbət təsirli streslərdən fərqli olaraq, mənfi təsirli streslər, ailədə söz-söhbət, daimi qulluq tələb edən ağır xəstələrin olması, işini, qazanc yerini itirmə təhlükəsi, cəmiyyətdə haqqın nahaqqa verilməsi, ailə, məişət qayğılarının uzun müddətli davam etməsi insan orqanizmi üçün ziyanlı stress halı, distress (yunanca "itirilmə") şəraiti yaradır. Həkimlərin müşahidəsinə görə evində qoca, iflic keçirmiş, qüsurlu doğulmuş uşaqlara, ruhi xəstələrə qulluq edənlərin 80%-dən çoxunda xroniki stress, distress halı yaranır.

Distress halında insan bu halı yaradan amillərə uyğunlaşa bilmir, qeyri-adekvat cavab verir, passivlik, aqressivlik, həyatdan küskünlük, özüənəqəsdə, depressiyaya, tərkidünyalığa alkoqolizmə, narkomaniyaya meyllik hallarına çox təsadüf edilir. Distress zamanı orqanizmin bioritmləri, yuxu, istirahət rejiminin pozulması və bütün hormonal sistem funksiyalarında ciddi dəyişikliklər baş verir.

Belə davamlı vəziyyət çox təhlükəlidir, şəkərli diabet, arterial hipertoniya, ürəyin kəskin və xroniki işemik xəstəliklərinin əsasında dayanan aterosklerozun inkişafına və digər daxili üzvlərin çoxsaylı zədələnməsinə səbəb olur.

Stress əmələ gətirən amil "stressor" adlanır və aşağıdakı növləri vardır:

- Fizioloji (aşağı, yüksək temperatur təsiri, həddən artıq fiziki gərginlik, travmalar, aclıq, susuzluq, xəstəlik və s.);
- Psixoloji-əsəb (təhlükə, qorxu, qərar qəbul edilməsi, uyğunlaşması çox çətin olan hadisələr və s.);
- İnformasiya ( məlumatlarla yüklənmə, təcili həll edilməli, cavab verilməli hallar və s.);
- Emosional (ailədə, işdə konfilikt halları, maddi çətinliklər, uzun müddət davam edən digər zədələyici gərginliklər və s.).

Bu stressorlar həm ayrılıqda, həm də, birlikdə ola bilir. Son 30 ildə Qarabağ hadisəsi ilə əlaqədar bunların hər şəxsdə, ailədə eyni zamanda olduğunu (ölüm qorxusu, yaxın adamların ölümü, itkin düşməsi, evsiz-eşiksiz qalmaq, ağır maddi çətinliklər, müflis olmaq, biganəlik, çarəsizlik, informasiya boşluğu və s.) anlamaq məncə çətin deyil. Respublikada tanınmış psixiatr, rəhmətlik professor Ağabəy Sultanovun belə bir sözü vardı: "Qarabağ problemi bütöv bir millətin stresidir".

Stresin orqanizmdə törətdiyi hallar əksər halda mərhələlərlə baş verir: 1) Həyəcan, 2) Rezistentlik, müqavimət, 3) Üzülmə, dözümsüzlük. Lakin bu mərhələlərin davam müddəti, sürəti fərqli olmaqla bərabər, başa çatmadan dayanması da ola bilər. Məsələn, həyəcan törədən amil tez yox olarsa, sonrakı mərhələlər olmaya bilir və ya müqavimət mümkün olsa, üzülmə mərhələsi olmaya bilir. Çox güclü, davamlı stressor keçid mərhələr arası müddəti qısalda, şok effekti yarada bilir.

Həyatda yaxşı ya pis, xoşa gələn ya gəlməyən hadisələr həmişə var, stress də həmişə olacaq, bu qaçılmazdır. Bu gərginliklərin, stresin altından çıxmaq, ona tab gətirmək üçün müdriklik, təcrübə, iradə, elm, bilik, inam, səbr, təmkin, soyuqqanlılıq, ətrafdakıların qayğısı, köməyi və bir sözlə çox şey lazımdır.

El arasında təsadüfü deyilməmişdir: "İgid odur atdan düşə atlana, igid odur hər əzaba qatlana" və yaxud "Beş dəfə yıxılan, altı dəfə durmağı bacarmalıdır".

İnsanların distress halından çıxması üçün ətrafdakıların, cəmiyyətin, dövlətin üzərinə böyük iş düşür. Yuxarıda "Qarabağ problemi bütöv bir millətin stresidir" fikri ilə yanaşdıqda, hökümətimizin, xalqımızın, ordumuzun "Dəmir yumruqda" birləşib qalib gəlməsi nəticəsində, millətin stress halının aradan qalxması, insanların depressiya, ümidsizlik, başıaşağılıqdan necə xilas olması göz önündədir.

İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının məişət qayğılarının təmin olunması, aztəminatlı insanlara yardımlar edilməsi bütünlükdə millətin psixoloji durumunun stabilliyinin qorunması üçün çox vacibdir. Ölkəmizdə bu qayğıkeşlik işinin yüksək təşkil edilməsi diqqət mərkəzində saxlanılır və getdicə genişləndirilir.

Stress təsirindən orqanizmdə baş verənlərin xəstəliklərin, ölümlərin hamısının səbəbi, təsiredici vasitəsi bu nəzəriyənin banisi Hans Selyenin yuxarıda qeyd etdyimiz fikrinə görə orqanizmdə əmələ gələn və həyat üçün vacib olan adrenalin hormonudur.

**Stress nəticəsində qanda adrenalin və ondan başqa bəzi hormonlar, o sümlədən kortizolun, şəkərin səviyyəsi də yüksəlir. Bunlar ürək vurğularının sayı, ürəyin və skelet əzələlərinin yığılma gücünü, tənəffüsün intensivliyini artırır. Adrenalinin orqanizmə təsir nümunəsini diş həkiminin müalicəsini alanlar daha yaxşı anlaya bilərlər.**

**(ardı var)**



Əbülfət MƏDƏTOĞLU

# "Həsrətimin yaşı dünya qədərdir"

## Bir kitab haqqında ilk təəssüratım

**Bu günlərdə gözəl bir hədiyyə aldım. Daha doğrusu qəbul etdim və doğrusunu deyim ki, hər dəfə mənə yeni kitab bağışlananda öncə onun adına diqqət yetirirəm. Çünki kitabın adı mənim üçün xüsusi əhəmiyyət kəsb edir və bu ad məni özünü çəkəndə fürsət axtarıram ki, kitabı oxuyum, onun iç dünyasına baş vurum. Bax elə indi barəsində düşüncələrimi sizinlə bölüşmək istədiyim kitabın adı dərhal diqqətimi çəkdi. Həm maraqlı olduğu üçün, həm də...**

Etiraf etməliyəm, (pafoslu alınsa da -Ə,M,) deməliyəm ki, mən Məcnundan sonra ən böyük Məcnun özümü sayırdım. Hətta bu mövzuda olan şeirlərimi oxuyan ruh dostlarım hərdən mənə irad




da bildirirdilər. Mən də təbəssümlə bu iradı qəbul edirdim. Elə ki, həsrətin yaşının dünya qədər olduğunu öyrəndim, onda anladım ki, sən demə məndən də böyük Məcnunla var imiş. Yəni Məcnundan böyük Məcnun elə bu kitabın müəllifi imiş. Çünki o birbaşa hamıya bəyan edir ki:

*Nə qədər bu eşqdən əl çək desən də,*
*Əhdimdən, sözümdən dönən deyiləm.*
*Sinəmdə dərd əkib, qəm bəsləsəm də,*
*Ağlayıb, inləyib, dinən deyiləm.*

*Hicranı, qubarı bil danacağam*
*Ötən günlərimi hey anacağam.*
*Həsrətin odunda odlanacağam*
*Ömrün sonuna tək sönən deyiləm.*

*Sanma yaşlaşmışam, tək qalmışam mən*
*Şirin xəyallardan kam almışam mən.*
*Sənin dərd-sərinlə ucalmışam mən*
*Eşqin göylərindən enən deyiləm.*

*Sən dərddən od saçan üzünə bax bir*
*Dilində titrəyən sözünə bax bir.*
*Halıma acıma, özünə bax bir*
*Eşqdən yetim qalan tək mən deyiləm.*

*Heç kim mənim kimi dözməz bu aha*
*Bir eşqi məhv edib batdın günaha.*
*Düzünü deyirəm, sənin üçün daha -*
*Bir ruham, sevilən bədən deyiləm...*

Zənnimcə, ruhun da sevgi ünvanı olması orijinaldır, təzə-tərdir və həm də sevənə, sevilənə mesajdı. Çünki sevgi ürəyin və ruhun birgə ifadəsidi. Bədən yalnız intim məqamların iştirakçısıdı. Deməli, şairin bu etirafı özü-özlüyündə hər kəsin yaddaşını silkələyir, hər kəsin xatirəsinə bir daş atır. Bu da sözün və sözdən istifadənin məharəti və gücüdür.

Həmin məharət və gücü də oxucuya kitabın müəllifi o qədər həlim və səmimi şəkildə çatdırır ki, xəyallara dalmaqla da özünü xilas edə bilmirsən. Çünki həmin o xəyalların içərisində qulağına doğma bir səs gəlir.

*Talehimə yazılanı pozan yox,*
*Dərd-sərimi dinləyən yox, yazan yox.*
*Tahir kimi qəlbi dağlı ozan yox -*
*Həsrətimin yaşı dünya qədərdi!*

Bax bu yerdə yenə düşünməli olursan. Düşünürsən ki, həsrətinin yaşı dünya qədər olan aşiqin və yaxud da Məcnunun dözümü görəsən nə qədərdi, hara qədərdi?.. Onda da özün-özünə cavab verirsən. Dözüm də elə həsrətin boyuna biçilib, bir-birini tamamlayır və bu tamlıq günündən, saatından asılı olmadan birlikdədi. Bir-birindən uzaq dayana bilmir. Çünki şair yazır ki:

***Getdin, aləm susdu, elə sandım ki,***
***Ulduzlar göylərdən axdı bu gecə.***
***Elə alovlandım, elə yandım ki,***
***Gözümdə ildırım çaxdı bu gecə.***

***Arzu ilə, inamla döndüm o yerə,***
***Getdiyin yollara baxdım min kərə.***
***Ümidlə üzümü tutdum göylərə,***
***Həsrətin əlimi sıxdı bu gecə.***

***Ay da sənsiz daha üzümə baxmır,***
***Yollar yolda qalan gözümə baxmır.***
***Ürəyim titrəyir, sözümə baxmır,***
***Dərdim ulduzlardan çoxdu bu gecə.***

***Gəlsəm bütün cahan əlvan geyəcək,***
***Kainat sevinib nəğmə deyəcək.***
***Həsrə vüsalıma boyun əyəcək,***
***Güləcək Tahirin bəxti bu gecə!***

Doğurdan da, bu poetik tablonun əvvəlindən sonuna qədər rəssam fırçasının işığında duyğusal bir oxucu yol gedəndə özü də bilmədən həmin gecəyə köklənir, həmin gecənin vüsalını duymağa, hiss etməyə başlayır. O gecənin adı bəllidi. Mənə görə o adı lap ucadan da demək olar: - XOŞBƏXTLİK!

Bəli, elə həmin o gecənin ovqatında bu şeirin həm müəllifə, həm oxucuya nələr söylədiyini də, nələr yaşatdığını da xoşbəxtliyin pəncərəsindən baxıb görmək lazımdı.

Onda, mən bir söz adamı olaraq, birmənalı şəkildə inanacam ki, sevənin, sevilənin baxışı da ayrıca bir dünyadı. Və bu dünyanın tərənnümü də sevgi dolu ürək istəyir. O istəyi də Tahir Rza sevdiyinə də, sevənlərinə də səmimiyyətlə pıçıldayır. Mən də o pıçıltını sizə çatdırıram:

***Hissimi, duyğumu aldın əlimdən***
***Saldın ürəyimə xal baxışınla.***
***Çarmıxa çəkildim sanki dilimdən***
***Məni lal eylədin, lal baxışınla.***

***Həzərlər kəhkəşan, bir yanan ocaq***
***Orda məndən başqa kimsə yox ancaq.***
***Nə olar halıma, əhvalıma bax***
***Könlümü bir ovut, al baxışınla.***

***Gözlərin eşqimin məbədi, gülüm***
***Ömrümü bəxtəvər elədi, gülüm.***
***Bir günlük demirəm, əbədi, gülüm,***
***Tahirlə birlikdə qal, baxışınla.***

Mən də bax, elə Tahir Rzanın dediyi kimi, bu şeirlə, onun yaratdığı ovqatla və oyatdığı xatirələrimlə öz Məcnunluğumda qalıram. Qalıram ki, bu kitabdakı dünyadan, yəni həsrəti dünyanın özü boyda olan sevgidən bir damcı da mən götürüm. O sevgini başdan yaşamaq üçün!..

***P.S. Tahir Rzanın "Həsrətimin yaşı dünya qədərdir" kitabı ilə ilk söhbətim məni sevdalı günlərə, sevdalı anlara qanadlandırdı. İnşallah, bu kitabla hələ çox söhbətləşəcəm.***

# "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ictimaiyyətə müraciət edib

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ictimaiyyətə müraciət edib.**

İdarədən daxil olan müraciətdə bildirilir ki, İçərişəhər və Qala Qoruğu kimi tanınan məkan Bakının və bütövlükdə ölkəmizin ən dəyərli incisi, eyni zamanda tarixi memarlıq abidələrinin mühafizə olunduğu qoruqdur. "İçərişəhər və Qala Qoruğu müxtəlif mədəniyyətlərin, dini inancların, təzadların ahəngdarlıqla qovuşaraq mükəmməl harmoniya yaratdığı əfsanəvi məkan olmaqla yanaşı qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycan xalqının milli sərvətidir.

Ölkəmizin orta əsrlərdə yüksək inkişaf etmiş şəhərsalma sənətinin misilsiz yadigarı olan bu unikal məkanlardakı dünya, ölkə və yerli əhəmiyyətli memarlıq və tarixi abidələr Azərbaycan memarlığının parlaq nümunələridir və Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə bu abidələri qorumaq hər bir şəxsin borcudur. Əsirlər sınağından keçmiş mədəni irsimizin bu günə qədər qorunub saxlanılması dövlətin siyasəti, cəmiyyətin mədəni irsimizə münasibəti və hər bir fərdin məsuliyyəti sayəsində baş vermişdir.

Lakin təəssüflə qeyd etməliyik ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən aparılan monitorinq zamanı bəzən xoşagəlməz hallar müəyyən edilir. Qeyd olunan tarixi abidələrin bədii-estetik görünüşünü pozan vandalizm aktları ilə bağlı daima hüquq mühafizə orqanları ilə əməkdaşlıq edilir. Hüquq mühafizə orqanları ilə bu sahədə edilən əməkdaşlıq hər zaman öz töhvəsini verir. Məlumat üçün bildiririk ki, tarixi abidələrə qarşı yol verilən hüquqazidd əməllər məsuliyyət yaradır və Azərbaycan Respublikası İnzibati Xətalar məcəlləsinə, eyni zamanda Cinayət məcəlləsinə əsasən məsuliyyətə cəlb olunmağa əsasdır. Lakin zərər vuraraq cəza almaqdan fərqli olaraq mədəni irsimizə hörmətlə yanaşıb onu qorumaq hər bir vətəndaşın məsuliyyəti və borcudur.

Hörmətli həmvətənlər, tarixi-mədəni abidələrin qorunması hər bir kəsdən aslıdır! Mədəni irsi gələcək nəsil üçün qorumaq hər birimizin mənəvi borcu və məsuliyyətidir. Tariximizi birlikdə qoruyaq!",-müraciətdə bildirilir.

# Şeirimizin Şuşa günü

## Səfər qeydləri

**Artıq hər kəsə məlum olduğu kimi bu ayın 13-15 arası Şuşada möhtəşəm söz bayramı keçirildi. Bu il işğaldan azad edilmiş Qarabağın və bütövlükdə Azərbaycanın ürəyinin döyündüyü Şuşa şəhəri ikinci dəfə söz bayramı, şeir bayramı gerçəkləşdirdi özündə. Ən yüksək səviyyədə keçirilən bu bayramın özəllikləri və gözəllikləri danılmazdır. Öncə özəlliklərindən danışım...**

Hələ ötən əsrin 80-ci illərində, daha dəqiq desəm, 1982-ci ildə Şuşada Molla Pənah Vaqifin abidəsi ucaldı, məqbərəsi tikildi. Və elə həmin ildə Şuşada Vaqif poeziya günlərinin ilk açılışı oldu. Bununla da ədəbiyyatımızda, ictimai-siyasi həyatımızda bir ənənənin başlanğıcına start verildi. Həmin ildən 1989-cu ilə qədər davam etdirilən Vaqif poeziya günlərindən iştirakçı olmaq, söz bayramını dinləyici, izləyici kimi seyr etmək, o illəri yaşamış insanlar üçün önəmli və əziz xatirədir. Heç də təsadüfi deyil ki, həmin illərdə Şuşaya gələn hər kəs birmənalı şəkildə bu müqəddəs ünvanı ziyarət edir, Vaqifin şeir dünyasına baş vururdu. Bununla da şeirimizin, Vaqifimizin ruhu da, ovqatı da, şeiri də təzələnirdi. Adamlar, xüsusilə ədəbiyyatsevərlər bir addım da Vaqifə yaxınlaşırdı...



Həmin illərdə Azərbaycan ədəbiyyatının ən ünlü simaları, eləcə də keçmiş sovetlər birliyinin tanınmış söz adamları Şuşada keçirilən poeziya günlərinə qatılır, onun çərvəsini, əhəmiyyətini bir az da genişləndirir, onu bir az da əzəmətli edirdilər. Təəssüf ki, Azərbaycanın zorla müharibəyə cəlb edilməsi bir çox tədbirlərimizi, mədəni həyatımızı dondurdu, torpaqlarımızın işğalı Qarabağda həyatı söndürdü. Nəticədə Xarı bülbül festivalı da, Vaqif poeziya günləri də digər möhtəşəm və kütləvi bayramlarımız kimi əsirlik yaşamağa məhkum oldu. Amma unudulmadı, xatirələrdə, yaddaşlarda, bir də ki, lentlərdə, video yazılarda qaldı!..

44 günlük Zəfər müharibəmiz həm torpaqlarımızın azadlığını, həm də dondurulmuş, əsir götürülmüş mənəvi sərvətlərimizin yenidən həyata qayıtmasına bir START verildi. Məhz Azərbaycan əsgərinin şücaəti xatirəyə çevrilən yuxularımıza gələn keçmiş özəllikləri oyatdı, diriltdi, ayağa qaldırdı. Elə Şuşada da öncə Xarı bülbül festivalı, onun ardınca da 30 ildən sonra Vaqif poeziya günləri bir növ qapısını hər birimizin üzünə açdı. Mənə bu bayramın hər ikisində iştirak etmək nəsib oldu. İlk dəfə Şuşaya, məhz ötən il Vaqif poeziya günlərində getdim. Bu işğal edilmiş torpaqlarımızın azadlığının mənə yaşatdığı ən həyəcanlı anlar idi. Ona görə də yazdığım silsilə yazımı "Ay camaat, Şuşaya gedirəm!" adlandıraraq sevincim hər kəslə bölüşmüşdüm. Elə bu dəfə də Şuşaya getdim. Yenə Vaqifin ziyarətində oldum, yenə Cıdır düzünü gəzdim, yenə Şuşanı dolaşdım və bu dəfə Şuşanı bir az da dirçələn, bir az da qamətini düzəldən gördüm. Artıq Şuşada həyat əlamətləri daha çox hiss olunurdu. Xüsusilə dağıdılmış evlərin divarlarına, giriş qapılarına yazılmış "minadan təmizlənib" sözlərini görüb oxumaq məndə qəribə hisslər, duyğular yaratdı. Deməli Şuşada düşmənin ölüm xofu yoxdu,



aradan qaldırılıbdı. Bu həm Şuşa üçün, həm də buraya dönməyə başlayan, işləməyə gələn, ziyarət edən hər kəs üçün çox böyük anlam kəsb edir. Bunu da Azərbaycan əsgəri yerinə yetirib. Eşq olsun əsgərimizə!

Vaqif poeziya günlərində mənim üçün ən önəmlisi qazi şairlərimizə verilən meydan idi. Onların qəhrəmanlıqları, oxuduqları şeirdə də ən



həssas duyğu kimi gəlib keçirdi. Bu mənada Emin Pirinin və onun digər qazi dostlarının döyüşçü paltarında, məqbərə önündə qətiyyətli və məğrur bir görkəmdə səsləndirdikləri şeirlər qələbəmizin əbədiliyinə daha bir inanc idi. Tədbirə ağsaqqallıq edən tanınmış yazıçı və şairlərimiz, o cümlədən AYB-nin sədri, xalq yazıçısı Anarın, həmçinin Mədəniyyət naziri Anar Kərimovun və digərlərinin burada olması təkcə əhval-ruhiyyəni deyil, ovqatı deyil, həm də sözə verilən dəyəri mənim gözümdə bir az da ucaltdı. Təbii ki, bu günlərin ən möhtəşəm məqamı Cıdır düzündə keçirilən səhnələşdirilmiş bayram - Söz-musiqi təqdimatı idi.

İnanın ki, mən həmin o təqdimatın aurasından hələ də çıxa bilməmişəm. Azərbaycanın mədəniyyət xadimləri, poeziyamızın nəhənglərinin - Nəsiminin, Nizaminin, Füzulinin, Zakirin, Nəvvabın, Natəvanın, Məhsətinin, Xətainin, Vidadinin, Vaqifin şeirləri əsasında musiqinin dili ilə əsl ədəbi-bədii gecə yaratmışdılar.

Heç kim bu möhtəşəm kompozisiyadan gözünü çəkib diqqətini yayındıra bilmirdi. Hamı sözün, musiqinin içərisində idi...

Mən Vaqif poeziya günlərində iştirakımla təbii ki, qürur duyuram və mənə bu anların iştirakçısı olmaq imkanı yaradan hər kəsə ürəkdən minnətdaram. Baxmayaraq ki, mən orada özümün bir az kədərin əlindən xilas edə bilmədim. Bu kədər də həmin günlərin iştirakçısı olmayan ruhları Vaqifin ruhunu salamlamağa gəlmiş şairlərimizin haqq dünyasına qovuşmasından qaynaqlanırdı. Ona görə də mən elə məqbərə önündə ürəyimdə öz-özümə pıçıldayırdım:

***Burda - ön cərgədə Məmməd Arazın,***
***Burda Bəxtiyarın yeri görünür...***
***Burda Zəlimxanın, burda Şahmarın -***
***Nüsrətin coşqulu şeiri görünür...***

***Ürəyi atlanan Xəlil Rzanın***
***Sakit görkəmində Nəbi Xəzrinin...***



***Hüseynin, Qabilin, Fikrət, Cabirin -***
***Yeri önündədi Şuşa vəzirinin...***

***Familin, Eldarın, Rəfiq Zəkanın,***
***İlyasın, Davudun, Əlifoğlunun***
***Vaqif İbrahimin, həm Laçının -***
***Yerini görürdüm mən Kürdoğlunun...***

***Şuşa şölənində, Vaqif günündə***
***Ruhlar da, sözlər də ləpələnirdi.***
***Sevgilər, sevinclər Xarı bülbültək -***
***Şuşa səmasına səpələnirdi...***

Bəli, Şuşada işğaldan sonra ikinci Vaqif poeziya günləri keçirildi. Mən bu günlərin təşkilatçılarına, söz adamlarına yaratdıqları şəraitə, göstərdikləri diqqətə görə ürəkdən minnətdarlığımı bildirirəm. Xüsusilə, adamların yerləşdirilməsi, onlara qayğı ilə yanaşılması təqdirəlayiq idi. Təbii ki, həyat davam edir və inşallah, növbəti poeziya bayramı daha möhtəşəm olacaq. Mənim buna şübhəm yoxdu. Çünki bu tədbirin mayası halal söz, halal şeirdi. Hər zaman sözün və bütövlükdə halallığın işığı daha gur yansın və o işıq hər birimizin ömründə özünü ifadə etsin.

***P.S. Mən bu səfərimin bütün detallarını özüm üçün həm dəftərçəmə, həm də yaddaşıma qeyd etmişəm. İnşallah, bu səfərimdə həmsöhbət olduğum qələm dostlarımla, ruh doğmalarımla bağlı məqamları oxucularla bölüşəcəm.***

**Əbülfət MƏDƏTOĞLU**

# Şükür Şənolla bir şeir söhbəti

**Onun şeirləri , bütövlükdə isə qələminin oxucuya təqdim etdiyi hər bir yazısı birmənalı şəkildə özünüifadədir. Çünki onu tanıyan hər kəs bilir ki, bu sakit, bu ağır taxtalı Kişinin danışığı, hətta adamın gözlərinin içinə baxmağı da o qədər təmkinlidi ki, saatlarla dinləmək, həmsöhbət olmaq istəyirsən. Sanki Allah özünün bu bəndəsini birmənalı şəkildə təmkin və həlimliklə mükafatlandırıb. Hərdən öz-özümə fikirləşirəm ki, görəsən Şükür Şənol heç əsəbiləşibmi? Ümumiyyətlə o səsinin tonunu azacıq da olsa qaldırıbmı?**

Vallah, kimsə bu barədə mənə desə, heç vaxt inanmaram. Az qala 40 ılı yaxındır ki, tanıyıram onu. İlk gündən onu necə görmüşəmsə,bu gün də başını salıb aşağı, ürəyi ilə, duyğuları ilə, ağrı və sevinci ilə üzü məqsədinə doğru yol gedir. Baxmayaraq ki, həyat onu həddindən çox sıxıb, sağdan-soldan vurub, qəlbinə ağrı yuvası, ruhunu xatirələrlə həmsöhbət etdi...

Nə vaxtdan bəri oxucularla bölüşdüyüm şeir - söz təqdimatında bu dəfə də ruhumun doğması, hər görüşümü ayrıca bir dəyər saydığı Şükür Şənolla baş-başa qaldım. Onun mənə bağışladığı "...aranızdakı bir mələk" kitabını təkrar gözdən keçirirdim. Yəqin ki, oxucuları bu kitabdan xəbərdardı. Bir-birindən maraqlı fikirlərlə cilalanmış şeir çələngində mənim diqqətimi çəkən kifayət qədər ovqata, ruha qida olan, həm də düşündürən şeirlər var idi. O şeirlərdən biri, içərisində olduğum ovqatla üst-üstə düşdü. Sanki bu dünyada Allahdan və Ondan başqa heç bir doğmamın olmadığını bu şeir də təsdiqlədi. Mənim yaşadıqlarımın bir sərt təpkisini də gəldi mənə bu şeir. Ürəyimin, duyğularımın, gözlərinin içinə baxa-baxa dedi ki:

***Ürəyimdə bu isti nə,***
***sən mənim ola bilmədin.***
***Bəyaz-bəyaz isti sinə***
***sən mənim ola bilmədin.***

Mən də hər anıma hakim olan Sənə bəzən o qədər uzaq oluram, o qədər yad görünürəm ki, dünyadan da, özümdən də bezir, yorulur, Allahıma isə asi olmaq gəlib keçir könlümdən. Elə bil ki, təkliyin, tənhalığın təkcə ovcunun içərisində olmuram, həm də bu mənim qədərim kimi daşlaşmış, sərtləşmiş bir varlığın həm önümdə, həm də ürəyimdə bitməsinin ifadəsi olur. Yəni mən düşüncələrin girdabında yalnız xatirələrin uzaqdan güclü sezilən işartısını görə bilirəm. Onda da ağlımdan yalnız bu duyğular gəlib keçir və mən də onu misralayıram. Yazıram ki:

***Kiprikləri yararaq***
***Şimşək çaxır, sel ötür...***
***Hənrim yanaq isidir -***
***Baxışlarım tel öpür...***

Deməli, belə olan halda Şükür Şənolun ovqatına öz ovqatımı qatmaq, onun ruhunu öz ruhumun köynəyinə çevirmək ağlıma hakim olur. Çünki Şükür də mənim düşündüklərimin həm özünü, həm də astar üzünü düşünür. Bu məqamda yenə Sən gəlib dayanırsan gözümün önündə. Necə ki, Şükür Şənol öz gözlərinin önündə canlandırdığı ünvana təmkinli bir şəkildə deyir:



***Qara gözlər iri-iri***
***qaldı yerim, öldü yerim.***
***Yetər artıq dinmə, kiri,***
***sən mənim ola bilmədin.***

Mən bu bəndi təkrar-təkrar ürəyimdə pıçıldayıram və sonra da gözlərimi yumub səsimi ucaldıram.

Düşünürəm ki, bu şeiri ucadan oxuyanda mütləq Allah da eşidəcək, Sən də. Mütləq Allah da, elə Sən də biləcəksiniz ki, Şükür də, mən də nələr çəkirik, necə yaşayırıq, necə qovruluruq?..

Yaşadığımızı da, bizi qovuranı da necə şeirə, misralara çeviririk. Sadəcə bu ağrımızı, yanğımızı azaltmaq istəyimiz deyil. Bu, həm də bizim məhz sizlərin lütfi ilə duyğularımızı şeirləşdirmək qabiliyyətimizin çox kiçik bir mənzərəsidi, məqamıdı. Həmin o məqamda siz istədiniz, istəmədiniz, biz sizi görür, sizi duyur, sizi hiss edir və varlığımızda olan sizin şəninizə, şərəfinizə, mövcudluğunuza şükürlər edirik.

Baxmayaraq ki, siz bizə qarşı daha kəskin, daha amansız olursunuz. Təbii ki, bu münasibət də özünü misraların işığında oxucu qarşısına çıxarır. Və oxucu bilir ki:

***Yaddaşından nələrsə***
***Tələsmədən silirsən...***
***Xatirələr qomunu***
***Yandırıb, isinirsən!..***

Doğrudan da xatirələr nə qədər acı və yaxud şirin olsa da, onun gerçək təsəllisi, gerçək yozumu baş-başa qalmaqdı. Belə olan halda xatirələr ümid işığına yol açır. Əks halda isə xatirələr öləziyən ocağa, uzaqlaşan işığa və bir də daha çox yuxuya çevrilir. Bu isə sevənin, aşiqin, indiki məqamda isə Şükür Şənolun və mənim hardan-hara yuvarlandığımızı, hansı həsrətin yükü altında təngənəfəs olduğumuzu açıq aşkar nümayiş etdirir və biz bu nümayişin bütün çalarlarını özümüzdə yaşadırıq. Onu nə inkar edirik, nə qovuruq, heç onunla vuruşmuruq da. Axı şairlər qədərlərini öncədən görürlər. Deməli, həsrət də bizim qədərimizin bir səhifəsidi. Bu səhifəni yazmaq da, oxumaq da Allahın və sizin əlinizdədir. Ona görə də Şükür deyir ki:

***Uzaq düşüb, uzaq yolum,***
***incə belin sıxmaz qolum.***
***Burax məni qurban olum,***
***sən mənim ola bilmədin...***

Həqiqətən hər bir Allah bəndəsinin, indiki məqamda isə hər bir söz adamının öz ürəyi ilə danışmağı təbiidi. Bunun nə yaşa, nə də başa dəxli yoxdu. İstənilən mövzunu Allah bəndəsi özü ilə, onu yaradanla çözməyə, müzakirə etməyə haqlıdı. Şəxsən mən bəzən saatlarla, günlərlə, daha çox dörd divarla, Sənlə, Allahla və ürəyimlə danışıram. Və birmənalı şəkildə etiraf edirəm ki, bu söhbətlər mənə daha çox xoş gəlir, rahatlıq gətirir. Hətta mənə ümid işığını yandırmaq imkanı verir. O işığın şöləsi də sonda yenə şeirə çevrilir. Özü də sənə yazılan şeirə:

***İncimirəm, ruhum da***
***Sızıldamır bu anda...***
***Axı sən isinirsən -***
***Xatirələr yananda!..***

Deməli, mən Şükür Şənolla baş-başa qaldığım bu qısa zamanın içərisində bir daha dəyərli söz adamını, dostum Şükür Şənolun Qarabağın Böyük Bəhmənli kəndindən, yəni tanımağa başladığım gündən üzü bəri oxumaq imkanı qazandım. Təkcə bir şeirdə onun mənə nə qədər doğma olduğunu, ruhumuzun bir köynəkdən keçdiyini təkrar anladım. Və nəhayət, gördüm, duydum, yaşadım. Şükürün və özümün sevgimi! O sevginin mənim üçün ünvanı Sən... O ünvanı da mənə bağışlayan Allahdı. Təbii ki, Şükür Şənolun da ünvanı, yəni sevgi ünvanı onun özünə və Allaha məlumdur...

**Allah hər kəsin sevgisini qorusun!**

**Əbülfət MƏDƏTOĞLU**

# Təmir nə vaxt bitəcək?

### *Və yaxud aktyorların və tamaşaçıların bitməyən intizarı*

**Hər kəsə məlumdur ki, incəsənətin bir qolu olan teatr təkcə tamaşaçıları əyləndirmək üçün deyil, həm də onların maarifləndirilməsi, ziyalılığın artırılması, həmçinin maarifləndirmə istiqamətində böyük işlər görən bir yaradıcılıq vasitəsi, eləcə də məktəbidir. Birmənalı şəkildə demək olar ki, teatr həm aktyorlar vasitəsilə obrazı göstərir, həm də eşitdirir. Yəni tamaşaçı səhnədə qoyulmuş mövzu vasitəsilə məsələni canlı izləməklə bərabər, həm də səsləndirilən fikirlərin qulaq şahidi olur. Hələ sağlığında teatrla bağlı ümummilli liderimiz, ulu öndərimiz Heydər Əliyev demişdir:**

- Teatr müqəddəs yerdir! İnsanların mənəvi çəhətdən formalaşmasında teatr həmişə,çox böyük rol oynamışdır.

Bu mövzu ilə bağlı türk dünyasının böyük dühası Atatürk isə millət məclisində öz fikirlərini belə ifadə edib:

- Əfəndilər onu bilin ki,hər biriniz nazir, millət vəkili hətta cumhurbaşkanı da ola bilərsiniz. Amma sənətçi ola bilməzsiniz.Gəlin həyatını bu müqəddəs işə qurban vermiş coçuqları sevək.

Biz, yəni mən və daha 7-8 nəfər gənc aktyor 1974-cü ildə yenicə teatra gəlmişdik. Həmin vaxt teatrın korifeyləri olan Məxfurə Ermakova, Məmmədağa Dadaşov, Susanna Məcidova, Hüseynağa Sadıqov, Süleyman Ələsgərov və başqaları deyirdilər ki, bu teatrın binası 1952-ci ildə inşa olunub. Həqiqətən də teatrın binası çox xoşagələn bir qurluşda tikilmişdi. Lakin az keçmədi ki, teatrın binasında "Ğöbələk" xəstəliyi aşkar edildi və bu səbəbdən də 1979-cu ildə binanı sökdülər ki, yeni bina tiksinlər. Təəssüf ki, bu tikinti 1989-cu ilə qədər, yəni düz 10 il biz cavanları və zavallı kollektivi gözlətdi. Peşəkar teatr şərtlərinə cavab verə bilməyən, müxtəlif səhnələrdə fəaliyyətimizi davam etdirməyə məcbur olduq. Axır ki, tikinti 1989-cu ildə başa çatdı. Ancaq tikinti başa çatsa da, kollektivin üzü doyunca gülməmiş, yeni problem ortaya çıxdı. Belə ki, az keçməmiş 1989-cu ildə hazır olan binanın texniki çatışmazlığı ucbatından, kollektiv gah TXİ-da, gah Kinostudiyada, gah da hansısa zavodun mədəniyyət evində çalışmalı oldu. Nəhayət ki, 2009-cu ildə bərpa olunan yeni binanı istismara verdilər...

Və kollektiv də 2019-cu ilə kimi şad-xürrəm öz yaradıcılıq işləri ilə məşğul oldu. Di gəl ki,2019-cu ildə Covid-19 başlayandan bütün dünyada olduğu kimi biz də öz fəaliyyətimizi dondurmağa məcbur olduq.Və Şükürlər olsun ki, 2021-ci ildən teatrların fəaliyyətinə icazə verildi. Biz də işə başladıq. Lakin işə başlayan andan teatrda istilik sisteminin sıradan çıxması, tavandan axan yağış və qar, Gənc Tamaşaçılar Teatrında normal işləməyi mümkünsüz etdi. Kollektivin arzusu və Rəhbərliyin səyi ilə lazımı təşkilatlarla danışılıb, təmir və bərpaçılar dəvət olundular.

Doğrudur, bərpaçılar gəldilər və təmirə lazım olan taxta-tuxtaları quraşdırıb getdilər. Getdilər və günü bu ğünə kimi qayıtmaq bilmirlər. Niyə qayıtmırlar? Bax,bircə biz onu bilmirik! Və bilənlər də bizə heç nə demirlər...

**Həqiqətən də maraqlı sualdı. Və bu suala cavab verə biləcək konkret bir ünvan varsa, o da hələlik ağlımıza gələn Mədəniyyət Nazirliyidi. Təəssüf ki, orda da susurlar. Deyən yoxdu ki, Gənc Tamaşaçılar Teatrının bəxtini kim bağlayıb və kim açacaqdı?!**

**Yasin Qarayev,**
**Xalq artisti**

# Ermənistana reallıq xəbərdarlığı

**Son vaxtlar dünya mediasında, xüsusilə ermənipərəst mövqe ilə seçilən informasiya agentliklərinin yaydığı məlumatlar içərisində ən çox tirajlanan məsələlərdən biri ATƏT-in Minsk qrupu ilə bağlıdır. Belə ki, ortaya atılan məsələlərin kökündə "ölmüş bir qurum"u yenidən dirçəltmək və onun vasitəsi ilə də Azərbaycana təzyiqlər göstərmək niyyəti demək olar ki, bütün yayılan bilgilərdə ana xətti təşkil edir. Hətta bugünlərdə hökumət şurasının iclasını keçirən Ermənistanın baş naziri Paşinyan birmənalı şəkildə vurğulayıb ki, "Ermənistan Azərbaycanla danışıqları bərpa etməyə hazırdır və ATƏT-in Minsk qrupu komplekt təklif gözləyir". Elə bu sözün, bu fikrin özünə ayrı bir vətəndaş mövqeyi ilə baxsaq, onda görərik ki, Ermənistanın baş naziri özünün də imzaladığı üçtərəfli bəyanatı yumşaq desək, unudub. Çünki həmin imzalanmış sənəddə Ermənistan üzərinə götürdüyü məsələlərdən biri də Azərbaycan ərazilərindəki erməni silahlı birləşmələrini çıxarmaqdır. Çox təəssüf ki, bu məsələnin həllinə nəzarət etməli olan Rusiyanın sülhməramlıları da öz üzərinə düşən vəzifəni icra etmirlər. Onların gözü qarşısında Azərbaycan ərazilərində, yəni, sülhməramlıların yerləşdiyi torpaqlarımızda ermənilər yeni mövqelər qurur, necə deyərlər, hərbi postlar yaradırlar. Bu da o deməkdir ki, erməni tərəf kiməsə, nəyəsə güvənərək revanc etmək niyyətindədi. Amma...**

Məlum olduğu kimi Azərbaycan prezidenti, cənab İlham Əliyev dəfələrlə öz çıxışlarında ən yüksək kürsülərdən səsləndirdiyi fikirlərdə də vurğulayıb ki, "Dağlıq Qarabağ adlı qurum yoxdu və bu problem həll edilib. Onunla birlikdə status məsələsi də gündəmdən çıxarılıbdı və ona bir daha qayıdılmayacaq". Belə olduğu halda və bunu da 10 noyabr 2020-ci il bəyanatını imzalayan Ermənistanın baş naziri, həmçinin Rusiya tərəfi yenidən Dağlıq Qarabağın statusu məsələsini gündəmə gətirməsi, erməni tərəfinin iddia etdiyi kimi, onların hüquqlarının bərpası ən azı absurd bir düşüncənin məhsuludu. Yəni, 44 günlük ikinci Qarabağ savaşında Azərbaycan ordusu torpaqlarımızı 30 illik işğaldan azad etdi, dövlət sərhəddimiz bərpa olundu. Bu gün Azərbaycanın yeganə problemi işğaldan azad edilmiş ərazilərdə infrastrukturu bərpa etmək, həmin torpaqların əbədi və əzəli sakinlərini öz yurd-yuvalarına qaytarmaqdır. Yəni, qarşımızda duran ən zəruri problem və həllini gözləyən məsələ işğaldan azad olunmuş ərazilərə nəfəs vermək, həmin əraziləri yenidən Azərbaycanın cənnət guşələrinə çevirməkdir. Bu məqsədlə də Azərbaycan Prezidenti müvafiq qərar və sərəncamlar imzalayır, göstərişlər və tapşırıqlar verir. Elə bugünlərdə yaradılan "Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi" də məhz həmin böyük məqsədə xidmət edir. Ölkə rəhbərliyinin işğaldan azad olunmuş ərazilərdə öncə minalardan təmizləmə prosesini sürətləndirilməsi, həmçinin Şuşada, Zəngilanda, Qubadlıda, Füzulidə, Ağdamda və digər ərazilərimizdə təmir bərpa işlərinə başlaması, yeni tikinti sahələrinin yaradılması artıq böyük bir layihə kimi gerçəkləşdirilməkdədir. Rəsmi informasiya öz təsdiqini tapdı və Füzuli hava limanı ilk təyyarəsini qəbul etdi. Bu da o deməkdir ki, Azərbaycan qarşı tərəfin, yəni ermənilərin təxribatlarına baxmayaraq, özünün müstəqil dövlət siyasətini uğurla yerinə yetirməkdədir.



Amma məsələnin digər bir tərəfi də danılmazdır ki, bu da düşmənin təkcə Kəlbəcər, Laçın, Gədəbəy istiqamətlərində deyil, həmçinin Naxçıvan istiqamətində də tez-tez atəşkəsi pozması mövqelərimzi atəşə tutması onların gizli niyyətlərinin bir növü sərgiləmiş olur. Politoloqların, siyasi şərhçilərin fikirlərinə görə, düşmən tərəf bu vasitə ilə Azərbaycanın Ermənistanla bütün sərhəddi boyu Rusiyanın, həmçinin MDB-nin əsgərlərinin yerləşdirilməsinə cəhd göstərir. Onların bu istəyi də məhz həm Azərbaycana təzyiq göstərmək, həm də Dağlıq Qarabağ adlı qurumu yenidən yaratmaq niyyətindən qaynaqlanır. Düşmən unudur ki, bugünkü Azərbaycan 90-cı illərin Azərbaycanından bütünlüklə fərqlənir. Bu gün Azərbaycanın qüdrətli ordusu, dəmir yumruğu və iqtisadi-siyasi gücü, həmçinin dünyanın qəbul etdiyi siyasi rəhbəri var. Ona görə də ermənilərin təxribatları da onlara havadarlıq edənlərin bu və ya digər formada gündəmə gətirdikləri

məsələlər də heç bir əhəmiyyət kəsb etmir. Bununla bağlı Azərbaycan XİN-nin son bəyanatında da bildirilib ki, "Ermənistan XİN-nin diqqətinə çatdırırıq ki, üçtərəfli bəyanatın 1-ci maddəsində "Tam atəşkəsin və münaqişə zonasında bütün hərbi əməliyyatların 2020-ci il noyabrın 10-da Moskva vaxtı ilə 00:00-dan etibarən dayandırılması" elan edilir, o cümlədən Azərbaycan Respublikası ilə Ermənistan Respublikası "tutduqları mövqelərində dayandıqları" qeyd olunub.



Vurğulamaq istərdik ki, "dayanmaq" sözü bu və ya digər kontekstdə "qalmaq" mənasını vermir. Bu, həm müqavilənin tərtib olunduğu rus dilinə, həm də digər dillərə aiddir".

Bu bəyanatdan da göründüyü kimi, Azərbaycan tərəfi 2020-ci il noyabr ayının 10-da imzalanmış bəyanatın bütün bəndlərinə əməl etməklə öz ərazi bütövlüyünü təmin edilməsi üçün üzərinə düşən vəzifələri birmənalı şəkildə yerinə yetirir. Baxmayaraq ki, heç bir işə yaramayan, gerçəkdə isə ermənilərin işğalçı siyasətinə dəstək verib göz yuman, problemin çözümünü zaman baxımından dondurmağa çalışmaqla uzadan ATƏT-in Minsk qrupu bu gün yenidən bölgəyə qayıtmaq və burada ermənilərə himayədarlığını yenidən davam etdirmək niyyətindədilər.

Yeri gəlmişkən , onu da qeyd etmək lazımdır ki, Minks qrupunun həmsədrlərindən olan Rusiya və ABŞ-ın məsələ ilə bağlı gündəmdə olan məlumatlar içərisində bir nüansı da məhz bəyanatı imzalayan tərəflərinin birinin də Rusiya prezidentinin olmasıdır.

Əgər məsələyə ayıq-sayıq baxışla diqqət yetirsək, onda görərik ki, maraqlı qüvvələrin Ermənistana uzatdıqları əl dolayısı ilə Rusiya prezidentini də vurmaqdadır. Bir az da konkretləşdirsək, bu, Rusiya prezidentinin imzasına, mövqeyinə açıq-aşkar sayqısızlıqdır.

Ermənistan baş nazirinin və eləcə də, Müdafiə nazirinin Rusiyaya səfərləri, bu səfərlərdən öncə və sonra verdikləri açıqlamalar açıq şəkildə göstərir ki, düşmən ölkədə siyasi qarşıdurma, hakimiyyət davası səngimir.

Ermənistanda hər kəs bütün baş verənlər üçün günahkar axtarmaqdansa, öz dövlət bütövlüklərini, gələcək inkişaf perspektivlərini arayıb-axtarmaq, onun üçün çarpışmaq yolunu tapmalıdılar. Əks halda, elə Paşinyanın özünün də dediyi kimi, "Biz qonşu dövlətlərlə münasibətləri nizamlamalı və İrəvanın Regional Kommunikasiyasının blokadadan çıxarılmasına" çalışmalıdır. Yəni, Ermənistanın baş naziri bununla siyasi gediş edərək bildirib ki, "İrəvan Regional Kommunikasiyasının blokadadan çıxarılması üçün Ermənistan, Rusiya və Azərbaycan baş nazirləri müavinlərinin iştirakçı ilə üçtərəfli komissiyanın işini də bərpa etməyə hazırdır".

**Bütün bunlar bir daha göstərir ki, Azərbaycanın qələbəsini həzm edə bilməyən Ermənistan tərəfi hələ də nəyəsə ümid edir. Amma onlar unudub ki, nəyə ümid edirlər etsinlər, ədalət də Azərbaycanın tərəfindədi, güclü ordu da Azərbaycandadır. Bu ordu öz ali baş komandanı ilə istənilən düşməni yerində oturtmağa qadirdir.**

**Əbülfət MƏDƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# "Ömrün tale yükü"




***Hüseyn Əsgərov***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, yazıçı-publisist***


**Bu günlərdə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-nin əməkdaşı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Faiq Abbasoğlunun "Ömrün tale yükü" adlı kitabı oxucu auditoriyasına ünvanlanıb. "Əcəmi"Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə çap olunan bu kitabın məsləhətçiləri şair, Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev və bu sətirlərin müəllifi, redaktoru "Şərq qapısı" qəzetinin məsul katibi, Əməkdar jurnalist Muxtar Məmmədovdur.**

### *Ömrünün 65-ci baharında*

və Naxçıvan Dövlət Radiosunun 90 illiyində oxucularla ilk görüşü olan bu kitabda müəllif əsasən arxiv sənədlərinə və nadir foto-şəkillərə istinad edib, çəkilişində iştirak etdiyi, efir üçün ərsəyə gətirdiyi ədəbi-bədii, publisistik verilişlərdən söz açıb. Kitabda müəllifin 40 il ərzində hazırladığı verilişlərin, telefilmlərin, filmtamaşaların, telekompozisiyaların rejissor ssenariləri, bir neçə nəzəri rejissor qeydləri xronoloji ardıcıllıqla öz əksini tapıb. Azərbaycan televiziyasında ilk kövrək addımlarını atan F.Abbasoğlu "Metranpaj" komediyasına ekran həyatı verdikdən sonra peşəkar rejissor kimi tanınmağa başlayıb. V.Vampilovun bu əsərini rus dilindən tərcümə edərək teletamaşa hazırlamaq Faiqin hələ Əfqanıstanda birləşmiş Sovet hərbi hiissələrinin tərkibində əsgərlik illərindən arzusu idi. Müsbət rəylərdən sonra 1982-ci il aprelin 12-də efirə təqdim olunan bu komediya böyük uğur qazanıb. Dəfələrlə televiziya ekranlarında nümayiş olunan "Metranpaj" bu gün də Azərbaycan televiziyasının filmotekasiyasında qorunub saxlanılır.

O, Azərbaycan Televiziyasında işə başladığı dövrlərdə əsl yaradıcılıq məktəbi keçərək yaxşı bir rejissor kimi formalaşlb. Moskva Teleradio Təkmilləşdirmə İnstitutunda da qazandığı təcrübəni Naxçıvan televiziyasının efirində ilk tətbiq edən televiziya rejissoru da Faiq Abbasoğlu olub.

Ötən əsrin 80-90-cı illərində Naxçıvan televiziyasında hazırlanan müxtəlif janrlı verilişlərin demək olar ki, böyük əksəriyyəti Faiq Musayevin peşəkar əməyinin bəhrəsidir. Naxçıvan televiziyasında çalışdığı ilk illərdə "Qüdrətli diyar", "Müqəddəs nemət","Şərur yallıları"rəngli televiziya filmləri, "Karvan", "Göy qurşağı", "Ayrılıq", "Axtarış" və digər ədbi-bədii, publisistik verilişlərinin rejissor işində tətbiq olunan assosiativ, zaman deformasiyalı montajlar, ekranın bölünməsi, mikşerləşmə, rəngin oynaması və ekran ifadəsinin digər əsas və mürəkkəb komponentləri barədə məlumat verir.Qeyd edək ki, bütün bunlar Naxçıvan televiziyasına ilk dəfə tətbiq olunan yeniliklər idi.

### *Televiziyaya gəldiyi ilk gündən*

onunla tanış olmuşam və ilk gündən də əməkdaşlığa başlamışıq. Bu illər ərzində yazdığım çox saylı səhnəciklərə, ssenari müəllifi olduğum iri həcmli "Ayrılıq","Axtarış","Telesiqnal", "Bunlar kiçik məsələlər deyil", "Yeni il" və "Novruz" bayram verilişlərinə quruluş verib, bir neçə televiziya filmini ərsəyə gətirib. Maraqlı bir cəhəti də qeyd edim ki, o, operator kimi də öz kamerası ilə səhnəciklərimin əksəriyyətini kameranın yaddaşına köçürüb və onun operator işi həmişə uğurlu alınıb. Hazırladığı silsilə verilişlərin, tamaşaların musiqi və dekorasiya tərtibatını həmişə özü verib.

***1990-1993-cü illər kitabda Naxçıvan televiziyasının ən ağır və eyni zamanda inkişafının yeni mərhələyə qədəm qoyduğu illər kimi təsvir olunub. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə tez-tez televiziyaya gəlir, canlı çıxışlar, müraciətlər edir, bəzi məsələləri əhaliyə televiziya vasitəsilə çatdırırdı. Bəzən sərhəd rayonlarındakı vəziyyət və daxildə baş verən hadisələrlə əlaqədar olaraq efirdən xalqa səslənirdi. Bu dövrdə Azərbaycan teleməkanında ilk dəfə olaraq Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan televiziyası üçün qardaş Türkiyə Respublikasından "BETEKAM" tipli telejurnalist komplekti alınıb. 1992-ci ildə isə televiziyaya "PANASONİK-1000" markalı videokamera hədiyyə olunub. Bu kamera vasitəsilə Ali Məclis Sədrinin görüşləri, rayonlara səfəri və başqa tədbirlər lentə alınıb.***

Bu dövrdə Azərbaycan televiziyasının "Karvan" və "Gecə kanalı" proqramlarının bir neçə buraxılışında "Nəqşi-cahan" müstəqil kino-video studiyasının rəhbəri və müəllifi kimi çıxış edən F.Abbasoğlu 1997-ci ildən başlayaraq hər il televiziyanın "Novruz" və "Yeni il" bayram verilişlərinə quruluş verib. Hər bayram verilişinin də yadda qalan anları olub. Faiqin ilk dəfə studiyadan kənarda "Təbriz" mehmanxanasında maraqlı aktyor ansamblının iştirakı ilə hazırladığı "Göydən düşən mələk" telenovellası uğurla nümayiş olunub.

Müstəqillik illərində Naxçıvan Teleradiosu müstəqil kanalda yayımlanmağa başlayıb. Müxtəlif illərdə teleradionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, müasir texniki avadanlıqlar quraşdırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun im-




zaladfığı "Naxçıvan Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi" ilə bağlı tədbirlər planının təsdiq ediməsi barədə 2018-ci il 6 fevral tarixli sərəncamı teleradionun fəaliyyətini daha çox genişləndirib, Muxtar Respublikada ilk dəfə olaraq "NUHÇIXAN" informasiya agentliyi yaradılıb. Bu gün dünyanın istənilən yerindən Naxçıvan Teleradiosunu internet vasitəsilə izləmək mümkündür. Bu isə muxtar respublikanın tanıdıllmasının, burada həyata keçirilən böyük quruculuq işlərinin, insanların yaşayış səviyyəsinin, qədim diyarın tarixi- mədəni irsi və milli dəyərlər haqqında məlumatlarının daha geniş tamaşaçı kütləsinə çatdırılmasına imkan verir.

### *Yeni texniki avadanlıqlarla təchiz olunmuş radio və telepavliyonlar,*

***müasir rəqəmsal telekameralar, komputer montaj otaqları yaradıcı heyətin ixtiyarına veriləndən sonra F.Abbasoğlu keçidlər, videoçarxlar, telekompozisiyaların hazırlanmasında yaxından iştirak edib."Milli kino inciləri", "Sənət yolu, sənətkar taleyi", "Kino gülüş", "Sənətlə ucalanlar" silsilə verilişləri yeni formatda efirə vəsiqə alıb. "Gülüş köşkü" satirik proqramı da bir neçə buraxılışı ilə tez bir zamanda tamaşaçı rəğbətini qazanıb. 2016-ci ildə şair-dramaturq Həsənalı Eyvazlının "Yasda toy əhvalatı" pyesinin motivləri əsasında ekranlaşdırdığı eyni adlı filmtamaşa, 2019-2020-ci illərdə "Naxçıvan dəmir yolları" və "Ulu çinar, xan çinar", üç hissəli "Naxçıvan albomu" sənədli televiziya filmləri rejissor fəaliyyətində yeni səhifələr yazıb.***

"Naxçıvan müstəqillik illərində" respublika üzrə keçirilən yaradıcılıq müsabiqəsinin qalibi kimi Fəxri diplomla pul mükafatı alıb.

### *Kitabda Məmməd Araz haqqında*

***"Məni qoymayın təklənəm" filminin rejissor ssenarisi də səmimi duyğularla ifadə olunub. Bakıya çəkiliş üçün yollanan çəkiliş qrupu Məmməd Arazla görüşü ilham və peşəkarlıqla lentə alıb. Müəllif yazır: " Qapını şairin həyat yoldaşı Gülxanımana açdı. "Xoş gəlmisiniz",-deyə bizi səmimiyyətlə qarşılayıb içəri dəvət etdi. Şairin nəvələri də burda idi. Onlarla da kef-əhval tutduq. O,bizi çay süfrəsinə dəvət edib:"Gəlin adama bir stəkan çay içək, sonra işə başlayaq. Hara tələsirik ", -dedi. Şairin sözünü yerə salmadıq. Çay içə-içə Naxçıvanla bağlı xatirələr dilə gəldi. Məmməd Araz Naxçıvanda yaşayan qələm yoldaşlarının vəziyyətləri, yaradıcılıqları ilə maraqlandı. Bu anda biz çəkilişi davam edirdik. Sonra onu yazı masası arxasında işləyərkən müxtəlif məqamlarda, qonaq otağınada isə həyat yoldaşı və nəvələri ilə olan görüntüləri lentə aldıq. Bir sözlə, şairlə bağlı hər bir görüntü kameranın gözündən yayınmadı. Özü də bir neçə şeirini birbaşa mikrofona dedi. Səsində bir balaca "qırıqlıq" olsa da şerləri elə ürəkdən, gur deyirdi ki, həycandan guşa gəldik.***

***Çəkilişdən sonra üçümüz də şairin şeirlərindən deməyə başladıq. Sanki şeir müsabiqəsi keçirilirdi. Təzəcə qızışmşdıq ki, Gülxanım ana bizi süfrə arxasına dəvət etdi.***

***Deyə-gülə süfrədəki təamlardan istifadə edib, şairin "bir tikə" çörəyini kəsdik. Sağollaşıb ayrılanda Məmməd Araz kövrəldi:"Gəlişinizlə evimizə nur gətirdiniz, evimizin soyuq divarları Naxçıvan havası ilə isindi.Tez-tez gəlin. Bizdən Naxçıvan el-obasına salam deyərsiniz,"-dedi. Gülxanım ana isə: "Vallah, heç yaxşı olmadı. Ürəyimcə sizə qulluq edə bilmədim. Gərək yaxşısını, pisini bağışlayasınız. Qapımız üzünüzə həmişə açıqdır. Nə vaxt gəlsəniz, gözümüz üstə yeriniz var", - dedi."***

O dövrdə Naxçıvan televiziyası ilə sıx əməkdaşlıq edən hörmətli akademikimiz İsa Həbibbəyli Faiqin rejissor istedadını yüksək qiymətləndirərək yazırdı:

"- Faiq Musayev öz dəsti- xətti ilə Naxçıvan televiziyasına yenilik gətirdi. O, 80-ci illərdə Naxçıvan televiziyasında Mirzə Cəlilin həyat və yaradıcılığı, Naxçıvan ədəbi mühiti ilə bağlı kənar müəllif və aparıcı kimi hazırladığım silsilə verilişlərin əksəriyyətinə rejissorluq edib. İlk verilişlərdən onu duyumlu bir rejissor kimi tanımağa başladım. "Sehrli kreslo" televiziya tamaşası o illərdə böyük tamaşaçı marağı doğurdu və mənim onun gənc rejissor kimi gələcəkdə peşəkar rejissor olacağına şübhəm qalmadı. Sonralar onun ssenarilərim əsasında çəkdiyi filmlər, verilişlər və uğurlu film-tamaşaları bunu bir daha sübut etdi.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2000-ci ildə oynanılmış məsləhətçi olduğum "Qurbanəli bəy" tamaşası da Faiqin teatr səhnəsində rejissor bacarığını bir daha üzə çıxartdı.

Bu tamaşa ilə Faiq Musayev yadda qalan səhnə tərtibatı, orijinal rejissor yozumları, maraqlı aktyor heyəti ilə müasir tamaşaçının marağına uyğun ideyaları ön mövqeyə çəkə bildi."

İsa Həbibbəylinin haqqında söz açdığı "Sehrli kreslo" ifşa etmək üçün bir vasitədir. Kim bu kresloya əyləşirsə özünə dönür, yəni onun üzündən maska yox olur.Ürəyi ilə dili həmahəng səslənir. Faiqin isə heç bir sehrli kresloya ehtiyacı yoxdur.

Onun əməlləri həmişə ürəyinin hökmü ilə həmahəngdir, səmimidir. Bu səmimiyyət ömrün tale yüküdür.

"Ömrün tale yükü" həm də Naxçıvan radiosunun 90 illik tarixinə, televiziyasının 59 illik inkişaf yoluna konkret faktlar və foto-şəkillərlə güzgü tutan bir kitabdır. Onu teleradio tədqiqatçıları üçün müraciət edə biləcək ilk mənbə, həm də Azərbaycan milli mətbuatının 147 illiyinə qiymətli töhfə kimi də dəyərləndirmək olar.

Faiq ömrün müdrik çağlarını yaşayır. Ürəyi sənətlə döyünür, yeni-yeni telelayihələrə imza atmaq istəyir. İşə can yandırmaq, yorulmaq bilmədən çalışmaq ona məxsus olub.

Bu gün də onun sənətə olan sonsuz məhəbbəti gənclər üçün bir nümunədir.

**Mən inanıram ki, bundan sonra da Faiq televiziyada öz sözünü deyə biləcək, hələ neçə-neçə tamaşaçı alqışı onun ünvanına səslənəcək.**

## *İmtahan verən 12 nəfərin nəticəsi ləğv edildi*



**II və III ixtisas qrupları üzrə 6-7 iyulda keçirilən imtahanlarda iştirak edən abituriyentlərdən 12 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.**

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün iyulun 25-dən etibarən onlayn ("Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesi təşkil ediləcək.

Apellyasiya komissiyasına müraciət etməmişdən əvvəl abituriyentlər DİM-in saytında, imtahan nəticələri ilə bağlı səhifədə öz nəticələri, cavab vərəqinin qrafik təsviri, hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış olmalıdırlar. Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların təqribən 20%-i ümumiyyətlə tapşırığa cavab verməyib və ya öz cavabı ilə mümkün doğru cavabları, qiymətləndirmə şkalasını müqayisə edib tanış olmadan komissiyaya müraciət ediblər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmayacaq.

Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 23 iyul saat 10:00-dan 25 iyul saat 17:00-dək apelyasiya.dim.gov.az saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər.

Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apellyasiya təşkil olunmur. Apellyasiya müzakirəsində abituriyentin iştirakı vacibdir.

Abituriyent ilə yanaşı valideynlərindən biri müzakirədə iştirak edə bilər. Bir abituriyentin ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

Müsabiqə şərtlərini ödəyən abituriyentlər üçün ixtisas seçimi tarixləri haqqında əlavə məlumat veriləcək.

# YENİYETMƏLƏRƏ ŞİRİN-ŞƏKƏR SÖZ ÇƏLƏNGİ



*Ələsgər ƏLİOİĞLU*

**Beynəlxalq Andersen Şərəf Diplomu və Azərbaycan Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" mükafatı laureatı şair Qəşəm İsabəylinin Şirvannəşr (Bakı-2022) tərəfindən çapdan buraxılan "Əsərləri toplusu"nu (I cild) nəzərdən keçirdikdən sonra belə bir qənaətə gəldim ki, o, ədəbiyyatımızda özünü göstərən geniş bir boşluqda qələm çalır.**

Kiçik yaşlı uşaqlar üçün yazan müəlliflərimiz elə də çoxluq təşkil etməsələr də, hər halda qismən məqbul sayılmalıdır.Ancaq bu gün yeniyetmələr üçün yazanlarımızı barmaqla göstərmək olar. Bunlardan biri , bəlkə də elə birincisi Qəşəm İsabəylidir. Ən kiçik uşaqların həyatından verilən poetik təsvirlərə belə, bir yeniyetmə baxışı ilə yanaşılır.

-Əllərin neçədir, Şəmşəm?
-Yəqin ki,
İki...
-Ayağın neçədir, Şəmşəm,
-Dörd
-At olmusan?!
-İmələyirəm.

Söz yox ki, bu, iməkləyən uşağın deyil, yeniyetmənin müşahidəsi nəticəsində meydana çıxan, düşündürücü bir cavabdır. Müəllifin bu səpkili şeirlərilə kitabda tez-tez qarşılaşırıq. Kiçik yaşlı körpələrin həyatından bəhs edən "Çaydan", "Fərari", "Alver", "Babamın üzü", "Ay ata", "Zəif" və bu kimi lövhələrin hər biri fikrimizin konkret təsviri kimi özünü doğruldur.

Şairin yeniyetmələr üçün qələmə almış olduğu nümunələrdə yurd-yuva sevgisi, zəhmətə bağlılıq,təbiətə məhəbbət və s. bu kimi mənəvi dəyərlər əsas yer tutr. Bu nümunələrin ən ümdə xüsusiyyətləri ondan ibarətdir ki, müəllif oxcusuna mənəvi zövq verməklə yanaşı, onların bilgi qazanmalarına da şərait yaradır. "Babamın yaşı" şeirinə nəzər yetirək:

***-Neçə yaşın var, çinar?***
***-Köklərimdən soruş, gəl!***
***-Ay çinarın kökləri,***
***Siz bilərsiniz məgər?***

***-Biz nə deyək, yaxşısı***
***Tap beli,***
***Beldən soruş.***
***-Ay bel, sən nə deyirsən?***
***-Tap əli,***
***Əldən soruş.***

***Tapdım əli...***
***Buy, bu ki,***
***Babamın əlləriymiş!***
***Çinarın başı üstə,***
***Bir əsrin illəriymiş!***




Kitaba daxil edilmiş "Ortaq", "Söhbətcil", "Yel baba", "Şəhərli oğlan", "Ərköyün", "Bizim küçük", "Konsert", "Arılarla dəyib aram", "Bizim it", "Babamın qarğışı", "Ən böyük canlı", "Ən ağır söz", "Mənim bağım", "Oyundan sonra", "Məktub", "Döyüşçü", "Zəmi", "Başaq", "Abşeron", Vətən-yəni biz", "Şikəst adam" və s. poetik nümunələrin hər biri də uşaqlara nəsə yeni bir bilgi aşılayır. Kitabda bu səpkili poeziya nümunələr çoxluq təşkil edir.

Qəşəm İsabəylinin poemaları da real həyat qaynaqlarından mayalanmış uğurlu nümunələrdir. Bu əsərlərin qəhrəmanları xarakter etibarilə bir-birindən fərqlənsə də, onları eyni bir ruh, eyni bir arzu-istək birləşdirir. "Şamaxı-Şam nağılı", "Əkil-Bəkil" və "Nənəm təkdi" poemaları incə duyğular üstə köklənmiş, yumorla dada-duza gətirilmiş əsərlərdir.

Bu poemalardakı hadisələr, əhvalatlar və ayrı-ayrı məqamlarda özünü göstərən yumor hissi yeniyetmə oxucuda xoş əhval-ruhiyyə doğurur. Müəllifin əsərlərindəki mövzu əlvanlığı, deyim tərzi, sözlərdən yerli-yerində istifadə, həmçinin bu kimi bir sıra ədəbi keyfiyyətlər oxucuların maraq dairəsini daha da genişləndirir.

Kitaba filologiya üzrə fəlsəfə doktoru, dosent Günay Qarayeva "Balaca dünyanın böyük həqiqətləri" adlı ön söz yazmışdır. Ön sözdən aydın görünür ki, o, uşaq ədəbiyyatına dərindən (özü də çox dərindən!) bələddir. Məqalədə aparılmış təhlillər və araşdırmalar bu mövzuda olan qrafoman yazılardan seçilir.

**Qəşəm İsabəylinin bu kitabı yeniyetmə oxucularımız üçün bir müdriklik çələngidir desək, yəqin ki, yanılmarıq. Bu çələng yuxusuz gecələrdə gərgin zəhmət bahasına şirin-şəkər sözlərdən hörülmüşdür. Söz yox ki, şairin "Əsərləri toplusu" çağdaş Azərbaycan uşaq ədəbiyyatının inkişafında əlamətdar bir görüntü yaradır ki, bu görüntü həyatda öz yerini tutmağa çalışan övladlarımızın yüksək bir mənəvi ruhda böyüməsinə şərait yaradacaq.**

# Ağacdələn

**Alabəzək, yaraşıqlı bu quş çox cəld və çevikdir. Dimdiyi uzun və möhkəmdir. Buna görə də bərk ağacı iti dimdiyi ilə deşə bilir. Adı da buradan götürülüb. Agacdələn- yəni ağacı deşən, dələn. Ağacda dəlik açan.**

Ağacdələn çox hissiyatlı, güclü eşitmə qabiliyyətinə malik və dərin müşahidəçidir. O, ağaca baxmaqla,onun zahiri görünüşünü müşahidə etməklə dəqiqliklə təyin edir ki, hansı ağacın və hansı yerində qurd var. Uçub ağacın həmin nəzərdən keçirdiyi yerinə qonur. Ehtiyatla ətrafı müşahidə edib, qulağını ağaca söykəyir. İçəridə olan qurdun hərəkətindən ( qurd yatılı da ola bilər) onun yerini zərgər dəqiqliyi ilə tapır. Və sonra silahını işə salır. Yəni dimdiyi ilə ağacı döyəcləməyə başlayır. Onun dimdiyinin bərk səsi içərideki qurdu səksəkəyə salır və qurd təlaş içərisində vurnuxmağa başlayır. Qurdun hərəkətləri, bu yağlı yeməyin lap burnun ucunda olması ağacdələni daha tez və cəld işləməyə həvəsləndirir. Ağacdələn qızışaraq zərbələrinin sayını artırıb gücləndirir. Ac qarnının yemək istəyi ağacdələni rahat buraxmır. O, ovuna tez yetişmək üçün aramsız vurunuşur. Ova daha da yaxınlaşan ağacdələn, onun qoxusunu duyub zərbəni daha bərk endirir. ( Halbuki, bu zaman o nəfəsini dərmək üçün, az da olsa bir istirahət zamanı ayırmalı idi)... Zərbəsi elə olur ki, dimdik sanki beyinə sancılır, ağacdələnin beyni silkələnir. Gözünə qaranlıq çökən ağacdələnin ayaqları ağacdan aralanır, o, müvazinətini itirərək aşağıya, torpağa sarı yu-



varlanır. Tərs kimi, torpağa yetişəndə ağacdələn çox zaman başının arxası ilə yerə dəyir. Havada ölən ağacdələn sadəcə olaraq, yerə düşür, canını torpağa tapşırır. Beyin silkələnməsindən ölür ağacdələn...

**Adil MİSİRLİ**

# Poeziya həyatın özüdür

**Bəzən soruşurlar: poeziya nədir, nə deməkdir? Poeziya duyğuların, hiss və həyəcanların poetik dillə təsviri və insanlara çatdırılmasıdır. Harada həyat varsa, gənclik yaşayırsa, gözəllik varsa, demək orada poeziya var. Bədii ifadə vasitələri poeziyada daha gərəkli, emosional və çevikdir. Bir məsələ də var ki, sözün bədii ifadə tərzi, deyilişi o qədər gözəl olmalıdır ki, eşidən, yaxud oxuyan deyə bilsin: bir şeir də, onun ruhu da təzədir. Bir də sözün əzəmətini, qüdrətini unutmayan Xətai deyir:**

*Söz var kəsər savaşı,*
*Söz var kəsər savaşı.*

Böyük şairlər, filosoflar şahənşahlar, ölkə başçıları sözün gücü, qüdrəti, sehri qarşısında baş əymişlər: sözün gücü orduların gücünə bərabər olduğu üçün hər kəs onun qarşısında tab gətirə bilməyib.

Qəm, kədər, həsrət, hicran, vüsal, nisgil, aşiqanə sevgi, Vətən çöllərinin rəngi, insanlara sevgi, çirkinliyə üsyan, Vətənə məhəbbəti ürəyində daşımaq - bax bütün bunlar Xanlar Həmid poeziyasının ana xətti olaraq keçir. Lakoniklik, yığcamlıq, az sözlə mürəkkəb və dərin mətləbləri qandırmaq onun poetik dünyasına xasdır. Bu dünyanın başlandığı yer Lerikdir, Çayrud kəndidir, onun özü qədər sevdiyi ulu dağlar, dərin dərələr, rəngbərəng çiçəklər, güllərdir, meşədir, nəğmə oxuyan çaydır, yollardır, şırşır axan bulaqlardır. Şair haqlı olaraq doğulduğu Çayrud kəndini dünyanın ən gözəl məkanı adlandırır. Hətta o, kəndinə o qədər bağlıdır ki, kəndi əhatəyə almış dağlardan icazə almamış bir yana gedə bilmir. Filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü Yədulla Ağazadə Xanlar Həmidin bu il nəfis tərtibatla, keyfiyyətlə çapdan çıxmış "Darıxan sevgilər" kitabına ön söz yazaraq "Bittməyən sevgi hekayələri"ndə deyir ki, kənddir onu əzəmətli dağlara, torpaqlara bağlayan. Şəhərdə havası çatmayan şairə həyat verən baba dağlardır, ulusu, keçmişi olan bu dağların suyu, havası onu şair edibdir:

***Başımda kənd havasıdır,***
***Şəhərdə qala bilmirəm.***
***Babam olan bu dağlardan,***
***İcazə ala bilmirəm.***

Eşq, ülvi məhəbbət, pak sevgi, hicran, vüsal - bütün bunlar poeziyanın, şairin əbədi mövzularıdır. Onlar zaman-zaman bu mövzuya müraciət ediblər, istəklərinə çatanda, çatmayanda qələm və kağıza sarılıblar. Ünlü şairlərimiz Füzulinin, Nizaminin örnəkləri buna misaldır. Xanlar Həmid isə eşqə, məhəbbətə yeni prizma bucağından baxır:



***Canıma can bağışlar,***
***Canımın da canı eşq.***
***Məqamın eşq məqamı,***
***Ruhumun məkanı eşq!***

"Bu, eşq" adlı şeirində isə Xanlar Həmid belə deyir:

***Bu, eşq!***
***Boynubükük qalıb elə***
***Məsumların arasında.***
***Sevgisinə əsir düşüb***
***Gözlərimin qarasında.***

Görünür, Xanların eşqi bir başqa eşqdir. O, bu eşqin nazını çəkir, əzizləyir, ona dəyər verir, ona ümid bağlayır - qəbir evində də!

Xanlar Həmidin sevgisi çılpaq deyil, bütün varlığı ilə duyulan, həsrətin vüsalına gedən sevgidir, onun şah əsəridir. Keşkə belə sevgi, belə eşq hər kəsə nəsib ola...

Xanlar Həmidin sevgisi, onun poetik aləmdə təsvir elədiyi sevgi, bu sevginin insanla harmoniyası özəl bir mövzudur, öyrənilməyə, təqdir edilməyə tədqiqata layiq bir aləmdir.

***İlahi, duyğunun naxışı gəldi,***
***Çiynimə gözünün yağışı gəldi,***
***Qəlbimə eşqimin yürüşü gəldi,***
***İlahi, bu gözəl göylərdən gəlib!***

Xanlar Həmidin poeziya aləmində vətənsevərlik, torpağa, yurda məhəbbət, bizə qələbəni yaşadan Vətən oğulları, öz qızıl qanı ilə torpağa can verib onu dikəldən şəhidlərimizdir. "Şah İsmayıl" şeirində (2018) o, yazır:

***Allah, Allah, Şah İsmayıl deyilmi,***
***Əyni sökük oturubdur burada?***
***Atam, bura Çaldıranmı onunçün***
***Boynubükük oturubdur burada?***

Şair, daha nə Şah İsmayıl nə boynubükükdür, nə də Vətənin qartal kimi qıyya çəkib düşməni zəbun edən ər kimi ər oğullarımız!

Təzə kitabında Xanlar Həmid şir kimi haqq savaşına girən, düşmənin başına od ələyib onu doğulduğuna peşiman edən, işğala məruz qalmış torpaqları işğaldan azadlığa çıxaran şəhidlərimizə bir neçə şeir həsr edib. Hamısı da Vətən yolunda canını əsirgəməyənlərə layiqdir.

***Kimə gərək barsız söyüd?***
***Vətən sizə verdi öyüd.***
***Ey qəhrəman, şanlı, igid,***
***Ruhu mələk şəhidlərim.***

Vətənin cəsur qartalı, Qarabağın azad edilməsi uğrunda fövqəladə qəhrəmanlıq göstərənlərdən biri də Şuşanın fatehi, baş leytenant, orden, medallı Əliqismət Mükafat oğludur. Xanlar ona ithaf elədiyi "Əliqismət" sərlövhəli şeirində yazır:

***Bu yurdun dağı da, düzü də şəhid,***
***Qayıtdı o şərəf-şan, Əliqismət,***
***Şəhidlik zirvəsi özü də şəhid,***
***Verdin sən canına can, Əliqismət!***

Zənnimcə, Əliqismətin timsalında bütün şəhidlərin hünərini, qəhrəmanlığını ifadə edən misralardır. Vətəni sevən şair onu qoruyanları da sevir, övladlarını da...

Xanlar Həmid, bu sevgi platonik bir sevgidir. Gözəli göylərdən yerlərə endirən, əlçatan sevgidir. Hamımız bu sevgiyə möhtacıq! Eşq olsun bu sevgiyə!

Mübaliğə üçün yox, müqayisə üçün deyək ki, Xanlar Həmid poeziyası həmyaşıdlarınkından fərqlidir, daha öncüldür. Sanki, o ürəyimizdən keçənləri kağıza köçürüb kitablarıyla aləmə səs salır: ey insan ayılmaq vaxtıdır: nə üçün yaşadığını bil, haradan gəlib, haraya getdiyini unutma. Çalış bir təmiz adın, bir də əməlin qalsın dünyada.

**Elə məhz şairin arzusu, istəyi də budur!..**

**İdris Şükürlü,**
**tədqiqatçı jurnalist**

# Qaranlıq dünyanın işıqlı adamı

**(Hekayə)**



*Məlahət Hümmətqızı*

Arif basqalarına bənzəmirdi. Onun öz kiçik dünyası və bu dünyanın toxunulmaz qayda-qanun-ları vardı. Özü istəmədən heç kim onun dünyasına daxil ola bilməzdi. O, heç kimin cəsarət edib girə bilməyəcəyi qaranlıq dünyada dinc yaşayırdı. Yaşadığı dünyanı özü təsəvvür etdiyi kimi gö-rürdü. Mənə hərdən elə gəlirdi ki, o, rəssam fantaziyasının əsəridir, onun həyatı rəssamın cızma-qara cizgiləri və özündən basqa heç kəsin anlamadığı bir rəngsiz tablodur. Kənarda dayanıb diqqətlə ona baxırdım. Ağ qıvrım saçları ona yaraşıq verirdi, boy-buxunlu, enlikürək, cüssəli adam idi. Ağlı- zəkası öz yerində, həyata baxışı o qədər aydın idi ki... Hər gün bir keyfiyyətini kəşf edirdim. Allah ondan təkcə gözlərinin nurunu əsirgəmisdi.

Onun sağalmağını çox istəyirdim, onun üçün dua edirdim, ona güc, qüvvət və şəfa arzulayır-dım. Bacardığımı edirdim. Canındakı virusu yox etmək, onu ayağa qaldırmaq üçün bütün çarələrə əl atırdım. Basqa növbənin həkimlərinə də tapşırırdım ki, ondan muğayat olsunlar. Vəziyyəti yax-şı deyildi, gündən-günə də ağırlaşırdı. Qaranlıq dünyasında xəstəliyi ilə baş-başa çaş-baş qalmısdı. Taleyindən küsmüsdü. Özü də bilird ki, virus işini görüb, sağalacağına inamı qalmamısdı. Biz də ümidsiz idik, amma sona qədər mübarizə aparmağa qərarlı idik. Bircə hərarətini sala bilsəydik, elə bilirdim ki, hər şey düzələcək, xəstəmiz kəfəni yırtacaq.

Zöhrənin gözləri zəif, dumanlı görsə də, Arif anadangəlmə kor idi. Gözləri işıqlı dünyaya həsrət idi. Hər ikisi dünyanın gözəlliklərini görməsələr də, birlikdə xosbəxt olmağın mümkün ol-duğuna inanırdılar. Evləndilər. Valideynləri kömək etməyə çalışırdılar, özləri də bütün çətinliklə-rə sinə gərib min bir əziyyətə qatlasdılar. Ay parçası kimi iki gözəl qız övladları dünyaya gəldi. Biri sağlam olsa da, digəri xəstə doğuldu. Amma əziyyətlərinin bəhrəsini gördülər. Böyük qızı ailə qurdu. Çox xosbəxtdi. Valideynlərinə sağlam nəvə payı da bəxş etdi. Zöhrənin dediyinə gö-rə, nəvələrini özü böyüdüb. Ər-arvad özlərini çox sağlam və gümrah hiss edirdilər, amma virusa yoluxana qədər. Onlar dörd gün idi ki, kovidə yoluxmuş, xəstəxanamıza yüksək hərarətlə qəbul olunmusdular. Arifin vəziyyəti xanımının vəziyyətinə nisbətən daha ağır idi. Dörd gecə başının üstündən çəkilmədik. Səhərə qədər yüksək təzyiqini, hərarətini və enən saturasiyasını normal-lasdırmağa çalısdıq. Yanaşı xəstəlikləri isə onu irəli getməyə, sağalmağa, yaxşılasmağa qoymurdu.

Arif dözümlü idi, canı ağrısa da, şikayət etməzdi. Çox danısmazdı. Amma mən hər palataya gələndə kefi açılırdı, xoshal olurdu. Heç yadımdan çıxmaz, bir dəfə səssizcə palataya girdim. Üzü divara uzanmısdı. Anidən çevrilib, sanki məni görürmüş kimi, üzümə baxıb salam verdi. Donub qaldım, danışa bilmədim. O məni necə görürdü? Bəlkə bəsirət gözü var idi, bilmirəm. Gülümsə-yib salam verdim. Deyəsən, gülümsəməyimi də hiss etdi, başını aşağı əyib qımısdı. "Necəsiniz" deməyə utandım. Vəziyyəti göz qabağındaydı, gecədən qalxan hərarəti düsməmisdi. Hərarətinin olması üzündən hiss olunurdu. Çöhrəsi qızarmısdı. Zöhrə ayaq üstə dayanıb vəziyyəti həyəcanla müşahidə edirdi. Yaxınlaşıb tanometrlə təzyiqini ölçdüm. Təzyiqi normal idi. Zöhrə əlindəki ter-mometri mənə göstərib:

- Doktor, hərarəti bir az olar yüksəlib. Sizə qədər həkimlər hər şey edib. Hərarəti düsmüsdü, dedi.

- Narahat olmayın, nə lazımdır edəcəyik. Ona gün ərzində maye vermisiniz?

- Xeyr, doktor, heç nə içmir, sizdən əvvəl tibb bacısı maye köçürən kimi hərarəti düsdü.

- Bax səbəb budur. Hərarəti salmaq üçün bol maye içirmək lazımdır.

Zöhrə tez elektrik çaydanını işə salıb, çay tədarükü üçün suyun isinməsini gözlədi. Tibb bacı-sına hərarəti salmaq üçün tapşırıq verib, növbəti palataya keçdim. Palatalarda xəstələrə baxış keçi-rib təyinatlar verdikdən sonra yenidən Arifin palatasına qayıtdım. Tibb bacısı öhdəsinə düşən bü-tün isləri görüb bitirmisdi. İçəri daxil olanda Arif yatağında oturub çay içirdi. İçəri girdiyimi bu də-fə açıq-askar hiss etdi. Dayanıb qəribə baxıslarla bir xeyli üzümə baxdı.

- İnanılmazdır, siz məni görürsünüz? Mənə necə diqqətlə baxırsınız. Yəqin dərmanlarımız kö-mək edib, - deyib, vəziyyəti stabil olduğu üçün kefini açmaq istədim. Bu anda ürəyimdən çoxlu suallar keçdi və onun qaranlıq dünyasına bir anlıq daxil olmaq istədim. Yenə gülümsədi.

- Sizi yadımda saxlamaq istəyirəm. Sadəcə bu.

-Məni necə təsəvvür edirsiniz, mən necəyəm? - Diqqətlə xəstəmin üzünə, hərəkətlərinə baxdım. Maraqla nə deyəcəyini gözlədim. Bir anlıq xəyala daldı. Sonra görürmüş kimi başını qa-dırıb gözlərini üzümə zillədi.

- Sizin üzünüzü günəşə bənzədirəm, doktor. Heç vaxt üzünü görmədiyim və görə bilməyəcə-yim günəşə. Bu dünyada ən çox görmək istədiyim günəsdir.

- Niyə günəş, axı o çox uzaqdır.

- Uzaq olsa da isidir, qaygı göstərir, gülümsəyir, sabaha ümid verir... Günəşə hər kəsin ehtiya-cı var, korların belə. İnsanlara yardım edirsiniz, qayğı göstərirsiniz, sağaldıb evinə, ailəsinə qayta-rırsınız. Siz mələksiniz, doktor...

Yenə dayanmadım, "şıltaqlıq" etdim:

- O mələk necə olur? ? deyə sevincək sorusdum.

- Mehriban, üzügülər, hamıya yardım edən, gözəl simalı...

- Bəs saçlarım nə rəngdədi?

Yenə gülümsədi, üzümə baxdı. Skafandrdan yalnız gözlərim görünürdü, gözləri görsəydi be-lə saçlarımı görməsi imkansızdı.

- Günəş rəngində. Bəlkə elə deyil, amma mən elə görürəm, doktor, - deyib susdu.

Təəccübümü və həyəcanımı gizlətmıək üçün ani olaraq əlimi ağzıma aparıb Zöhrəyə baxdım. Yəni "sən demisən?" Zöhrə əllərini havada yellədərək "yox" işarəsi verdi və gülümsədi. Gözlərim doldu. O hər şeyi düz deyirdi, saçlarımın rənginə kimi. Gözlərim hələ də ona dikilmisdi, dol-musdum. Arif başını aşağı əyib susurdu. Deyəsən, təəccüb və həyəcanımı hiss edirdi.

- Bəs dünyanı hansı rəngdə görürsünüz? ? deyə sorusdum. Bir xeyli susdu. Bəlkə də yaralı yerinə toxundum. Amma bilmək istəyirdim. Onun dünyasına onun gözləri ilə baxmaq, onun dünyasını hiss etmək istəyirdim. Onun dünyası, onun yaşadıqları mənim üçün maraqlı idi. O dün-yanın öz rəngi, öz günəşi, öz insanları, dənizi, küləyi var.

- Xəyalımda hər şeyi görürəm, doktor.

- Fərqimiz nədir, bəs?

- Siz gözlərinizlə görürsünüz, mən qulağımla hiss edirəm , doktor.

Bu dəfə mən susdum. Onun hissiyyatı güclü idi, hüceyrələrilə hər şeyi hiss edirdi.

Başımı yelləyib pəncərəyə yaxınlasdım. Deməyə sözüm yoxdu. Axşam düsmüş, hava qaral-mısdı. Pəncərəni açıb dərindən nəfəs aldım. Bilgəhin təmiz havası ciyərlərimə doldu. Uzaqdan kənd görünürdü. Evlərdən görünən tək-tük işıqlar ürəyimə ümid qığılcımı səpsə də, narahatlıq məni tərk etmirdi. Başımı göyə qaldırıb gözlərimi yumdum. Ürəyimdə Allahdan ona yardım istə-dim. Zöhrə nə baş verdiyini deyəsən anlayırdı, görməsi zəif olsa da, mənim Allaha yalvardığımı hiss edirdi. Yaxınlaşıb çiyinlərimi qucaqladı. "Doktor, mən sizə inanıram, qızımla məni ayağa qal-dırdınız, inşallah, Arifi də sağaldacaqsınız" deyib, başını çiynimə qoydu, içini çəkdi. Nəmli gözlə-rimlə, qəhər içərisində "inşallah" desəm də, dediyimə özüm də inanmadım...

Bir neçə gündən sonra Arifin vəziyyəti daha da ağırlasdı. Hər gün bir az geri gedirdi. Təng-nəfəsliyi, boğulmaları artırdı. Apardığımız müalicə effekt vermirdi. Bu qədər müalicələrə baxma-yaraq, yaxşılasmırdı. Hər dəfə onun oksigen maskasında çətinliklə nəfəs aldığını görəndə ürəyim ağrıyırdı. Özü də bezmisdi. Artıq damarları da partlayır, sistemləri köçürtmək mümkün olmurdu. Qanı laxtalanırdı. Hərdən hönkürüb ağlayırdı. Aman, Allah, bu, dəhşət idi. Onu heç vaxt ağlayan görməmisdim. Zarıyardı. İynələrdən imtina edirdi. "Vurmayın, xahiş edirəm, doktor, canım ağrı-yır. Qoyun rahat ölüm", deyirdi. Kövrələrdim. Bayıra çıxıb bir kənara çəkilib sakitləşməyə çalışırdım.Dəfələrlə onu basqa klinikaya köçürmək haqqında məsələ qaldırsaq da, "yer yoxdur, gözləyin" demisdilər.

Ömrünün son günləri idi. Özü də hiss edirdi. Məndən halalıq istədi. "Halal edin, doktor, mə-nim üçün çox əziyyət çəkdiniz. Sizlik heç nə yoxdu. Ağırlaşıb gəldim. Zöhrə deyirdi, gedək, am-ma mən inanmırdım ki, virus məni yıxar, bu da axırı. Bilirəm, məni öz növbənizdə ölməyə qoy-mayacaqsınız. Hər dəfə belə olub. Mən yaxşılaşanacan başımın üstündə durmusunuz. İndi də belə olacaq. Sizin növbədə ölməyəcəyəm", deyib köks ötürdü və üzünü yana çevirdi. İstədim "yox, siz ölməyəcəksiniz, yaşayacaqsınız" deyim, amma bacarmadım. Yalan danışacağımı hiss edəcə-yindən qorxdum, utandım.

Səhər növbəyə gələn kimi Arifin ölüm xəbərini eşitdim. Bu mənim eşitdiyim növbəti ağır xəbərlərdən biri idi. Hüzn və pesmanlıq hissi ilə sakitcə palatasının qarşısında dayandım, içəri keçməyə tərəddüd edirdim. İşıqlı siması gözümdən getmirdi.

Yaxın xatirələr qəhərə çevrilib boğazımda kilidlənib qalmısdı. Udqunmaq belə çətinləşirdi. Sanki doğma, əziz adamımı itirmisdim. Cəsarət toplayıb qapının cəftəsini itələyib palataya daxil oldum. Yataq da, palata da bosdu. Yata-ğında oturdum. Çəkdiyi iztirablar, ağrılar, söhbətlərimiz, gülüsləri yadıma düsdü, bir-bir gəlib göz-lərimin önündən keçdi.. Bir gün əvvəl arvadına "Zöhrə, üşüyürəm, əlimdən möhkəm tut" deməsi yadıma düşür.

Onun son dəfə tutduğu əli gizlincə çəkmisdim. Telefonu açıb baxıram. Artıq bu əl heç vaxt Zöhrənin əlini tutmayacaq. O, nə günəşi, nə də günəşüzlü həkimini görməyəcək.

# "Qalatasaray"dan növbəti transfer



**"Qalatasaray" heyətini yeni futbolçu ilə gücləndirib.**

Qol.az xəbər verir ki, İstanbul təmsilçisi Fransanın "Olimpik" (Lion) klubunun müdafiəçisi Leo Dubanı transfer edib.

27 yaşlı fransız futbolçu ilə 3 illik müqavilə imzalanıb. "Qalatasaray" bu transfer üçün "Olimpik"ə 2.5 milyon avro ödəyəcək.

**Qeyd edək ki, Leo Duba Fransanın "Nant" klubunun yetirməsidir. O, 2018-ci ildən "Olimpik"də oynayırdı. Müdafiəçi bu komandada ümumilikdə 129 oyuna çıxıb, 5 qola imza atıb. Fransa yığmasının da üzvü olan futbolçu, millidə 13 oyuna çıxıb.**


Binəqədi Qəsəbə Bələdiyyəsi tərəfindən Mürsəlov Səxavət Əli oğlunun adına verilmiş 200 $m^2$ torpaq sahəsi üçün sənəd itmişdir.

***

Binəqədi Qəsəbə Bələdiyyəsi tərəfindən Mürsəlov Səxavət Əli oğlunun adına verilmiş 800 $m^2$ torpaq sahəsi üçün sənəd itmişdir.

***

Əhmədov İdris Teymur oğluna Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Heydər Əliyev prospekti 155, Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınmasına aid verilmiş lisenziya itdiyi üçün etibarsız sayılır.

***

Orucov Cəlal Oruc oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi, "Qarabağ qaziləri" Birliyinin 2375 nömrəli vəsiqəsi, Azərbaycan Respublikasının veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının Quba rayonu I Nügədi kənd sakini Seyidov Məmməd Heybət oğlunun adına 10 iyun 1997-ci il tarixli 06 saylı qərarı ilə verilmiş 0,12 hektar torpaq sahəsi üçün Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair (JN-1936F Kod 30319018) Şəhadətnamə və 1999-cu il 23 mart tarixli 07 saylı qərarı ilə verilmiş 0,82 hektar torpaq sahəsi üçün Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair (JN-2140 Kod 30319018) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.


Vaqif Nəsib və Sabir Cümşüd **Aqil Abbasa** bacısı
**Ədibə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəbi Muxtarov, Aslan Mehtiyev və Əbülfət Mədətoğlu akademik, gözəl ziyalı və unudulmaz insan
**Akif Musayevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına, əzizlərinə, ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

# İdman jurnalistləri avarçəkmədə iştirak etdilər

**Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası 22 iyul Milli Mətbuat Günü ilə əlaqədar tədbir təşkil edib.**

Qol.az xəbər verir ki, tanınmış idman mediası nümayəndələrinin dəvət aldığı tədbir əsasən əyləncə xarakteri daşıyıb.

Hər zaman avarçəkənlərin yürüşünü kənardan izləyən jurnalistlər bu dəfə özləri avarçəkmədə məharətlərini göstəriblər. İdman jurnalistləri üçün verilən ziyafətlə davam edən tədbirin sonunda media nümayəndələrinə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının atributlarını əks etdirən hədiyyələr təqdim edilib.



Qeyd edək ki, ölkəmizdə Milli Mətbuatın təməli 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nəşri ilə qoyulub.

Azərbaycan dilində nəşr edilən "Əkinçi" qəzetinin naşiri, redaktoru, həmçinin korrektoru milli maarifçilik hərəkatının banilərindən olan təbiətşünas-alim Həsən bəy Zərdabi olub. Onunla yanaşı Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların qəzetin ərsəyə gəlməsində böyük xidmətləri olub.


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

Tiraj: 1500
Sifariş: 88
Çapa imzalanmışdır: 22.07.2022